İÇİNDƏKİLƏR / №3,2021

**Laləzar Cəfərova, Ülviyyə Nəsibova**
Məktəbəqədər yaşlı uşaqlarda müstəqilliyin formalaşdırılması problemi 9-18

**Ramiz Əliyev, Nuralı Çələbiyev**
Psixologiya elminin inkişafına və elmi kadrların hazırlığına ADPU-nun töhfələri 19-34

**Kifayət Məmmədova**
Erkən yaşlı uşaqların inkişafı ilə bağlı işin təşkilində tərbiyəçi-müəllimlərin valideynlərlə əməkdaşlığı 35-54

**Kəklik Məmmədova**
Professor Yəhya Kərimovun elmi-pedaqoji irsinə yeni baxış 55-67

**Dilşad Bağırova**
İnteraktiv təlimin mahiyyəti və təşkilinin əsas qaydaları 69-79

**Arif Əsədov**
İbtidai siniflərdə dünya ədəbiyyatı nümunələrinin tədrisi üzrə işin təşkili məsələləri 81-93

**Gülnar Vəliyeva**
Məktəbəqədər yaş dövründə uşaqların sosiallaşması üzrə işin məzmunu, məqsəd və vəzifələri 95-107

**Nəzakət Rəsulova**
Uşaqlarda ailəyə və özünəgüvən hisslərinin formalaşmasına təsir edən amillər 109-118

CONTENTS / № 3, 2021

**Lalazar Jafarova, Ulviya Nasibova**
Problems of independense formation
in preschool children 9-18

**Ramiz Aliyev, Nurali Chalabiyev**
Contributions of ASPU to the development of
psychology and training of scientific staff 19-34

**Kifayat Mammadova**
Collaboration of educators-teachers with parents in the
organization of work on the development of young children 35-54

**Kaklik Mammadova**
A new sight at the scientific and pedagogical heritage
of professor Yahya Karimov 55-67

**Dilshad Bagirova**
The essense and bazis rules of organization of
interactive training 69-79

**Arif Asadov**
Organizational issues of work on world literature
samples in primary school 81-93

**Gulnar Valiyeva**
The content, goals and objektives of the work on
the socialization of children in preschool age 95-107

**Nazakat Rasulova**
Factors affecting family and instilling
self-confidence in children 109-118

# PROBLEMS OF INDEPENDENSE FORMATION IN PRESCHOOL CHILDREN

**Lalazar Jafarova**
Institute of Education of the Republic of Azerbaijan, Head of the Department of Preschool Education Development, Associate Professor, Honored Teacher,
E-mail: l.cafarova@mail.ru
https://orcid.org/0000-0002-2620-2351
**Ulviya Nasibova**
Azerbaijan State Culture and At the University of Arts Teacher of Baku Humanitarian College, at Azerbaijan State University of Culture and Arts
Email: ulviyye.nasib@gmail.com
https://orcid.org/0000-0001-6413-9042

**Abstract.** The article discusses the problems of the development of independence in children, the factors that lead to the formation of this quality, and offers solutions in the form of recommendations for the comprehensive development of personality and the formation of independence in children. The article notes that when we talk about independence in preschool, we often think of a child who serves or has fun without outside help. At the same time, independence is a broader concept than just the ability to serve and have fun. This includes initiative and responsibility for independence, self-confidence, decision-making, the ability to set goals and achieve them. The article provides updates on the content of the preschool education system, training through new approaches, as well as recommendations for parents.
**Keywords:** preschool age, formation of independence, developmental environment, personality-oriented development, integration, parental advice.

**To cite this article:** Jafarova L., Nasibova U. (2021) Problems of independense formation in preschool children. *Journal of Preschool and Primary Education*, V.236, İssue III, pp. 9-18
**Article history:** Received – 15.08.2021; Accepted – 20.08.2021.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MÜSTƏQİLLİYİN FORMALAŞDIRILMASI PROBLEMİ

**Laləzar Cəfərova**
Azərbaycan Respublikası Təhsil İnstitutu, Məktəbəqədər təhsilin inkişafı şöbəsinin müdiri, dosent, Əməkdar müəllim,
E-mail: l.cafarova@mail.ru
https://orcid.org/0000-0002-2620-2351
**Ülviyyə Nəsibova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Bakı Humanitar Kollecinin müəllimi
E-mail: ulviyye.nasib@gmail.com
https://orcid.org/0000-0001-6413-9042

**Annotasiya**. Məqalədə uşaqlarda müstəqilliyin inkişafı problemləri, bu keyfiyyətin formalaşmamasına səbəb olan cəhətlərdən bəhs olunur. Şəxsiyyətin hərtərəfli inkişafı və uşaqlarda müstəqilliyin formalaşması üçün tövsiyələr şəklində həll yolları təqdim edilir. Məqalədə qeyd olunur ki, məktəbəqədər dövrdə müstəqillikdən danışarkən, ən çox kənardan yardım olmadan özünə xidmət edən və ya əylənən uşağı təsəvvür edirik. Bununla yanaşı, müstəqillik – yalnız özünə xidmət etmək və əylənmək bacarığından daha geniş məfhumdur. Buraya müstəqilliyə təşəbbüs və məsuliyyət, özünə inam, qərar qəbul etmək, qarşıya hədəflər qoymaq və onları yerinə yetirmək bacarığı da daxildir. Məqalədə məktəbəqədər təhsilin məzmununun yeniləşdirilməsi, təlimin yeni yanaşmalar vasitəsilə aparılması, valideynlərə tövsiyələr təqdim olunur.

**Açar sözlər:** məktəbəqədər yaş dövrü, müstəqilliyin formalaşdırılması, inkişafetdirici mühit, şəxsiyyətyönümlü inkişaf, inteqrasiya, valideynlərə məsləhət.

**Məqaləyə istinad:** Cəfərova L., Nəsibova Ü. (2021) Məktəbəqədər yaşlı uşaqlarda müstəqilliyin formalaşdırılması problemləri. "*Məktəbəqədər və ibtidai təhsil*", № 3 (236), səh. 9-18
**Məqalə tarixçəsi:** göndərilib – 15.08.2021; qəbul edilib – 20.08.2021.

## Giriş / Introduction

Daha müstəqil olmaq və böyüklərin yardımı olmadan, getdikcə daha çox fəaliyyətləri sərbəst icra etmək uşağın inkişafının mühüm və təbii bir hissəsidir. Uşaqlarda müstəqilliyi inkişaf etdirmək gənc valideynlər üçün ən aktual mövzulardan biridir. Hər bir yetkin insan ailə qurarkən övladı üçün hər şeyin ən yaxşısını, onun hərtərəfli inkişaf etməsini və ən əsası, müstəqil olmasını istəyir, lakin yanlış ailə tərbiyəsi modelini seçən valideynlər, özləri də bilmədən, uşağın xarakterindəki bu və ya digər xüsusiyyətlərin inkişafına zərər vermiş olurlar.

Bu yazıda aşağıdakı sualları nəzərdən keçirəcəyik:

• Müstəqillik nədir? Uşaq xarakterində onun çətin formalaşmasının, yaxud formalaşmamasının səbəbləri nədir?

• Uşaqlarda müstəqilliyi formalaşdırmaq və inkişaf etdirmək üçün onları necə tərbiyə etmək, inkişaf etdirmək lazımdır?

***Müstəqillik*** elə bir keyfiyyətdir ki, bunun sayəsində hər bir şəxs özü üçün hədəflər və vəzifələr təyin edə, onların həyata keçirilməsinin formatı barədə düşünə, fəaliyyət və nəticələrə görə məsuliyyəti öz üzərinə götürə, həmçinin qeyri-ənənəvi qərarlar qəbul edə bilər.

Məktəbəqədər yaş dövründə müstəqillikdən danışarkən, ən çox kənar yardım olmadan özünə xidmət edən, əylənən bir uşağı təsəvvür edirik. Bununla yanaşı, müstəqillik yalnız özünə xidmət etmək və əylənmək bacarığından ibarət deyil, daha geniş məfhumdur. Buraya müstəqilliyə təşəbbüs və məsuliyyət, özünə inam, qərar qəbul etmək, hədəflər qoymaq və onları yerinə yetirmək bacarığı da daxildir [Lyublinskaya A.A., 1971] .

Müasir təhsil yeni inkişaf, modernləşdirmə mərhələsindədir. Buna cəmiyyətdə baş verən həm sosial, həm də iqtisadi dəyişikliklər kömək edir. Bu günkü ciddi dəyişikliklər mərhələsində cəmiyyət savadlı, fiziki, əxlaqi və mənəvi cəhətdən inkişaf etmiş vətəndaşlara xüsusilə ehtiyac duyulur. Yetişməkdə olan nəslin inkişafı və tərbiyəsində məktəbəqədər yaş dövründə aparılan şəxsiyyətyönümlü təhsilin də rolu böyükdür.

## Əsas hissə / Main Part

Qədim Hindistanda belə bir deyim var idi: “Uşaq beş yaşına qədər sənin padşahın, beş yaşdan on yaşına qədər sənin qulun, 10 yaşdan 15 yaşınadək sənin qardaşındır. Sonra isə, necə böyütməyinizdən asılı olaraq, dostunuz və ya düşməniniz ola bilər». 3 – 4 yaş dövrünü isə təxminən «mən özüm» dövrü adlandırmaq

olar. İki yaş yarımdan üç yaş yarımadək olan dövrdə uşaq böhran dövrünü yaşayır. Bu dövrdə o, ilk dəfə özünü bir insan kimi dərk edir, öz istəyi ilə, müstəqil hərəkət etmək istəyir. Buna görə də, bu yaş dövründə böyüklərin uşaqlara nəyi isə tətbiq və ya qadağan etmək cəhdlərini minimuma endirmək lazımdır. Əgər uşağı əhatə edən böyüklər həmişə eyni tələblərə riayət edərlərsə, o, arzu olunan və arzu olunmaz davranışın sərhədlərini tez bir zamanda öyrənər [Teplyuk S.N.,1991].

Məktəbəqədər yaş dövründə müstəqillik və fəallığı inkişaf etdirmək vacib bir problemdir. Məhz bu dövrdə uşaq öz hərəkətlərində və əməllərində fəal, davamlı müstəqilliyə can atır. Kiçik məktəbəqədər yaşlı uşaqlarda müstəqilliyin inkişaf etdirilməsi probleminin aktuallığı uşaqların tərbiyəsindəki müəyyən balanssızlıq ilə əlaqələndirilir.

Son zamanlar aparılan tədqiqatlar uşaqlara infantilizm və köməksizlik sindromunun xas olduğunu göstərir, çünki böyüklər uşaqlara seçim azadlığı vermir, onların müstəqilliyinin inkişafı üçün şərait yaratmırlar. Müstəqilliyin inkişafındakı gecikmələr uşaqda şıltaqlığın, inadcıllığın, daim başqalarının köməyinə arxalanmaq kimi mənfi vərdişlərin ortaya çıxmasına səbəb olur. Eyni zamanda, müstəqillik və fəallığın inkişaf etməsi uşaqda kollektivə emosional baxımdan müsbət münasibətin formalaşmasını, davranışının tarazlılığını və yaşıdları ilə qarşılıqlı münasibətlərdə fəallığını təmin edir. Kiçik məktəbəqədər yaşlı uşaqlarda müstəqilliyin vaxtında inkişaf etdirilməsi onların aktiv qarşılıqlı yardımları, başqalarına qayğı göstərmələri və əşyalara qoruyucu münasibət bəsləmələri üçün zəruri şərtdir [Cəfərova L., 2009].

Təəssüf ki, müstəqilliyin həssas (senzitiv) inkişaf dövründə böyüklərin əksəriyyəti uşaqların təşəbbüskarlığını yatırır, nəticədə uşaqlarda özünəxidmət, təşəbbüskarlıq və nisbi müstəqillik problemi yaranır. İlbəil müstəqil olmayan, başqalarından asılı olan kiçik məktəbəqədər yaşlı uşaqların sayı artır [Cəfərova L., 2016].

Məktəbəqədər yaşlı uşaqlar lap erkən yaşlarından, şüursuz olaraq müstəqilliyə can atır, ilk addımını anasından uzaqlaşaraq atırlar, lakin sonra, nədənsə bəzi uşaqlar bu müstəqillikdən qorxmağa başlayırlar və onlarda başqalarından asılılıq yaranır.

**Uşağın başqalarından asılılığının səbəbləri**. Uşaq asılılığının bir neçə səbəbi ola bilər:

– Uşaq hər hansı bir hərəkəti etməyə hazır deyil, məsələn, uşaq öz ayaqqabısının iplərini aça bilmirsə, buna görə onu danlamaq olmaz. Bunun üçün əvvəlcə ona ipləri açmağı öyrətmək daha yaxşıdır. Uşağı təkbaşına öyrənməyə məcbur etmək də olmaz.

– Ola bilər ki, uşağın müstəqil olmaq istədiyi dövr valideynin diqqətindən yayınıb. Hər uşağın həyatında elə bir dövr var ki, bu dövrdə uşaq "Mən özüm!"- deyir, hər bir problemi özü, müstəqil həll etmək istəyir. Bu dövrdə səbrli böyüklər

uşağın müstəqil hərəkət etməsinə imkan verirlərsə və ya ona kömək edirlərsə, körpə hələ hər şeyi etməyi bacarmasa da, öz müstəqilliyi ilə qürur hissi keçirir. Əgər belə olmasa, uşaq müstəqil olmağın nə qədər yaxşı bir şey olduğunu hiss etmədən bu mərhələ keçib gedir.

– Böyüklər uşaqda müstəqillik tərbiyə etmək üçün çox çalışırlar. “Sən artıq böyüksən! Öyrənməyin vaxtı çatıb. Bəs ana və ata sənin yanında olmayanda, sən tək olanda nə edəcəksən?" – deyə ona təzyiq edirlər və uşaq bu təzyiqlərdən sıxılır.

– Valideynlər uşağı həddən artıq qoruyurlar. “Həmişə birlikdə etdiyimiz halda, nə üçün geyinməyi öyrətməliyik? Niyə müstəqil yemək yeməyi öyrənsin? Axı sonra nə qədər yığışdırmaq lazım gəlir!?” Bir çox hallarda bunun səbəbi valideynlərin özlərinin də uşağı müstəqil görmək istəməmələridir. Bu, tək uşağı olan ailələrdə, xüsusilə də gec övlad sahibi olan ailələrdə baş verir.

– Erkən uşaqlıq dövründə ananın olmaması və ya ağrılı ayrılıqlar olan ailələrdə də belə hallara rast gəlinir.

Bəzən valideynlər kiçik uşağa qayğı müddətini uzatmağa çalışırlar. Bəs uşağın müstəqil olmamasını necə aradan qaldırmaq olar? Bunun üçün psixoloqların müəyyən tövsiyələri var:

– Uşağınızı müstəqil olmağa məcbur etməyin – onunla birlikdə məşğul olun.

– Uşağınızla davranışda səbrli olun! İndi onun geyinməsi bir saat vaxt aparırsa, zaman keçdikcə bunu daha sürətlə etməyi öyrənəcəkdir.

– Əgər uşaq özü sizdən xahiş etmirsə, ona kömək etmək istəyinizi məhdudlaşdırın. Əks təqdirdə, o, öz müstəqilliyi ilə qürurlana bilməyəcək.

– Əgər uşağınız xahiş edərsə, həmişə kömək etməyə hazır olun.

– Uşağınızı özgüvənə təşviq edin. Uşağınızla söhbətlərdə onun bacarıqlarının nə qədər vacib olduğunu vurğulayın. Ailə üzvləriniz və dostlarınızın yanında onun müstəqilliyini tərifləyin.

Uşaqlar həmişə böyüklərin dəstəyinə və köməyinə arxalanmalarına baxmayaraq, müstəqilliklərini başqalarından qoruyurlar. Özlərini tam müstəqil, səriştəli hesab edir, eyni zamanda, böyüklərdən asılı olduqlarını da başa düşürlər. Onların daxili aləmi ziddiyyətli hisslərlə – inam və şübhə, özünə hörmət və utancaqlıq, qorxu və hər şeyə qadir olmaq, qəzəb və mülayimlik, təşəbbüskarlıq və passivlik hissləri ilə zəngindir. Uşaqlar öz müstəqillikləri və özlərinə hörmət uğrunda mübarizə aparır, eyni zamanda bir böyüyün onlara rəhbərlik etməsini və dəstək verməsini gözləyirlər.

Uşaqlara seçim etmək və münasib yollarla intizama çağırıldıqlarını anlamaq imkanı verilməlidir. Bunun üçün məktəbəqədər təhsil müəssisələrində uşağın təhlükəsizliyini və müdafiəsini təmin edən sadə, aydın normalar müəyyənləşdirilməlidir. Böhran yaşayan uşaqlarla ünsiyyət yaratmaq o qədər də asan olmur.

Xatırlamaq vacibdir ki, bu böhran uşağın özünü başqalarından, o cümlədən, böyüklərdən ayrı, tamamilə müstəqil bir insan hesab etməyə başladığı zaman əmələ gəlir.

**Müstəqilliyin inkişaf mərhələləri.** Müstəqilliyin inkişafında üç mərhələ qeyd olunur:

***Birinci mərhələ*** – Uşaq əsas vərdişlərin inkişaf etdirildiyi adi şəraitdə, böyüklərin xatırlatması, köməyi olmadan hərəkət edir (oyun bitdikdən sonra öz oyuncaqlarını yığışdırır, əllərini yumağa gedir, masaya çağırıldıqda, bir şey istəyəndə və ya kömək üçün təşəkkür edərkən "xahiş edirəm" və "təşəkkür edirəm" ifadələrindən istifadə edir).

***İkinci mərhələ*** – Uşaq müstəqil olaraq yeni, qeyri-adi, lakin yaxın və oxşar situasiyalarda adi fəaliyyət metodlarından istifadə edir, məsələn, otağını yığışdırmağı öyrənən uşaq böyüklərin məsləhəti olmadan nənəsinin otağını da yığışdıra bilir, qabları öz yerinə qoyur. Evə gələn qonağa stul təklif edə və ya yeməyə dəvət edə bilir.

***Üçüncü mərhələdə*** yerinə yetiriləcək fəaliyyəti artıq daha geniş müstəviyə keçirmək mümkündür. Bu mərhələdə mənimsənilmiş qaydalar ümumiləşdirilmiş xarakter alır və uşağın istənilən şəraitdə öz davranışını müəyyən etməsi üçün bir meyara çevrilir.

Təhsil sisteminin qarşısında duran dərin biliyə, bacarığa malik şəxsiyyət formalaşdırmaq, vətənini, xalqını sevən, hərtərəfli inkişaf etmiş sağlam nəsil yetişdirmək kimi mühüm vəzifələrin yerinə yetirilməsində məktəbəqədər təhsilin rolu böyükdür. Əslində, sadalanan keyfiyyətlər bir uşağın böyüməsini simvollaşdırır – uşaq nə qədər müstəqildirsə, bir o qədər də yetkin görünür [Belkin A.S., 2000]. Bəzi valideynlər bu keyfiyyətin formalaşmasına əhəmiyyət vermir və həyatı özləri üçün asanlaşdırmaq məqsədilə hər şeyi özləri etməyə, uşağın əvəzinə də qərar verməyə çalışırlar. Uşağın müstəqil olmamasının əsas səbəbi bu və ya digər şəkildə onun təşəbbüskarlığını və məsuliyyətini boğan ailə tərbiyəsi üslubunu seçən valideynlərin davranışlarıdır.

Gündəlik həyatda belə şeylərdə özünü göstərən ümumi səbəblər bunlardır:

▪ valideynlərin uşağı boş vaxtından məhrum edərək, mümkün qədər məşğul etməyə çalışmaları;

▪ uşağı həddindən artıq qorumaq vərdişi (onu evdə tək qoymamaq, məişət texnikalarından istifadə etməsinə icazə verilməməsi və s.);

▪ "bunu uşağa öyrətməkdənsə, özüm edərəm" prinsipi ilə yaşamaq;

▪ valideynin müsbət şəxsi nümunə göstərə bilməməsi.

Müstəqillik tərbiyəsi – uşağın tədricən böyüməsi fikrini qəbul etmək, onun öz hərəkətlərini müstəqil icra etməsinə icazə vermək, öz baxış nöqtəsinə malik olmaq, səhvləri əsasında öyrənmək bacarığıdır.

Uşaqlarda müstəqilliyin formalaşmasının üç əsas istiqamətini nəzərdən keçirək.

▪ ***Uşaqda fiziki və məişət müstəqilliyinin formalaşması***. Çox vaxt bu dövr "üç yaş böhranı" dövrünə təsadüf edir. Uşaq özünü müstəqil şəxsiyyət kimi dərk etməyə başlayır və getdikcə valideynlər ondan "Mən özüm!" ifadəsini daha çox eşidirlər. Uşaq özü sərbəst yeməyə başlayır, tualetini sərbəst edir, əllərini yuyur, ayaqqabısını geyinir, düymələrini bağlayır. Valideynlərə daha çox problem yaradan dövr uşağın məhz bu yaş dövrüdür. Bu dövrdə valideynlərdən maksimum səbrli olmaq tələb olunur. Uşağa məşq etmək üçün şans vermək lazımdır. Axı müstəqillik, xüsusilə gündəlik həyatda müstəqillik, müəyyən hərəkətlərin inkişafından başqa bir şey deyil.

▪ ***Uşağın təlim müstəqilliyinin formalaşdırılması***. 5 – 6 yaşlarında uşağın məişət müstəqilliyinə təlim müstəqilliyi də əlavə olunur. Təlim müstəqilliyinin formalaşmasına nələr daxildir? Buraya iradi gücün inkişafı, məqsədə çatmaq üçün səy göstərmək bacarığı və fəaliyyətlərin düzgün təşkili üçün gündəlik rejimə riayət etmək daxildir. Uşaqda müstəqil geyinmə, oynayandan sonra oyuncaqlarını yığışdırmaq, məşğələyə hazırlıq, məşğələdən sonra vəsaitləri öz verinə qoymaq və s. bacarıqlar formalaşdırılmalıdır.

Təlim müstəqilliyini stimullaşdırmaq üçün bir motiv olmalıdır. Bu, maddi deyil, idraki motiv olmalıdır. Uşaqlara görülən işdən məmnun olmalarını öyrətmək də çox vacibdir. Tapşırıqların uşaq üçün daha asan və maraqlı olanlarından başlamaq lazımdır. Valideynlər uşağı əvvəlcə hərəkətlərində dəstəkləməli, tapşırığın ən yaxşı şəkildə necə yerinə yetiriləcəyini izah etməlidirlər.Yerinə yetirmə prosesinin sürətləndirilməsini nə qədər istəsəniz də, hərəkəti uşağın əvəzinə yerinə yetirmək olmaz.

▪ ***Uşağın fərdi müstəqilliyinin formalaşdırılması***. Uşaqların müstəqilliyinin inkişafında ən çətini bu mərhələ hesab olunur. Bu, uşaqların yalnız məişət və ya təlim müstəqilliyini deyil, həm də müstəqil qərar qəbuletmə qabiliyyətini əhatə edir. Erkən yaş dövründə valideynlər uşağa seçim etməyi təklif etdikdə onların şəxsi müstəqilliyinin formalaşmasının əsası qoyulur, məsələn, bunun üçün yalnız iki seçim təklif etmək kifayətdir: "Parka gəzməyə gedək, yoxsa həyətdə oynayaq?" Bu şəkildə təkliflər verərək, uşağın düşünüb qərara gəlməsinə və bu qərarı əsaslandırmasına zəmin yaratmış oluruq.

Uşağın müəyyən bir vəziyyətdə nə etmək lazım olduğu sualına qarşı digər sual vermək olar: "Sən necə düşünürsən?" Müstəqilliyin inkişafında bu mərhələ, bəlkə də, ən vacibidir. Onun formalaşması üçün uşaqların qərarı doğru olmasa da, onları qınamaq və ya tənqid etmək olmaz, əksinə, onlar üçün yenə imkanlar yaradılmalıdır. Növbəti dəfə uşaq öz qərarına daha məsuliyyətlə yanaşacaq. Uşağın səhv edəcəyindən qorxmaq lazım deyil, əksinə, o, öz səhvlərindən nəticə

çıxarmalıdır.

Müstəqilliyin tərbiyə olunması bir günlük proses deyil. Əgər böyüklər yeniyetməlik dövrünə qədər uşaqda bu xüsusiyyəti formalaşdırmağı bacarmayıblarsa, deməli, aradan keçən o müddət həmişəlik itirilib.

Aşağıda uşaqlarda müstəqilliyin formalaşdırılması üçün valideynlərə kömək edəcək tövsiyələri təqdim edirik.

1. Özünə qulluq etməyi öyrədərkən uşağa hər şeyi yavaş-yavaş, izahatlarla göstərin. Bu hərəkətləri yavaş-yavaş icra edin ki, uşaq görsün və öz üzərində tətbiq edə bilsin.

2. Səbrli olun və uşağın hər tapşırığı sona qədər başa çatdırmasına imkan verin. Yalnız bundan sonra bunu necə edəcəyini bir daha ona göstərin və ikinci dəfə cəhd emək üçün şans verin.

3. Müstəqil hərəkətlərin sayını genişləndirmək üçün uşağa imkan verin.

4. Uşağı etdiyi səhvlərə görə qınamayın, əksinə, ona hərəkət variantları və seçim meyarları təklif edin.

5. Nəyin düzgün, nəyin yanlış olduğunu uşağa aydın şəkildə izah edin, qaydaları müəyyənləşdirin.

6. Uşağa özünəxidmət qaydalarını öyrədin (dişləri fırçalamaq, yuyunmaq, tualetə getmək, yemək yemək, paltarlarını geyinmək və s.).

7. Uşağa, öz məşğələlərini müəyyən dərəcədə sərbəst planlaşdırmağa imkan verin.

8. Uşağı müəyyən dərəcədə himayə etmək də lazımdır.

9. Uşağı ev işləri ilə tanış etmək və gücü çatan səviyyədə onun köməyini qəbul etmək olar.

10. Uşağın səhvlərini sakit qarşılayın, onları birlikdə təhlil edin və ona öz təcrübənizdən danışın.

11. Uşağa məsuliyyətli olmağı başa salmaq, onun ölçüsünü izah etmək, öyrətmək lazımdır.

12. Uşaqda özünəinam və şəxsi ləyaqət hisslərinin inkişafına kömək etmək lazımdır.

13. Uşaqla bərabərhüquqlu bir insan kimi ünsiyyət qurun. Ünsiyyət zamanı onun hisslərini, duyğularını nəzərə alın, hadisələr haqqında onun fikri ilə maraqlanın.

14. Heç bir vəchlə uşağa təzyiq göstərməyin.

15. Uşağın qarşılaşdığı problemlərin həllində onun müstəqilliyini məhdudlaşdırmayın [Cəfərova L., 2011].

Beləliklə, qeyd etmək lazımdır ki, valideynlər uşaqlarda müstəqillik bacarıq və vərdişlərini tərbiyə etdirməyin vacib olduğunu, gələcəkdə onların yetkin bir şəxsiyyət olacaqlarını unutmamalıdırlar.

## Nəticə / Conclusion

Biz bu tədqiqat işində bir uşağın daha müstəqil olmasına kömək edən şəraitin təşkil edilməsinin əsas cəhətlərinə, prinsiplərinə nəzər saldıq. Valideynlərin öz uşaqlarını daha sərbəst, müstəqil görmək arzusunun həyata keçib-keçməməsi vaxtında və düzgün təşkil edilmiş şəraitdən asılıdır.

Uşaqlarda müstəqilliyin formalaşmasının üç əsas istiqaməti – fiziki və məişət müstəqilliyi, təlim müstəqilliyi, fərdi müstəqillik müşahidə olunur.

Uşaqlarda müstəqilliyin tərbiyə olunması bir günlük, bir dəfəlik və yaxud qısa müddətli bir proses deyil. Əgər yeniyetməlik dövrünə qədər uşaqda bu xüsusiyyət formalaşdırılmayıbsa, deməli, aradan keçən o vaxtın həmişəlik itirildiyini deyə bilərik.

Məqalədə uşaqlarda müstəqilliyin formalaşdırılmasında valideynlərə kömək edəcək tövsiyələr təqdim olunur. Müstəqilliyin formalaşması üçün, uşaqların qərarları doğru olmasa da, onları tənqid etmək olmaz. Əksinə, onlar üçün yeni imkanlar yaradılmalıdır. Müəlliflərdən birinin dediyi kimi, uşaq nə qədər müstəqildirsə, bir o qədər yetkin görünür.

Valideynlərin məktəbəqədər müəssisə ilə əməkdaşlığı olmadan uşağın tam və hərtərəfli inkişafı mümkün deyil. Valideynlərə elə təsir göstərmək lazımdır ki, onlar məktəbəqədər yaş dövründə uşaqla birlikdə olsunlar və ona kömək etsinlər. Ən təsirli nəticə isə qarşıya qoyulan məqsədlərin həyata keçirilməsindən sonra alınır.

**Problemin aktuallığı.** Bu nəticəyə gəlirik ki, uşağın müstəqilliyi – onun müəyyən dərəcədə yalnız müəyyən bir məsələdə qərar qəbul etdiyi bir vəziyyətdir. Müstəqillik olmadan uşaq şəxsiyyətinin müəyyən cəhətlərini inkişaf etdirmək mümkün deyil. Bu, uşaqda cəmiyyətə uyğunlaşma, özünəinam, müstəqillik, özünüqiymətləndirmə kimi xarakter xüsusiyyətlərin formalaşmasına kömək edir.

**Problemin elmi yeniliyi.** Tədqiqat prosesində tərbiyə və təlim texnologiyalarında baş verən dəyişikliklər – "valideyn – uşaq – tərbiyəçi-müəllim" – qarşılıqlı hörmət və etimada əsaslanan bərabərhüquqlu münasibətlərin mahiyyətinin dəyişməsi, məktəbəqədər təhsil proqramlarının həyata keçirilməsi şərtləri, məktəbəqədər təhsil işçilərinin peşəkarlığının artırılması, məktəbəqədər təhsilin ictimai mahiyyətinin dərk edilməsi və s. məktəbəqədər təhsilin keyfiyyətinə müsbət təsir edir.

**Problemin praktik əhəmiyyəti.** Valideynin sevgisi, enerjisi, uşağın inkişaf xüsusiyyətlərini yaxşı bilməsi sayəsində o, övladına özünənəzarət, xarici tələblərlə daxili istəklərini əlaqələndirmək bacarıqlarını və nəticədə, müstəqil olmağı

öyrənməkdə kömək edə bilər. Tərbiyəçi-müəllim yeni yanaşmaların tətbiqini həyata keçirmək üçün müvafiq səriştələrə malik olmalı, fərqlilik baxımından tədris prosesini necə quracağını əvvəlcədən bilməlidir.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. /"Azərbaycan müəllimi"/, 2013, 25 oktyabr.
2. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları". (2019). Bakı: 8 avqust, edu.gov.az.
3. Cəfərova L. Məktəbəqədər tərbiyə sisteminin müasir problemləri. //"Təhsil, Mədəniyyət, İncəsənət"//, 2002, № 4, səh.71–72.
4. Cəfərova L. Məktəbəqədər təhsilin yeniləşdirilməsi yollarında. //"Məktəbəqədər və ibtidai təhsil"// , 2009, № 2. s. 15–21.
5. Cəfərova L. Məktəbəqədər təhsil: inkişafin prioritetləri və problemləri. TPİ, //"Elmi əsərlər"//, 2011, № 3, s.68–72.
6. Cəfərova L. Məktəbəqədər müəssisələrdə təlim prosesində keyfiyyətin idarə olunması. //"Kurikulum"//, 2013, № 3, s. 43–47.
7. Cəfərova L. Məktəbəqədər təhsilin konseptual problemləri. (2016). Məktəbəqədər təhsilin yeni məzmunu və idarə olunmasi məsələləri. TPI. Bakı. s. 31–49.
8. Belkin A.S. 2000. Osnovı vozrastnoy pedaqoqiki. – M., – 192 s.
9. Lyublinskaya A.A. 1971. Detskaya psixoloqiya: uchebnoe posobie dlya studentov pedaqoqicheskix institutov .– M.: "Prosveshenie", 216 s.
10. Teplyuk S.N. İstoki samostoyatelnosti doshkolnika. / S.N. Teplyuk // "Doshkolnoe vospitanie". – 1991. – № 7. – s. 67–71.

# CONTRIBUTIONS OF ASPU TO THE DEVELOPMENT OF PSYCHOLOGY AND TRAINING OF SCIENTIFIC STAFF

**Ramiz Aliyev**
Head of the Department of General Psychology of ASPU, doctor of Psychological Sciences, professor, Honored Teacher of the Republic
E-mail: ramizaliyev1954@mail.ru
https://orcid.org/0000-0002-9990-6974
**Nurali Chalabiyev**
Deputy Director for Scientific Affairs of Sheki branch of ASPU, Doctor of Philosophy in Pedagogy, associate professor, dissertant on the PhD program of Department of General Psychology of ASPU
E-mail: n_chelebiyev@mail.ru
https://orcid.org/0000-0002-0684-8876

**Abstract.** The article is dedicated to the formation of the psychological science in Azerbaijan, the services of ASPU which is the second higher educational institution founded in 1921, in the training of scientific staff Emphasizing the lack of national psychologists and national textbooks in republic at the beginning of the XX century, the authors spoke about the purposeful measures taken to eliminate the difficulties in this field. They especially emphasized that well-known scientists such as-A.O.Makolevski, A.Afandizada, A.K.Zakizade, F.A.Ibrahimbeyov, H.B.Shakhtakhtinski, S.H.Hajiyev and V.I.Mustafayev worked hard. In 1940-1950 years significant progress was made in postgraduate training of ASPU, the number of national psychological staff increased significantly. The Department of Logic and Psychology which operated under the faculty of Philology of the Azerbaijan State Pedagogical University in 1947-1955, played an exceptional role in this field.
**Keywords:** psychology, scientific staff, training, national psychological staff, departments of psychology, psychological researches.

**To cite this article:** Aliyev R., Chalabiyev N. (2021) Contributions of ASPU to the development of psychology and training of scientific staff. *Journal of Preschool and Primary Education*, V.236, İssue III, pp. 19-34
**Article history:** Received – 05.09.2021; Accepted – 08.09.2021.

# PSİXOLOGİYA ELMİNİN İNKİŞAFINA VƏ ELMİ KADRLARIN HAZIRLIĞINA ADPU-NUN TÖHFƏLƏRİ

**Ramiz Əliyev**
ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri, psixologiya üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi
E-mail:ramizeliyev1954@mail.ru
https://orcid.org/0000-0002-9990-6974
**Nuralı Çələbiyev**
ADPU-nun Şəki filialının elmi işlər üzrə direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, ADPU-nun Ümumi psixologiya kafedrasının elmlər doktoru proqramı üzrə dissertantı.
E-mail: n_chelebiyev@mail.ru
https://orcid.org/0000-0002-0684-8876

**Annotasiya.** Məqalə Azərbaycanda psixologiya elminin təşəkkülü, elmi kadrların hazırlanmasında ölkənin əsası 1921-ci ildə qoyulmuş ikinci ali təhsil ocağı olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin xidmətlərinə həsr olunmuşdur. Müəlliflər XX əsrin əvvəllərində respublikada psixologiya sahəsində milli kadrların və milli dərsliklərin olmadığını vurğulayaraq, çətinliklərin aradan qaldırılması üçün aparılan məqsədyönlü tədbirlərdən bəhs etmiş, bu sahədə görkəmli alimlər – A.O.Makovelski, A.Əfəndizadə, Ə.K.Zəküzadə, F.Ə.İbrahimbəyov, H.B.Şahtaxtinski, S.H.Hacıyev, V.İ.Mustafayev kimi alimlərin gərgin əmək sərf etdiklərini xüsusi vurğulamışlar. 1940–1950-ci illərdə ADPU-nun aspirantura pilləsinin kadr hazırlığında əhəmiyyətli irəliləyişlər baş vermiş, milli psixologiya sahəsində kadrların sayı əhəmiyyətli dərəcədə artmışdır. Bu sahədə 1947–1955-ci illərdə ADPU-nun filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən məntiq və psixologiya şöbəsi müstəsna rol oynamışdır.
**Açar sözlər:** psixologiya, elmi kadr hazırlığı, milli psixoloji kadrlar, psixologiya kafedraları, psixoloji tədqiqatlar.

**Məqaləyə istinad:** Əliyev R., Çələbiyev N. (2021) psixologiya elminin inkişafına və elmi kadrların hazırlığına ADPU-nun töhfələri. "*Məktəbəqədər və ibtidai təhsil*", № 3 (236), səh. 19-34
**Məqalə tarixçəsi:** göndərilib – 05.09.2021; qəbul edilib – 08.09.2021.

## Giriş / Introduction

Psixologiyanın bir elm kimi təşəkkülü, formalaşması və inkişafı çox gərgin və ziddiyyətli mərhələlərdən keçmişdir. Dünya psixologiya elmində bu bilik sahəsinin formalaşması XIX əsrin 70-ci illərinin sonu ilə – 1879-cu ildə Almaniyada Vilhelm Vund (1832–1920) tərəfindən ilk eksperimental psixologiya laboratoriyasının yaradıldığı tarixlə əlaqələndirilir. Bu bilik sahəsinin bir elm kimi formalaşmasına qədər psixoloji biliklər elməqədərki, "güzəran psixologiyası" adlanan təsəvvürlərdə, folklor nümunələrində, habelə görkəmli filosofların, pedaqoqların, mütəfəkkirlərin, maarifçilərin və yazıçıların baxışlarında öz əksini tapmışdır. Bu cəhətdən məşhur alman psixoloqu German Ebbinhauzun (1850–1909) təbirincə desək, doğrudan da, "psixologiya uzun keçmişi, lakin qısa tarixi olan bir elmdir".

"Azərbaycanda psixologiyanın müstəqil elm kimi inkişaf tarixi XX əsrin 20-ci illərindən başlanır" [Bayramov A.S., 1987, s.11]. Həmin dövrdə milli psixoloji kadrlar olmadığından, yeni açılmış ali və orta ixtisas təhsili müəssisələrində psixologiya fənnini Rusiyadan və Türkiyədən dəvət olunmuş alimlər, həmçinin azərbaycanlı filosof, pedaqoq və nevropatoloqlar tədris edirdilər. Onların sırasında A.O.Makovelski, A.Əfəndizadə, Ə.K.Zəküzadə, F.Ə.İbrahimbəyov, H.B.Şahtaxtinski, S.H.Hacıyev, V.İ.Mustafayev və başqalarının adlarını iftixarla çəkmək olar. Həmin alimlərin yaxından köməyi və iştirakı ilə Azərbaycanda psixologiya bir elm kimi formalaşmış və ilk milli kadrların hazırlanmasına başlanmışdır.

## Əsas hissə / Main part

13 may, 1921-ci ildə keçirilmiş I Ümumazərbaycan Sovetlər Qurultayının hesabatında göstərilirdi ki, ölkənin müsəlman əhalisi içərisində cəmi 62 nəfər ali təhsilli mütəxəssis var idi. Onların içərisində isə, bir nəfər də olsun, psixologiya üzrə ali təhsilli mütəxəssis yox idi [Sadıxov Ş.A., Azimov Q.S., Salaxov M.N. 1975. s.12]. Bu dövrdə (1920–1925-ci illər) respublikada yenicə fəaliyyətə başlamış Bakı Dövlət Universitetində və Azərbaycan Pedaqoji İnstitutunda yetərincə tədris resursları olmadığından, ilkin olaraq tələbələr Mühiddinin "Psixologiya" (1923), A.Əfəndiyevin "Fənni-tərbiyə" (1924) və Ə.K.Zəküzadənin "Ruhiyyət və ictimaiyyət nöqteyi-nəzərindən məhəbbət" (1922) adlı 3 kitabdan dərslik kimi istifadə edirdilər [Baxşəliyev Ə.T., 1991, s.34]. Lakin həmin kitablar dərslik kimi mükəmməl deyildi və məzmununda çoxlu təhriflərə yol verildiyindən, istifadə üçün o qədər də yararlı hesab edilmirdi. Ona görə də milli dərsliklərin yaradılması zərurətə çevrilmişdi.

Psixologiya elminin inkişafında 1919-cu ildə fəaliyyətə başlamış, Azərbaycanın ilk ali təhsil ocağının – Bakı Dövlət Universitetinin müstəsna rolu olmuşdur. Bu ali təhsil müəssisəsinin yarandığı ilk illərdə psixologiya üzrə azərbaycanlı müəllim kadrları, dərsliklər və tədris vəsaitləri olmadığından, BDU-ya dəvət olunmuş rus alimi A.O.Makovelski bir sıra əsərlər yazıb nəşr etdirdi. Onların sırasında "Pedoloji" (1929), "Körpə uşaqların tərbiyəsi" (1940), "Təlim-tərbiyənin psixoloji əsasları" (1940) və s. əsərləri qeyd etmək olar.

Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun 1921-ci il, 26 avqust tarixli, 66 saylı dekreti ilə Azərbaycanda ikinci ali məktəb – Azərbaycan Pedaqoji Kişi İnstitutu (indiki ADPU) yaradıldı. Burada psixologiya və məntiq fənlərini tədris edən ilk müəllim Tiflis Aleksandrovski Müəllimlər İnstitutunun məzunu Abdulla Azaqbəyli olmuşdur. Daha sonra Ə.K.Zəküzadə (1888–1968) 1921-ci ildə Türkiyənin İstanbul Universitetinin psixologiya və fəlsəfə fakültəsini bitirmiş, həmin il Bakıya gələrək 1922-ci ildə APİ-də işə başlamış, psixologiya fənnini tədris etmiş və elmi kadr hazırlığında müstəsna xidmətlər göstərmişdir. O, 1960-cı ilə qədər burada çalışmış, müxtəlif vaxtlarda psixologiya kafedrasına rəhbərlik etmişdir. Ə.K.Zəküzadə 1925-ci ildə "Psixologiya oçerkləri", "Uşağın diqqəti haqqında" (1935), "Uşaq hafizəsinin möhkəmliyi üçün əyaniliyin əhəmiyyəti" (1935), "Dərsdə uşaqların diqqətini təşkil etmək haqqında" (1940), "Uşaqlarda məntiqi təfəkkürün inkişafı" (1940), "Hafizənin tərbiyə edilməsi" (1943), "Şagirdlərdə diqqətsizliyin səbəbləri haqqında" (1945), "Məntiqi təfəkkürün tətbiqi və tərbiyəsi haqqında" (1945) adlı bir çox dərslik və dərs vəsaitləri, məqalələr yazmış, bir sıra dərsliklərin müəlliflərindən biri olmuşdur. "Ə.K.Zəküzadənin 1947-ci ildə müdafiə etdiyi "IX–XI əsrlərdə Şərqdə fəlsəfə və psixoloji nəzəriyyələrin tarixindən" mövzusunda doktorluq dissertasiyası bu sahədə cəsarətli addım idi" [Baxşəliyev Ə.T.,1991, s.43]. Həmin əsərlər müəllimlərin və tələbələrin geniş faydalandıqları Azərbaycan dilində yazılmış ilk mənbələr idi. Onun rəhbərliyi altında uzun illər ADPU-da psixologiyadan dərs demiş Ş.S.Ağayev, A.K.Abdullayev, Ə.Ə.Əlizadə, A.U.Məmmədov, İ.A.Fərəcov namizədlik dissertasiyalarını müdafiə etmişlər.

Azərbaycanda psixologiya elminin inkişafında müstəsna xidmətləri olan alimlərdən biri də F.A.İbrahimbəyov (1901–1988) olmuşdur. O, BDU-da 1926-cı ildə ilk eksperimental-psixologiya laboratoriyası təşkil etmiş, 1927–1949-cu illərdə ADPU-da psixologiya fənnini tədris etmişdir.

1921-ci ildə ADPU-da ilk yaradılan kafedralardan biri pedaqogika kafedrası olmuşdur və psixoloqlar 1941-ci ilədək bu kafedrada çalışmışlar. 1920–1928-ci illərdə Azərneft İstehsalat Birliyinin nəzdində psixotexnika, BXMŞ-ın nəzdində psixologiya laboratoriyası, 1926-cı ildə BDU-da, 1931-ci ildə Təhsil İnstitutunda, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, daha sonra isə Bakı Xalq Maarif Şöbə-

si nəzdində psixologiya kabineti və laboratoriyası yaradıldı, psixotexnika şöbəsi təşkil olundu. Bu laboratoriya və kabinetlər tələbələrlə psixologiya fənni üzrə praktik məşğələləri yüksək səviyyədə təşkil etməyə, onların ilk eksperimental tədqiqatlar aparmağı öyrənmələrinə xidmət edirdi. Burada ilk dəfə olaraq "Kiçik yaşlı məktəblilərdə hafizənin inkişafı" (S.H.Hacıyev) və "Yaradıcı təxəyyülün tərbiyəsi" (A.O.Makovelski) mövzuları üzrə tədqiqatlar aparılmışdır. "1931-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda Psixologiya kafedrası, Xalq Maarif Komissarlığının Elmi Tədqiqat İnstitutunda isə psixologiya şöbəsi yaradılır" [Bayramov Ə.S., 1987, s.11]. Lakin çox keçmədən, 1936-cı ildə ÜİK (b)P-nin "Xalq Maarif Komissarlığı sistemində pedoloji təhriflər haqqında" qərarı ilə pedoloji-psixoloji şöbələr və kabinetlər ləğv edildi, psixologiya şöbəsi yaradıldı. 1958-ci ildə indiki Təhsil İnstitutunun nəzdində müstəqil psixoloji laboratoriya yaradıldı və S.Hacıyev laboratoriya müdiri vəzifəsinə təyin olundu.

1921–1936-cı illərdə ADPU-da pedaqoji-pedoloji fakültə fəaliyyət göstərmiş və 1941-ci ildə müstəqil psixologiya kafedrasının əsası qoyulmuşdur. "Həmin ildə Pedaqogika kafedrası tədrisin keyfiyyətini və ixtisaslı mütəxəssis hazırlığını yaxşılaşdırmaq məqsədi ilə iki müstəqil kafedraya–pedaqogika və psixologiya kafedralarına bölündü" [Sadıxov Ş.A., Azimov Q.S., Salaxov M.N., 1975. s.70]. Həmin il Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar ADPU BDU ilə birləşdiyinə görə, onun əməkdaşları BDU-da fəaliyyət göstərmişlər. 1942/1943-cü tədris ilində, ADPU yenidən müstəqil ali məktəb kimi fəaliyyətini bərpa etdikdən sonra, 1943-cü ilin 27 oktyabr tarixindən psixologiya kafedrası yenidən fəaliyyətə başladı və Ə.K.Zəküzadə kafedraya rəhbər təyin edildi. "1931–1945-ci illərdə respublika psixoloqlarının maraq dairəsində sovet vətəndaşının – yeni ictimai-tarixi formasiya (sosializm – N.Ç) şəraitində şəxsiyyətin təlim-tərbiyəsi ilə bağlı uşaq və pedaqoji psixologiyanın problemləri aktuallıq kəsb etməyə başlamışdı" [Bayramov A.S., 1987, s.11]. Bu dövrdə ADPU-nun aspirantı M.M. Mustafayeva "Böyük bağça yaşlı azərbaycanlı uşaqlarda söz ehtiyatının inkişafı" (1949) mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək, psixologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1946-cı ildə ÜİK (b)P MK-nın qərarı ilə 1947–1948-ci tədris ilindən başlayaraq, orta məktəblərin buraxılış siniflərində məntiq və psixologiya fənlərinin tədris olunması barədə qərar qəbul edildi. Orta məktəblərdə psixologiya fənnini tədris edəcək ixtisaslı kadrların hazırlanması məqsədi ilə həmin tədris ilində BDU və ADPU-nun dil-ədəbiyyat fakültələrinin nəzdində məntiq–psixologiya şöbəsi açılmış və bu şöbə 1955-ci ilə qədər psixologiya ixtisası üzrə kadr hazırlığını həyata keçirmişdir. M.Ə.Həmzəyev, A.U.Məmmədov, Ə.K.Abdullayev və b. ADPU-da həmin şöbənin ilk məzunları olmuşlar. 1948-ci ildə kafedranın nəzdində məntiq-psixologiya kabineti yaradılmışdı. Həmin dövrdə Ə.K.Zəküzadə,

F.Ə.İbrahimbəyov, M.C.Məhərrəmov, M.M.Mustafayeva, S.H.Hacıyev psixologiya kafedrasında çalışırdılar.

1959-cu ildə psixologiya kafedrası yenidən pedaqogika kafedrası ilə birləşdirilmiş və bu vəziyyət 1963-cü ilə qədər davam etmişdir. 1963/1964-cü tədris ilindən psixologiya kafedrasının müstəqil fəaliyyəti yenidən bərpa edilmişdir. Kafedraya 1963–1975-ci illərdə professor Ş.S.Ağayev rəhbərlik etmişdir. M.Ş.Əbdülov, İ.H.Məmmədov, Ə.T.Baxşəliyev, Z.Ə.Orucov və b. həmin kafedrada, Ş.S.Ağayevin rəhbərliyi altında namizədlik dissertasiyalarını tamamlamış və müdafiə etmişlər. 1949-cu ildə ADPU-da psixologiya ixtisası üzrə təhsil alan gənc aspirantlar Ş.S.Ağayev və İ.Ə.Seyidov eksperimental psixologiya üzrə ixtisas hazırlığı keçmək üçün Gürcüstan EA-nın Psixologiya İnstitutuna ezam olunmuş, məşhur gürcü psixoloqları D.N.Uznadzenin və B.İ.Xaçapuridzenin rəhbərliyi altında xüsusi kurs keçmişdilər.

1947/1948-ci tədris ilindən başlayaraq, orta məktəblərin buraxılış siniflərində psixologiya və məntiq fənlərinin tədrisi ilə bağlı qərara uyğun olaraq, rus psixoloqu B.M.Teplovun orta məktəblər üçün yazdığı "Psixologiya" dərsliyi Azərbaycan dilinə tərcümə olundu və nəşr edilərək məktəblilərin, müəllimlərin istifadəsinə verildi. Psixologiyaya dair Azərbaycan dilində nəşr edilmiş elmi və elmi-metodiki ədəbiyyatlara artan tələbatı nəzərə alan ADPU-nun pedaqoq və psixoloq alimləri "Pedaqoji və psixoloji terminlər lüğəti" (Ş.S.Ağayev, Ə.K.Zəküzadə, M.Ə.Muradxanov, Ə.Y.Seyidov, 1958), "İzahlı psixoloji lüğət" (M.C.Məhərrəmov, 1960) adlı bir sıra zəruri tədris vəsaitlərini hazırlayıb çap etdirdilər.

1928-ci ildə Azərbaycanda Tətbiqi Psixofiziologiya Cəmiyyəti yaradıldı. 1957-ci ildə isə SSRİ Psixoloqlar Cəmiyyətinin Azərbaycan şöbəsi təsis olundu. Həmin qurumlar Azərbaycan psixoloqlarının digər ölkə psixoloqları ilə elmi əməkdaşlıq əlaqələrinin yaranmasına olduqca müsbət təsir göstərdi. Azərbaycanın psixoloq alimləri 1960–1980-ci illərdə bir çox nüfuzlu beynəlxalq elmi tədbirlərdə nəinki fəal iştirak edir, həmçinin respublikamızda keçirilən bir sıra elmi konfranslara ev sahibliyi edirdilər. Belə ki, Zaqafqaziya psixoloqlarının 1959–1983-cü illərdə keçirilmiş 9 konfransından 3-ü – III (1962), VI (1974) və IX (1983) konfranslar Bakıda keçirilmişdir.

1931-ci ildə Moskvada keçirilən Beynəlxalq Psixotexnika Konfransında, 1940-cı ildə Kiyevdə keçirilən pedaqogika və psixologiya üzrə elmi-nəzəri konfransda, 1945-ci ildə Mərkəzi Psixiatriya İnstitutunun yubiley sessiyasında, 1955-ci ildə Moskvada psixologiya üzrə üçüncü Ümumittifaq yığıncağında Ə.K.Zəküzadə və F.Ə.İbrahimbəyov Azərbaycan psixoloqlarını təmsil etmişlər.

1958-ci ildə indiki AR Təhsil İnstitutunda Psixologiya və fiziologiya şöbəsinin yaradılması respublikamızda çalışan bir çox psixoloq alimlərin, gənc

tədqiqatçıların elmi araşdırmalarının səviyyəsinin keyfiyyətcə yüksəlməsinə, keçmiş SSRİ respublikalarının psixoloq alimləri ilə yaradıcılıq əlaqələrinin genişlənməsinə yeni imkanlar açmışdır.

1959-cu ildən başlayaraq keçmiş SSRİ-də psixoloqların qurultaylarının ardıcıl şəkildə keçirilməsinə başlandı. İlk qurultayda (1959-cu il, 29 iyun – 4 iyul) Azərbaycan psixoloqları F.Ə.İbrahimbəyov, S.H.Hacıyev, Z.M.Mehdizadə, R.M.Rəsulov, Ş.S.Ağayev; 1963-cü ildə Leninqradda (Sankt-Peterburq) keçirilən II qurultayda Ə.Ə.Əlizadə, Ə.S.Bayramov, M.Ə.Həmzəyev, Ə.K.Zəküzadə, F.Ə.İbrahimbəyov, Ə.Ə.Qədirov çıxış etdilər. 1968-ci ildə Kiyevdə keçirilən III qurultayda Azərbaycan psixoloqlarından 22 nəfər, o cümlədən, ADPU-nun psixoloq alimlərindən Ə.K.Zəküzadə, Ə.Ə.Əlizadə, Z.M.Mehdizadə, A.K.Abdullayev fəal iştirak etdilər.

1971-ci ildə SSRİ psixoloqlarının Tbilisidə keçirilən IV qurultayında 15 nəfər Azərbaycan psixoloqu iştirak etmişdir. Onların sırasında ADPU-nun əməkdaşları – prof. Ə.Ə.Əlizadə, prof. Ş.S.Ağayev və dos. E.M.Quliyev də var idi. 1977-ci ildə SSRİ psixoloqlarının Moskvada keçirilmiş V qurultayının materialları toplusunda Ə.S.Bayramovun, R.A.Cavadovun, O.F.Kərimovun, İ.Ə.Seyidovun, R.F.İbrahimbəyovanın, İ.A.Fərəcovun məruzə və tezisləri çap olunmuşdur.

1983-cü ildə Moskvada keçirilən V qurultayda dos. İ.A.Fərəcov, 1983-cü ildə keçirilən VI qurultayda Ə.Ə.Əlizadə, Ə.T.Baxşəliyev, E.M.Quliyev, K.C.Əbilov, A.U.Məmmədov, İ.A.Fərəcov Azərbaycanı təmsil etmişlər.

1933-cü ildə ADPU-da aspirantura şöbəsinin, 1935-ci ilin iyul ayında isə ADPU-nun "Elmi Xəbərləri" adlı jurnalının nəşrə başlaması institutun həyatında ən mühüm hadisələrdən biri oldu. Həmin ilin mart ayında aspiranturaya bir sıra ixtisaslarla yanaşı, psixologiya ixtisası üzrə də ilk qəbul həyata keçirildi. 1937/1938-ci tədris ilində ADPU-nun Pedaqogika və psixologiya kafedrasında, bir nəfər də olsun, professor yox idi, 13 müəllimdən cəmi 2 nəfər (dos. V.L.Arzarova pedaqogika, dos. Ə.K.Zəküzadə psixologiya üzrə ) dosent idi.

Uzun illər ADPU-nun psixologiya kafedrasına rəhbərlik etmiş Ə.K.Zəküzadə "Füzulinin psixoloji görüşləri" (1959), "40 ildə Azərbaycanda psixologiya elminin inkişafı" (1960) kimi tədqiqat işlərini nəşr etdirməklə yanaşı, Yaxın və Orta Şərq filosoflarından Əl-Fərabinin, İbn-Sinanın, Bəhmənyarın və bir çoxlarının psixoloji görüşlərini də tədqiq etmişdir. 1960-cı illər məhsuldar illər idi. 1960–1961-ci illərdə Azərbaycanda psixologiya elminin aparıcı mərkəzlərindən biri olan ADPU-nun psixologiya kafedrasının əməkdaşları prof. Ə.K.Zəküzadə, dos.Ş.S.Ağayev, Ə.K.Abdullayev və M.N.Mustafayevanın müəllifliyi ilə ilk dəfə olaraq tələbələr üçün 2 hissədən ibarət "Psixologiya" adlı dərs vəsaiti nəşr olundu.

1943–1944-cü tədris ilində ADPU-da, artıq 25 kafedra fəaliyyət göstərirdi ki, onlardan biri də psixologiya kafedrası idi. 1947/1948-ci tədris ilində kafedrala-

rın sayı 30-a çatdırılmışdı. 1950-ci illərdə ADPU-da elmi kadrların hazırlığında əhəmiyyətli dərəcədə irəliləyişlər nəzərə çarpırdı. Belə ki, 1949/1950-ci tədris ilində institutda işləyən 207 müəllimdən 9 nəfəri elmlər doktoru, 65 nəfəri elmlər namizədi idi. "1950–1970-ci illərdə gənc və istedadlı psixoloqlar Ə.S.Bayramov, T.Ə.Mustafayev, İ.A.Fərəcov, A.U.Məmmədov, Q.E.Əzimov, M.Ş.Əbdülov və başqaları namizədlik dissertasiyalarını müdafiə etdilər. Bu dissertasiyalar psixologiyanın bir çox sahələrini əhatə etsə də, əsas diqqət yaş və pedaqoji psixologiyaya yönəldilmişdi" [Seyidov S.İ., Həmzəyev M.Ə., 2007].

1975–1987-ci illərdə ADPU-nun yaş və pedaqoji psixologiya kafedrasına rəhbərlik etmiş professor Z.M.Mehdizadə 1953-cü ildə Moskvada "Kəsrlərlə əməliyyat və ədədlərin bölünmə qabiliyyəti bölməsini mənimsəməklə V sinif şagirdlərinin qarşılaşdıqları çətinliklərin psixoloji analizi" mövzusunda namizədlik dissertasiyasını, ADPU-nun aspiranturasında təhsilini başa vuran gənc aspirant M.Ə.Həmzəyev isə professor Ə.K.Zəküzadənin elmi rəhbərliyi altında başa çatdırdığı "İbtidai məktəbin ikinci sinif şagirdlərində samitlər üzrə düzgün yazı vərdişlərinin təşəkkül etməsi və inkişafının psixoloji xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyasını 1956-cı ildə ADPU-nun nəzdindəki Elmi Şurada müdafiə edərək, psixologiya elmləri namizədi elmi dərəcəsini almışlar. Sonrakı dövrlərdə Z.M.Mehdizadə daha çox məktəbəqədər yaşlı uşaqların psixoloji xüsusiyyətlərinin öyrənilməsinə, tədqiqinə diqqət yetirmişdir. Onun 1982 və 1984-cü illərdə nəşr etdirdiyi "Uşaq psixologiyası" (I və II hissə) dərsliyi bu sahədə yazılmış ən dəyərli əsərlərdəndir" [Seyidov S.İ., Həmzəyev M.Ə., 2007].

1956/1957-ci tədris ilində bəzi kafedralar birləşdirildiyinə görə, onların sayı 30-dan 23-ə düşdü. Pedaqogika, psixologiya kafedraları birləşdirildi və kafedra müdiri vəzifəsinə prof. Ə.Y.Seyidov seçildi. Bu dövrdə artıq Pedaqogika və psixologiya kafedrasında 3 elmlər doktoru (prof. Ə.Y.Seyidov, M.M.Mehdizadə, Ə.K.Zəküzadə), 7 elmlər namizədi, dosent (M.A.Muradxanov, T.Y.Əfəndiyev, D.M.Mustafayeva, Ş.S.Agayev, İ.V.Vəlixanlı, A.K.Abdullayev, B.A.Axundov) və 3 nəfər elmlər namizədi çalışırdı. Həmin dövrdə S.Y.Yusifov və M.Ə.Həmzəyev ADPU-nun aspiranturasında psixologiya ixtisası üzrə təhsil alırdılar.

1958/1959-cu tədris ilində ADPU-da ibtidai təhsil fakültəsi və onun nəzdində İbtidai təhsilin pedaqogikası və metodikası kafedrası yaradıldı. İlk dəfə bu fakültəyə respublikanın 66 rayonundan 225 nəfər tələbə qəbul edildi.

ADPU-nun yetirməsi, 1963–1975-ci illərdə ADPU-nun psixologiya kafedrasına rəhbərlik etmiş Ş.S.Ağayev 1954-cü ildə "Fikri məqsədin xarakterindən asılı olaraq görmə qavrayışının dinamikası" mövzusunda namizədlik, 1967-ci ildə isə "Əmək, tərbiyə və inkişaf" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir. Onun bir-birinin ardınca "Əmək prosesində istedadın inkişafı" (1961), "Uşaqlarda mədəni adət və vərdişlərin tərbiyə edilməsi" (1961), "Ruh

varmı?" (1962), "Uşaq psixologiyası məsələləri" (1965), "Uşaq psixologiyası məsələlərinə dair" (1966), "Əmək, tərbiyə və inkişaf" (1967) adlı faydalı dərs vəsaitləri və monoqrafiyaları çap olunmuşdur. 1964-cü ildə M.S.Məhərrəmovun redaktorluğu ilə çap olunmuş "Psixologiya" dərsliyinin əsas müəlliflərindən biri prof. Ş.S.Ağayev idi [Çələbiyev N., 2017].

Uzun illər BDU-nun psixologiya kafedrasının müdiri olmuş prof. Ə.S.Bayramov ADPU-nun yetirmələrindən idi. O, 1954-cü ildə BDU-nun filologiya fakültəsinin məntiq-psixologiya bölməsini "əla" qiymətlərlə bitirdiyinə görə, universitetin elmi şurasının qərarı ilə ADPU-nun aspiranturasına göndərilmiş, 1954–1957-ci illərdə burada təhsil almışdır. Ə.S.Bayramov 1959-cu ildə namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmiş, 1960–1971-ci illərdə ADPU-da çalışmışdır. Bu dövrdə onun "Kiçik məktəblilərin təfəkkürünün müstəqilliyi və tənqidiliyinin inkişafı" (1959), "Gənclərin özünütərbiyəsi haqqında", "İnsan fikirləşməyi necə öyrənmişdir?" (1963), "Qeyri-adi psixoloji hadisələr haqqında" (1967), "Uşaqlarda intellektin inkişaf xüsusiyyətləri" (1967) və s. əsərləri nəşr olunmuşdur. "O, professor Ə.S.Əlizadə ilə birlikdə Azərbaycanda sosial psixologiyanın əsasını qoymuşdur. Hələ sovet hakimiyyəti illərində, etnopsixologiyanın qadağan olunduğu vaxtlarda etnopsixologiya ilə bağlı fikir və ideyalarını irəli sürmüşdür" [Əliyev R.İ., 2006].

ADPU-nun yetirmələrindən biri olan prof. M.Ə.Həmzəyev 1968-ci ildə "Azərbaycan dilinin orfoqrafiyası və durğu işarələrinin mənimsənilməsi psixologiyası" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, 40 yaşında psixologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

ADPU-nun Psixologiya kafedrasında uzun müddət səmərəli fəaliyyət göstərən Q.E.Əzimov 1970-ci ildə "Kiçik yaşlı məktəblilərdə hörmət hissinin inkişafı və tərbiyəsi" mövzusunda dissertasiya işini müdafiə edərək, psixologiya elmləri namizədi elmi dərəcəsi almışdır. "Psixi inkişaf və tərbiyənin müasir problemləri" (2004), "Yaş və pedaqoji psixologiyanın müasir problemləri" (2006) əsərləri professor Q.E.Əzimovun dəyərli tədqiqat işləri kimi tanınmaqdadır.

BDU-nun yetirməsi, 1977–2014-cü illərdə ADPU-nun Ümumi psixologiya kafedrasına bacarıqla rəhbərlik etmiş Ə.Ə.Əlizadə 1962-cı ildə "Şagirdlərin təxəyyül fəaliyyətində analiz-sintez proseslərinin xüsusiyyətləri" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, psixologiya elmləri namizədi elmi dərəcəsi almışdır [Çələbiyev N., 2017]. O, 60-cı illərdə "Uşaqlarda diqqətin tərbiyəsi" (1962), "Uşaqlarda kollektivçilik hissinin tərbiyəsi" (1962), "Dostluq və yoldaşlıq tərbiyəsi" (1964), "Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi" (1965), "Ailədə uşaqların cinsi tərbiyəsi" (1968), "Şagirdlərdə yaradıcı fəaliyyətin psixologiyası" (1968) və s. kimi bir sıra dəyərli dərs vəsaitləri yazıb nəşr etdirmişdir. "1964-cü ildə nəşr olunmuş

“Psixologiya” dərsliyinin müəlliflərindən biri də Ə.Ə.Əlizadədir. Professor Ə.Əlizadə professor Ə.S.Bayramovla birlikdə çox səmərəli fəaliyyət göstərmiş, Azərbaycanda psixologiya elminin inkişafına önəmli xidmət göstərmişlər” [Seyidov S.İ., Həmzəyev M.Ə., 2007].

1975-ci ildə Ə.Ə.Əlizadə “Cinsi və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji xüsusiyyətləri” adlı doktorluq dissertasiyasını uğurla müdafiə edərək, 1977-ci ildə ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri və professoru vəzifələrinə seçilmişdir. Onun 1986-cı ildə çap olunmuş “Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi”, 1989-cu ildə çap olunmuş, orta məktəblərin IX sinifləri üçün “Ailə həyatının etika və psixologiyası” (A.N.Abbasovla birlikdə) adlı dərsliyi öz sambalına görə seçilir.

Milli müstəqilliyimizin bərpa olunmasından sonra professor Ə.Ə.Əlizadə sosial psixologiya, etnopsixologiya, şəxsiyyət psixologiyası, təxəyyül psixologiyası, təhsil psixologiyası, diferensial psixologiya və s. sahələrdə tədqiqatlarını daha da genişləndirmiş, “Sosial psixologiya” (prof. Ə.S.Bayramovla birlikdə), “Yeni pedaqoji təfəkkür”, “Müasir Azərbaycan məktəbinin psixoloji problemləri”, “İstedadlı uşaqlar: psixoloji məsələlər”, “İdrak prosesi və hisslər”, “Təxəyyül: psixoloji etüdlər”, “Fantaziya binomu”, “Qadın psixologiyası”, “Pedaqoji psixologiya (prof. H.Ə.Əlizadə ilə birlikdə) və s. bir çox dəyərli əsərlər yazmış, respublikada elmi kadr hazırlığına əvəzsiz töhfələr vermişdir.

1965-ci ildə respublikada pedaqogika və psixologiya elmləri üzrə namizədlik dissertasiyalarının müdafiəsini təşkil edən Müdafiə Şurası yaradıldı. Həmin şurada psixologiya kafedrasının əməkdaşlarından A.U.Məmmədov “II–IV sinif şagirdlərində məntiqi hafizənin bəzi xüsusiyyətləri” (1965), İ.A.Fərəcov “Təlim materiallarının qavranılması sahəsində IV–V sinif şagirdləri arasında fərdi fərqlər” (1968), Q.E.Əzimov “Kiçik məktəb yaşlı şagirdlərdə hörmət hissinin tərbiyəsi və inkişafı” (1970), F.M.Hüseynova “Kiçik məktəblinin maraqları” (1971), N.A.Cavadov “I–IV sinif şagirdlərində həya hissinin inkişafı” (1974), Ə.T.Baxşəliyev “Sovet Azərbaycanında psixologiyanın inkişaf tarixindən” (1973) mövzularında namizədlik dissertasiyalarını, Ə.Ə.Əlizadə isə “Cinsi dimorfizm və qarşılıqlı şəxsi münasibətlərin formalaşmasının psixoloji problemləri” (1975) mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişlər.

Kafedranın əməkdaşı E.M.Quliyev 1968-ci ildə Moskvada, professor P.Y.Levinanın elmi rəhbərliyi altında “Kəkələyən uşaqlarda ixtiyari diqqətin xüsusiyyətləri” adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdikdən sonra doğma instituta qayıtmış və hazırda elmi-pedaqoji fəaliyyətini davam etdirməkdədir.

1980–1990-cı illərdə respublikada psixologiya üzrə ixtisaslaşmış müdafiə şurası olmadığından, ADPU-nun psixologiya kafedrasının əməkdaşlarından

Z.A.Orucov "Pedaqoji ali məktəb tələbələrinin peşə hazırlığı dinamikasının psixoloji analizi" mövzusunda dissertasiya işini Moskvada (1985), həmin kafedranın aspirantı Z.M.Aslanova "Böyük məktəbəqədər yaşlı uşaqlarda əməksevərlik hissinin inkişafı" mövzusunda dissertasiya işini Tbilisidə (1985), S.F.Şabanov "Tələbələrin özünüqiymətləndirməsində cinsi fərqlərin psixoloji təhlili" mövzusunda dissertasiya işini Kiyevdə (1987) müvəffəqiyyətlə müdafiə etmişlər.

1990-cı illərin əvvəllərində – ölkəmizdə milli müstəqilliyin bərpasından sonra, bütün sahələrdə olduğu kimi, elm və təhsilin inkişafı üçün də əlverişli imkanlar yarandı. Ölkədə aparılan təhsil islahatları nəticəsində 1993-cü ildən ikipilləli ali təhsilə (bakalavr və magistr təhsil pillələri) keçid başlandı. 2010-cu ildən isə ali təhsil sistemində üçpilləli təhsilə keçidin əsası qoyuldu, doktorantura (ikipilləli) təhsili yolu ilə elmi kadr hazırlığı sahəsində bir çox yeniliklər meydana çıxdı. Uzun illər boyu tədqiqatlar aparan, lakin psixologiya üzrə ixtisaslaşdırılmış müdafiə şurası olmadığından, müxtəlif səbəblərdən keçmiş SSRİ-nin digər respublikalarında dissertasiya işlərini müdafiə edə bilməyən bir çox doktorant və dissertantlar 1990-cı illərin ortalarında BDU-nun nəzdində yaradılmış psixologiya üzrə ixtisaslaşdırılmış dissertasiya şurasında öz tədqiqat işlərini müdafiə edərək psixologiya üzrə elmi dərəcə aldılar. Onların sırasında hazırda ADPU-nun Ümumi psixologiya, Yaş və pedaqoji psixologiya kafedralarında çalışan prof. R.İ.Əliyevin, dos. Q.N.Qəhrəmanovanın, dos. N.T.Rzayevanın, dos. Ü.A.Əfəndiyevanın, dos. L.M.Qurbanovanın, dos. M.S.Əliyevin, dos. S.H.Əlizadənin, dos. S.N.Əliyevanın, dos. Z.Əliyevanın, b/m. G.Əlixanovanın və b. adlarını çəkmək olar [7]; [8].

Əsası 1981-ci ildə qoyulmuş və hazırda "məktəbəqədər tərbiyə" adlanan fakültənin ixtisaslı psixoloq kadrlarının hazırlanmasında müstəsna xidmətləri olmuşdur. 1981–1992-ci illərdə həmin fakültə *pedaqogika və psixologiya (məktəbəqədər),* 2015-ci ilin oktyabr ayınadək *pedaqogika və psixologiya* fakültəsi adlanırdı. Həmin tarixdən etibarən, bu fakültə *məktəbəqədər təhsil* adlanır. Fakültədə 3 ixtisas (məktəbəqədər təhsil, təhsildə sosial-psixoloji xidmət və korreksiyaedici təlim ixtisasları) üzrə kadr hazırlığı həyata keçirilir.

1996-cı ilədək fakültədə yalnız məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə kadr hazırlığı həyata keçirilmiş, 1996-cı ildə korreksiyaedici pedaqogika və xüsusi psixologiya (məktəbəqədər) adlı yeni ixtisas açılmış, həmin ildən defektologiya və psixologiya ixtisasları üzrə də kadr hazırlığına başlanılmışdır. 2009-cu ildən fakültədə məktəbəqədər təlim və tərbiyə, korreksiyaedici təlim və təhsildə sosial-psixoloji xidmət olmaqla, 3 ixtisas

üzrə kadr hazırlığı həyata keçirilir.

ADPU-nun təhsildə sosial-psixoloji xidmət ixtisasının bakalavr pilləsi məzunları ümumtəhsil məktəblərində məktəb psixoloqu, psixoloji xidmət mərkəzlərində psixoloq vəzifələrində, məktəbəqədər təlim və tərbiyə ixtisasının məzunları məktəbəqədər uşaq tərbiyə müəssisələrində, korreksiya-edici pedaqogika və xüsusi psixologiya ixtisasının məzunları isə müxtəlif tipli xüsusi təhsil müəssisələrində və internat məktəblərdə çalışırlar. Hər il həmin ixtisasları bitirən məzunların bir qismi Dövlət İmtahan Mərkəzinin magistraturalara keçirdiyi qəbul imtahanlarında iştirak edir və təhsillərini davam etdirirlər. Artıq 20 ildən çoxdur ki, ADPU-da ali təhsilin doktorantura pilləsi üzrə psixologiya ixtisasına qəbul həyata keçirilir. Bu pillədə təhsilini başa vuranlar dissertasiya müdafiə edərək, elmi dərəcə alır, müxtəlif ali təhsil müəssisələrində və elm mərkəzlərində çalışırlar.

1981–2011-ci illərdə fakültəyə dos. E.Abbaszadə, dos. G.Qayıbova, prof. X.Fətəliyev, prof. M.Məmmədov, dos. M.Həsənov, dos. Ş.Əliyeva, dos. A.Hacıyev rəhbərlik etmişlər. 2011-ci ildən isə fakültəyə pedaqogika üzrə elmlər doktoru, prof. Ş.Q.Əliyeva rəhbərlik edir.

1975-ci ildə fakültənin bazasında Ümumi psixologiya, Yaş və pedaqoji psixologiya kafedraları olmaqla, iki müstəqil kafedra təşkil olunmuşdur. Ümumi psixologiya kafedrasının müdiri professor Ə.Ə.Əlizadə, Yaş və pedaqoji psixologiya kafedrasının müdiri isə professor Z.M.Mehdizadə olmuşdur. Professor Ə.Ə.Əlizadə 2014-cü, prof. Z.M.Mehdizadə isə 1987-ci ilədək həmin kafedralara rəhbərlik etmişlər. Yaş və pedaqoji psixologiya kafedrasına 1987–1992-ci illərdə prof. Q.E.Əzimov, 1992–2019-cu illərdə prof. Ə.T.Baxşəliyev rəhbərlik etmişlər. 2019-cu ildən Yaş və pedaqoji psixologiya kafedrasının müdiri vəzifəsinə psixologiya üzrə elmlər doktoru, dosent Q.N.Qəhrəmanova seçilmişdir [8].

Ümumi psixologiya kafedrasına 2014-cü ildən psixologiya elmləri doktoru, prof R.İ.Əliyev rəhbərlik edir. O, 1985-ci ildə Kiyevdə "Kiçik məktəbli şəxsiyyətinin formalaşmasında ictimai fəallığın rolu" mövzusunda namizədlik, 2004-cü ildə BDU-da "Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir. Onun Azərbaycan, rus və ingilis dillərində 200-ə yaxın elmi əsəri çap olunmuşdur. Professor R.İ.Əliyevin respublikamızda yüksək ixtisaslı psixoloqların və elmi kadrların hazırlanmasında əvəzsiz xidmətləri vardır. Onun bilavasitə elmi rəhbərliyi ilə 20-yə yaxın aspirant doktorant və dissertant psixologiya üzrə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələrini almaq üçün dissertasiya işlərini müdafiə etmişlər. Hazırda Ümumi psixologiya kafedrasında 19 əməkdaş çalışır. Onlardan 1 nəfəri elmlər doktoru, professor, 1 nəfəri fəlsəfə doktoru, professor, 6 nəfəri psixologiya üzrə fəlsəfə doktoru, dosent, 2 nəfəri psixologiya üzrə fəlsəfə dok-

toru, baş müəllim, 3 nəfəri baş müəllim, 6 nəfəri müəllimdir. Hazırda kafedra üzrə 7 nəfər fəlsəfə doktoru, 2 nəfər elmlər doktoru proqramı üzrə doktorant və dissertant təhsil alır [7].

1990-cı ilin sonlarından başlayaraq Ümumi psixologiya kafedrasının əməkdaşlarından E.A.Hüseynov "Şəxsiyyətin iddia səviyyəsinin formalaşmasında cinsi fərqlərin rolu" (1999), N.T.Rzayeva "Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası" (2004), L.M.Qurbanova "Tələbə gənclərin şəxsiyyətinin srtukturunda cinsi fərqlərin xüsusiyyətləri" (2006), Ü.A.Əfəndiyeva "Uşağın məktəbə hazırlığında yaşıdları ilə qarşılıqlı münasibətlərin rolu" (2008), M.S.Əliyev "Tələbələrdə özünənəzarətin formalaşmasının psixoloji xüsusiyyətləri" (2013), S.H.Əlizadə "Müəllimin məktəbə rəhbərlik üslubunun sosial-psixoloji məsələləri" (2014), Y.B.Əsgərova "Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə.Əlizadə yaradıcılığının rolu" (2016) mövzularında fəlsəfə doktoru proqramı üzrə dissertasiya işlərini uğurla müdafiə etmişlər.

ADPU-nun Ümumi psixologiya kafedrasında digər ali məktəblər üçün də elmi-psixoloji kadr hazırlığı həyata keçirilir. Son illərdə kafedranın doktorant və dissertantlarından U.M.Şiriyeva "Dini şüur səviyyəsində özünüdərketmənin xüsusiyyətləri" (2004), V.M.Kərimova "Qloballaşma və milli xüsusiyyətlərin ailədaxili münasibətlərə təsiri" (2018), K.X.Əhmədova "Gənc ailələrdə qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətləri" (2018), H.Ə.Xəlilov "Ailədaxili münasibətlər sistemində yaşlıların rolu və şəxsiyyətin formalaşmasına onun təsiri" (2018) mövzularında fəlsəfə doktoru proqramı üzrə dissertasiya işlərini başa çatdıraraq uğurla müdafiə etmişlər. Hazırda kafedrada 2 nəfər elmlər doktoru, 6 nəfər isə fəlsəfə doktoru proqramı üzrə elmi-tədqiqat işlərini davam etdirirlər. Onlardan 6 nəfəri dissertasiya işlərini tamamlamışlar.

Son 10 ildə kafedranın professor-müəllim heyəti tərəfindən 18 adda monoqrafiya, 5 adda dərslik, 22 adda dərs vəsaiti, 8 adda metodik vəsait, 80-dən artıq fənn proqramı, 220-dən çox məqalə (onlardan 15-i impakt faktorlu xarici jurnallarda) nəşr etdirilmişdir. Kafedra əməkdaşları son 2 ildə 75 respublika, 52 beynəlxalq konfransda iştirak etmişlər. Son illərdə kafedra əməkdaşlarından dos. L.M.Qurbanovanın "Eksperimental psixologiya" (2014), dos. N.T.Rzayevanın "Uşaq psixologiyası" (2015), dos. Ü.A.Əfəndiyevanın "Müəllim şəxsiyyətinin psixologiyası" (2014), "Əsrin gender konsepsiyası" (2017), "Ailə və gender psixologiyası" (həmmüəllif dos. N.Z.Çələbiyev, 2021) və s. bir sıra dərs vəsaitləri, metodik vəsaitlər hazırlanıb nəşr etdirilmişdir. 2018-ci ildə kafedranın doktorant və dissertantlarından 2 nəfər (N.Xəlilov, V.Kərimova) fəlsəfə doktoru proqramı üzrə dissertasiya işini müdafiə etmişdir [7].

Hazırda kafedrada elmi istiqamətlər və problem mövzuların perspektiv planı əsasında ümumi psixologiya, şəxsiyyət psixologiyası, diferensial psixologiya,

sosial psixologiya, yaş psixologiyası, etnopsixologiya, psixologiya tarixi, idman psixologiyası, təhsildə sosial-psixoloji xidmət, ailə və gender psixologiyası, qabiliyyətlər psixologiyası, koqnitiv psixologiya, ünsiyyət və şəxsiyyətlərarası münasibətlər psixologiyası, eksperimental psixologiya və s. üzrə elmi tədqiqatlar davam etdirilir. Kafedranın Türkiyə Respublikası, İran İslam Respublikası, Rusiya Federasiyası, Ukrayna, Gürcüstan, Qazaxıstan və s. ölkələrin ali təhsil müəssisələri, elmi mərkəzləri ilə əməkdaşlıq əlaqələri yaradılmışdır.

Respublikamızda yüksək ixtisaslı pedaqoji kadr hazırlığında əsası 1975-ci ildə qoyulmuş Yaş və pedaqoji psixologiya kafedrasının da xüsusi rolu vardır. Hazırda həmin kafedrada 17 nəfər əməkdaş çalışır. Onlardan 2 nəfəri elmlər doktoru (o cümlədən, 1 nəfər professor), 6 nəfər fəlsəfə doktoru, dosent, 4 nəfər baş müəllim, 6 nəfəri müəllimdir. Son illər kafedra əməkdaşlarından 1 nəfər elmlər doktoru, 5 nəfər isə fəlsəfə doktoru proqramı üzrə dissertasiya işini müdafiə edərək elmi dərəcə almışlar. Hazırda kafedranın 4 nəfər doktorant və dissertantı var. Onlardan 1 nəfəri elmlər doktoru, 3 nəfəri fəlsəfə doktoru proqramı üzrə tədqiqatlar aparırlar.

1970-ci illərdən etibarən əmək fəaliyyətini məzunu olduğu ADPU ilə bağlayan, psixologiya üzrə elmlər doktoru, professor Ərəstun Təriş oğlu Baxşəliyev 1973-cü ildə "Sovet Azərbaycanında psixologiyanın inkişaf tarixindən" mövzusunda namizədlik, 1995-ci ildə "XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 100-dən artıq elmi əsərin müəllifi olan prof. Ə.T.Baxşəliyev ADPU-da kadr hazırlığında fəal iştirak etməklə yanaşı, 1992–2019-cu illərdə Yaş və pedaqoji psixologiya kafedrasına rəhbərlik etmişdir.

2019-cu ildən ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasına psixologiya üzrə elmlər doktoru, dosent Qızxanım Nizaməddin qızı Qəhrəmanova rəhbərlik edir. ADPU-nun məzunu olan Q.N.Qəhrəmanova 1995-ci ildən əmək fəaliyyətini doğma universitetlə bağlamış, burada müəllim, baş müəllim, dekan müavini, dosent vəzifələrində işləmişdir. O, "Tələbə şəxsiyyətinin formalaşmasında birgə fəaliyyət və şəxsiyyətlərarası münasibətlərin rolu" mövzusunda fəlsəfə doktoru (2011), "Tələbə kollektivinin idarə olunmasında gender xüsusiyyətlərinin nəzərə alınması" (2018) mövzusunda elmlər doktoru proqramı üzrə dissertasiya işini uğurla müdafiə etmişdir [8].

Q.N.Qəhrəmanova "Gənclərin fəaliyyətinin sosial-psixoloji xüsusiyyətləri" (2013), "Tələbə kollektivinin idarə olunmasında gender problemi" (2017), "Peşə etikası" (2019) adlı, elmi-psixoloji dəyəri ilə fərqlənən monoqrafiyaların və bir çox məqalələrin, konfrans materiallarının müəllifidir.

## Nəticə / Conclusion

Azərbaycanda elmi psixologiyanın təşəkkülü və inkişafı XX əsrin 20–30-cu illərinə təsadüf edir. Bu dövr, həm də respublikamızda ilk ali təhsil müəssisələrinin yarandığı dövr kimi qeyd olunur. Həmin dövrdən başlayaraq, psixologiya elmi milli psixoloq kadrlarının hazırlanması, psixologiya üzrə dərslik və dərs vəsaitlərinin nəşr etdirilməsi, elmi tədqiqatlar yolu ilə özünün inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə psixologiyanın ayrı-ayrı sahələri və aktual problemləri ilə bağlı tədqiqatlar aparan A.O.Makovelski, Ə.K.Zəküzadə, F.Ə.İbrahimbəyov, S.H.Hasıyev, M.C.Məhərrəmov, Ş.S.Ağayev kimi psixoloq alimlər gərgin əmək sərf etmişlər.

1960–1970-ci illərdə respublikamızda milli psixoloq kadrlarının yeni nəsli yetişmiş, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Z.M.Mehdizadə, M.Ə.Həmzəyev, Ə.Ə.Qədirov, Ə.T.Baxşəliyev, Q.E.Əzimov, 1980–1990-cı illərdə B.H.Əliyev, S.İ.Seyidov, R.İ.Əliyev, K.R.Əliyeva, R.H.Qədirova, R.F.İbrahimbəyova, E.İ.Şəfiyeva və başqaları elmi psixologiyanın inkişafına, psixologiya sahəsində milli kadrların hazırlanmasına mühüm töhfələr vermişlər. Onlardan bir qisminin – professorlar Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Z.M.Mehdizadə, Ə.T.Baxşəliyev, Q.E.Əzimov, R.İ.Əliyev və başqalarının elmi-pedaqoji fəaliyyəti bütövlükdə, ya da əhəmiyyətli şəkildə ADPU ilə bağlı olmuşdur. 1970-ci illərin ortalarında ADPU-da Yaş və pedaqoji psixologiya adı ilə yaradılan ikinci Psixologiya kafedrasının da bu sahədə uğurları diqqəti cəlb edir.

Respublikamızda milli müstəqilliyimizin bərpasından bir qədər sonra, 90-cı illərin ortalarında Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru və elmlər doktoru səviyyəsində dissertasiyaların müdafiəsini həyata keçirən ixtisaslaşdırılmış dissertasiya şurasının yaradılması elmi-psixoloji kadrların hazırlanmasına və yetişməsinə layiqli töhfə olmuşdur. Dissertasiya Şurasının tərkibində müxtəlif vaxtlarda ADPU-nun psixoloq-alimlərindən prof. Ə.Ə.Əlizadə, prof. Ə.T.Baxşəliyev, prof. R.İ.Əliyev, prof. Q.E.Əzimov və başqaları fəal iştirak etmiş, ADPU-nun bir çox psixoloq-alimləri dissertasiya işlərinə opponentlik etmiş, AAK-ın Ekspert Şurasında təmsil olunmuşlar.

**Problemin aktuallığı.** 2021-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin – respublikanın təhsil tarixində ikinci, pedaqoji kadrlar hazırlayan ilk ali təhsil müəssisəsinin 100 illik yubileyi qeyd olunur. Yubileylə əlaqədar olaraq, ADPU-nun respublikada psixologiya elminin inkişafına və elmi kadr hazırlığına verdiyi töhfələrin tədqiqi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Azərbaycanda psixoloji fikrin və elmi psixologiyanın inkişafı tarixinə dair bir sıra tədqiqatlar aparılmış, lakin ADPU-nun bu sahə-

dəki bir əsrlik fəaliyyəti, məxsusi olaraq, tədqiq edilməmişdir. Təqdim olunan bu məqalədə məhz ADPU-nun respublikamızda psixologiya elminin inkişafına və elmi kadr hazırlığına verdiyi töhfələr araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Ali pedaqoji kadr hazırlığını həyata keçirən təhsil müəssisələrində tədris olunan psixologiya və psixologiya tarixi fənlərinin tədris proqramında Azərbaycanda psixoloji fikrin inkişafı və elmi psixologiyanın meydana gəlməsi ilə bağlı mövzular tədris olunur. İndiyə qədər çap olunmuş dərslik və dərs vəsaitlərində son 10 ildə bu sahədə aparılmış tədqiqatlar, elmi nailiyyətlər öz əksini tapmamışdır. Bu cəhətdən məqalənin ali məktəblərin bakalavr pilləsində təhsil alan tələbələr, həmçinin magistr və doktorantlar üçün praktik əhəmiyyəti nəzərə alınmışdır. Təqdim olunan bu məqalədən psixologiya sahəsində elmi tədqiqatla məşğul olanlar ADPU-nun Ümumi psixologiya, Yaş və pedaqoji psixologiya kafedralarının elmi-tədqiqat və kadr hazırlığı sahələrində əldə etdiyi uğurlu nəticələrlə tanış olmaq imkanı əldə edəcək, onlardan faydalana biləcəklər.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Baxşəliyev Ə. T. (1992). Azərbaycanda psixoloji fikrin inkişafı (1920–1985-ci illər). Bakı, "Maarif", 292 s.
2. Çələbiyev N.Z. (2017). Dünyanın məşhur və tanınmış psixoloqları (tarixi-bioqrafik oçerklər). Bakı, ADPU, 320 s.
3. Əliyev R.İ. (2006). Psixologiya tarixi. Bakı, "Nurlan", 384 s.
4. Psixologiya (2007). (Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik). (S.İ.Seyidov və M.Ə.Həmzəyevin redaktəsi ilə). Bakı, "Nurlan", 701 s.
5. Bayramov A. S. (1987). Razvitie psixoloqiçeskoy nauki v respublikax Zakavkaziya. Azerbaydjanskaya SSR// "Voprosı psixoloqii" . N5, s.10-14.
6. Sadıxov Ş.A., Azimov Q.S., Salaxov M.N. (1975). Kuznitsa pedaqoqiçeskix kadrov. APİ – 50 let. Bakı, Azerbaydjanskoe Qosudarstvennoe izdatelstvo. 215 s.
7. https://adpu.edu.az/az/umumipsixologiyakafedrası.
8. https://adpu.edu.az.tedrisfakulteleri.

# COLLABORATION OF EDUCATORS-TEACHERS WITH PARENTS IN THE ORGANIZATION OF WORK ON THE DEVELOPMENT OF YOUNG CHILDREN

**Kifayat Mammadova**
Institute of Education of the Republic of Azerbaijan,
Chief Specialist of the Department of Preschool Education Development
E-mail: kifayet.memmedova.1977@mail.ru
https://orcid.org/0000-0003-1360-5909

**Abstract.** The article discusses the role and importance of educator-teacher and parent cooperation in the organization of work on early childhood development. It is noted that at an early age (1–3 years) there are intensive psychological and physiological changes in the child's body, which in turn creates the need for a systematic organization of work in this direction in the family in the infant group. Thus, ensuring the close participation of parents in group trainings or various activities, interaction with the educator-teacher has a significant impact on the overall development of children. From this point of view, during the organization of various enlightening meetings with parents, giving them certain recommendations to talk about colorful educational games, different methods that serve the physical and cognitive development of children, to apply in the family is valued as an effective organization of work in this direction.

**Keywords:** early childhood, infant group, educator-teacher, parent, family, play, cooperation, development, day mood, speech development.

**To cite this article:** Mammadova K. (2021) Collaboration of educators-teachers with parents in the organization of work on the development of young children. *Journal of Preschool and Primary Education*, V.236, İssue III, pp. 35-54
**Article history:** Received – 18.08.2021; Accepted – 24.08.2021.

# ERKƏN YAŞLI UŞAQLARIN İNKİŞAFI İLƏ BAĞLI İŞİN TƏŞKİLİNDƏ TƏRBİYƏÇİ - MÜƏLLİMLƏRİN VALİDEYNLƏRLƏ ƏMƏKDAŞLIĞI

**Kifayət Məmmədova**
Azərbaycan Respublikası Təhsil İnstitutu,
Məktəbəqədər təhsilin inkişafı şöbəsinin baş mütəxəssisi
E-mail: kifayet.memmedova.1977@mail.ru
https://orcid.org/0000-0002-0684-8876

**Annotasiya.** Məqalədə erkən yaşlı uşaqların inkişafı üzrə işin təşkilində tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının rolu və əhəmiyyətindən danışılır. Qeyd olunur ki, erkən yaş dövrlərində (1–3 yaş) uşaq orqanizmində psixoloji və fizioloji cəhətdən intensiv dəyişikliklər müşahidə olunur və bu da öz növbəsində körpələr qrupunda bu istiqamətdə aparılan işin ailədə sistemli təşkili zərurətini yaradır. Belə ki, valideynlərin körpələr qrupunda keçirilən təlimlərdə, yaxud müxtəlif tədbirlərdə yaxından iştirakının təmin edilməsi, tərbiyəçi-müəllimlə qarşılıqlı əməkdaşlıq etmələri uşaqların ümumi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan, valideynlərlə maarifləndirmə xarakterli müxtəlif görüşlərin təşkili zamanı onlara uşaqların fiziki və koqnitiv inkişafına xidmət edən rəngarəng öyrədici oyunlardan, müxtəlif metodlardan bəhs etmək, ailədə tətbiq etmələri məqsədi ilə müəyyən tövsiyələrin verilməsi bu istiqamətdə işin səmərəli təşkili kimi dəyələndirilir.

**Açar sözlər:** erkən yaşlı uşaq, körpələr qrupu, tərbiyəçi-müəllim, valideyn, ailə, oyun, əməkdaşlıq, inkişaf, gün rejimi, nitq inkişafı.

**Məqaləyə istinad:** Əliyev R., Çələbiyev N. (2021) Psixologiya elminin inkişafına və elmi kadrların hazırlığına ADPU-nun töhfələri. "*Məktəbəqədər və ibtidai təhsil*", № 3 (236), səh. 35-54
**Məqalə tarixçəsi:** göndərilib – 18.08.2021; qəbul edilib – 24.08.2021.

## Giriş / Introduction

Uşaqların ümumi inkişafına, gələcək həyata hazırlanmalarına təkan verən məktəbəqədər təhsillə bağlı Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 14 aprel, 2017-ci il tarixdə imzaladığı 585-VQ nömrəli "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsində deyilir: "7.2. Məktəbəqədər təhsil vasitəsi ilə uşaqların erkən yaş dövrlərində əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının, estetik tərbiyəsinin, sadə əmək vərdişlərinə yiyələnmələrinin, ətraf aləmə, şəxsi sağlamlığın qorunmasına həssas və şüurlu münasibətlərinin, zəruri həyati bacarıqlara yiyələnmələrinin, şəxsiyyətinin formalaşdırılmasının əsası qoyulur" ["Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 2017]. Qanuna əsasən, son illər respublikamızda məktəbəqədər təhsil sahəsində əldə edilmiş nailiyyətlər, erkən yaş dövrlərindən başlayaraq, uşaqların fiziki, idraki, sosial və emosional inkişafına, bu istiqamətdə hüquqi təminatlarına xidmət edən əsas məqsədlər kimi dəyərləndirilir. Bununla yanaşı, qanunun 2.2. bəndində məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikası qanunvericiliyinin əsas məqsədlərinin, uşaqların məktəbəqədər təhsil sahəsində hüquqlarının təmin edilməsi, məktəbəqədər təhsil sisteminin müasir tələblərə uyğun fəaliyyəti və inkişafı üçün hüquqi təminatlar yaratması da xüsusi olaraq vurğulanır.

"Respublikamızda innovativ əsaslı məktəbəqədər təhsilin çağalıq (anadan olandan 1 yaşadək) və *körpəlik* dövrünü (1 yaşdan 3 yaşadək) əhatə edən *erkən uşaqlıq dövrü* fiziki və əqli inkişaf baxımından uşaqların həyatında mühüm dövr hesab edilir, çünki erkən yaş dövrünün çağalıq və *körpəlik* mərhələlərində uşaq orqanizmində psixoloji və fizioloji cəhətdən intensiv dəyişikliklər müşahidə olunur. Bu dövrdə uşaqların inkişafının sistemliliyinin təmin edilməsi məqsədi ilə tərbiyəçi-müəllimlərin valideynlərlə variativ görüşlərini təşkil edərək, onlara müəyyən tövsiyələr vermələri işin səmərəli təşkilinə zəmin yaradır. Belə ki, körpələr qrupunda plan əsasında həyata keçirilən sistemli iş uşağın inkişafı baxımından rejimə uyğunlaşdırıldığından, tərbiyəçi-müəllimin valideynlərlə bu istiqamətdə apardığı söhbətlər, etdiyi tövsiyələr və s. əsasında valideynlərin işi ailədə davam etdirmələri erkən yaş dövrünün məzmun standartlarının inteqrativ şəkildə reallaşdırılmasını və beləliklə, uşaqların inkişafının intensivləşdirilməsini təmin edir" [Məmmədova K.R., 2020]. Məktəbəqədər təhsil müəssisələrinin körpələr qrupunda bu istiqamətdə aparılan işin ailədə sistemli təşkili məqsədi ilə tərbiyəçi-müəllimlərin və valideynlərin qarşılıqlı əməkdaşlığı erkən yaşlı uşaqların ümumi inkişafı baxımından səciyyəvi xarakter daşıyır. Bununla bağlı "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 18-ci

və 19-cu maddələrində göstərilir:

"18.2.8. uşaqların təlim-tərbiyəsi və inkişafı ilə bağlı valideynlərlə əməkdaşlıq etmək;"

"19.1.3.təhsilalanların hüquq və maraqlarını müdafiə etmək, müəssisənin ictimai idarə olunmasında və mədəni-kütləvi tədbirlərin təşkilində iştirak etmək;

19.1.4. müəssisə rəhbərliyi və pedaqoji kollektivlə əməkdaşlıq etmək, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürmək" [«Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı»nın təsdiq edilməsi haqqında AR Nazirlər Kabinetinin 8 avqust, 2019-cu il tarixli, 351 №-li qərarı].

## Əsas hissə / Main part

Körpələr qrupunun tərbiyəçi-müəllimlərinin valideynlərlə qarşılıqlı əməkdaşlığında aşağıdakı vəzifələr əhatə olunur:

– tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının qarşılıqlı hörmət və etibar əsasında təşkil edilməsi;

– erkən yaşlı uşağın inkişafı üçün tərbiyəçi-müəllim və valideynin səylərinin birləşdirilməsi;

– körpələr qrupunda və ailədə uşaqların ümumi inkişafına xidmət edən inkişafetdirici mühitin yaradılması;

– valideynlərin erkən yaşlı uşaqların inkişaf meyarları ilə bağlı maarifləndirilməsi;

– uşağın nailiyyətləri ilə bağlı tərbiyəçi-müəllim və valideynlərin bir-birini mütəmadi olaraq məlumatlandırmaları.

Valideynlərin körpələr qrupunda keçirilən təlimdə, yaxud müxtəlif tədbirlərdə iştirakının təmin edilməsi, onların tərbiyəçi-müəllimlə əməkdaşlıq etmələri uşaqların ümumi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Eyni zamanda, valideynlərin tərbiyəçi-müəllimlə birlikdə uşağın nailiyyətlərini alqışlamaları, onları stimullaşdırmaları uşağın fiziki və əqli fəaliyyətinin inkişafına, özünəinam hissinin formalaşmasına, təlimdə fəal iştirak etməsinə, bilik və bacarıqlara asanlıqla yiyələnməsinə təkan verir.

Araşdırmalar göstərir ki, erkən yaşlı uşaqların ailələri ilə qarşılıqlı əməkdaşlığın aşağıdakı prinsiplər əsasında təşkili işin səmərəsini artırır:

1) kommunikativlik;
2) humanist münasibətlər;
3) fərdiləşdirmə;
4) inkişafyönümlülük;
5) dəstəkləyici mühitin təşkili;
6) stimullaşdırma [Məmmədova K.R., 2020].

Prinsiplərin adlarından da göründüyü kimi, ailələrlə əməkdaşlıq zamanı valideynlərlə ünsiyyətin genişlənməsi, əməkdaşlığın humanist münasibətlər əsasında təşkili, valideynlərin özünəməxsus subyektiv xüsusiyyətlərinin nəzərə alınması uşağın inkişaf səviyyəsini bütün hallarda dəstəkləməklə həm uşaqların, həm də valideynlərin bu istiqamətdə stimullaşdırılmasının uğurlu göstəriciləri kimi çıxış edir.

Tərbiyəçi-müəllimlərin valideynlərlə qarşılıqlı əməkdaşlığı zamanı uşağın inkişafı ilə bağlı aşağıdakı mövzularda söhbətlər aparmaları, nitq inkişafı metodlarının tətbiqi ilə bağlı tövsiyələr vermələri işin səmərəli təşkilinə zəmin yaradır.

**Gün rejimi** uşağın dünyaya göz açdığı andan başlayaraq, onun gündəlik həyatının sistemli təşkilini nizamlamaqla yanaşı, sağlam böyüməsinin də təməlini qoyur. Bu baxımdan tərbiyəçi-müəllimlər valideynləri körpələr qrupunda müasir məktəbəqədər təhsilin tələblərinə uyğun tətbiq olunan rejim qaydaları ilə yaxından tanış etməli və onların dəstəyi ilə uşaqların gündəlik fəaliyyətlərinin ailədə də bu rejim əsasında təşkilinə nail olmalıdırlar. Valideynlərin öz övladlarını ailədə erkən yaş dövrünün rejiminə uyğunlaşdırmaları uşaqların əqli və fiziki cəhətdən sağlam böyümələri istiqamətində aparılan işin səmərəli təşkili kimi dəyərləndirilir.

**Nitq inkişafı metodları**

– *Əyani metodlar.* Bu metodlara müşahidə, gəzintilər, şəkillər, videogörüntülər və s. daxildir. Gəzinti zamanı uşaqların müxtəlif obyektləri müşahidə etmələri, yaxud onların şəklinə, videogörüntülərinə baxmaları onların müşahidə prosesində gördükləri əşya və obyektlə bağlı söz ehtiyatlarını artırır, nitqlərini inkişaf etdirir. Eyni zamanda, valideynin müxtəlif nağılları danışarkən oyuncaqlardan obrazlar kimi istifadə etməsi, onların dili ilə danışaraq uşağı dindirməsi, yaxud nağılla bağlı obrazların şəkillərini uşağa göstərərək, onların adlarını deməyi təklif etməsi və s. nitqin inkişafına təkan verir.

– Şifahi metodlara canlı, bədii, ifadəli, obrazlı sözlər daxildir. Valideyn suallar verməklə, şeir, hekayə oxuyaraq, nağıl danışaraq uşağın nitqinin inkişafına nail olur.

– *Praktik metodlar* isə uşaqların yiyələndikləri bilikləri praktikada tətbiq etmələri üçün şərait yaradır. Buraya nağılların, hekayələrin səhnələşdirilməsi, yeni sözlərin təkrarı yolu ilə məşq etdirilməsi və s. daxildir.

– *Sözlü metodlar*. Təcrübə göstərir ki, uşaqların nitqinin inkişafında valideynlər daha çox sözlü metodlardan istifadə edirlər. Bu metod yeni öyrədilən sözün uşaq tərəfindən asanlıqla mənimsənilməsi üçün onun valideyn tərəfindən aydın, ucadan və tələsmədən tələffüz edilməsi, uşaqla birlikdə dəfələrlə təkrarlanmasıdır [Y.Ş. Kərimov., 1997].

Erkən yaşlı uşaqların nitqinin inkişafı ilə bağlı valideynlərə edilən tövsiyələrin aşağıdakı məzmunda təşkili məqsədəuyğundur:

– Uşaqlarla nitq inkişafı üzrə iş gecikdirilmədən, vaxtında başlanmalıdır. “Uşağın danışması, dil açması üçün müəyyən yaş həddi var”, yaxud “Hələ körpədir, bir yaşınadək danışacaq” kimi düşüncələr nitq inkişafı baxımından düzgün deyil. Uşaq dünyaya gəldiyi vaxtdan başlayaraq, valideynlər onunla danışmalı, öz emosiyalarını səslərlə, sözlərlə bildirməlidirlər ki, uşaq zaman keçdikcə bu səsləri, sözləri öz nitqində nümayiş etdirmək üçün müəyyən nitq hazırlığına malik olsun. Eyni zamanda, erkən yaşlı uşaqlarda daxili nitq formalaşmadığından, konkret təfəkkürün elementləri üstünlük təşkil etdiyindən, onların daha çox vizual və akustik yolla, yaxud təqlid etməklə nitq bacarıqlarına yiyələnmələrini nəzərə alaraq, valideynlər onlarla tez-tez danışmalı, münasibətlərini səslər, sözlər, cümlələr vasitəsi ilə bildirməli və beləliklə, uşaqları elementar nitq bacarıqlarına yiyələnməyə hazırlamalıdırlar.

– Uşaq dünyaya göz açdığı gündən başlayaraq, onun doğma ana dilimizin gözəlliyini duyması və bu dilə məhəbbət hissi yaratmaq üçün onunla yalnız ana dilində “danışmaq” lazımdır.

– Uşaqların nitq inkişafı ilə bağlı ailədə aparılan iş onların həyatının, fəaliyyətinin bütün sahələri ilə əlaqələndirilməlidir.

– Valideyn müntəzəm olaraq uşaqla danışmalı, onların ilk reaksiyalarına, qığıltılarına müəyyən səs və sözlərlə münasibət bildirməli, “süni nitq” situasiyası yaratmalıdır.

– Uşağın nitqə asanlıqla yiyələnməsi üçün valideynlər sözləri müntəzəm olaraq təkrarlamalı, eyni zamanda sözləri “uşaq dili ilə” yox, dil qaydalarına uyğun, düzgün tələffüz etməlidirlər ki, uşaqda aydın nitq bacarıqları formalaşsın.

– Müəyyən səsli oyuncaqlar, cizgi filmləri, müxtəlif audio-dinləmələr və s. səsləndirməklə uşaqların eşitməsinin və danışıq nitqinin formalaşdırılmasına şərait yaradılmalıdır.

– Erkən yaşlı uşaqlarla ünsiyyət zamanı tez-tez gülüş, təbəssüm, sevgi, mərhəmət, qayğı və s.nümayiş etdirilməli, beləliklə, onlarda müsbət keyfiyyətlərin elementar təzahürlərinin formalaşmasına şərait yaradılmalıdır.

– Uşaqların nitq fəallığı təmin olunmalıdır. “Nitq fəallığı” dedikdə, uşaqların valideynlərdən, yaxud ətrafdakı digər insanlardan eşitdiklərini fəal qavramalar, həmçinin təkrarlamalar nəzərdə tutulur.

– Valideyn öyrədiləcək yeni söz, əşya və hadisənin adını əvvəlcə özü düzgün və aydın tələffüz etməli, həmin sözün mənasını izah etməli, sonra uşaqla birlikdə bir neçə dəfə təkrarlamalıdır ki, uşaq sözü deməkdən, təkrarlamaqdan çəkinməsin. Valideynlər unutmamalıdırlar ki, uşağı ilk dəfədən sözü düzgün tələffüz etməyə məcbur etmək olmaz. Uşaq sözdəki səsləri səhv tələffüz etdikdə valideyn həmin sözü bir neçə dəfə təkrar edərək, uşağın eşidəcəyi səs tonunda, düzgün tələffüzlə söyləməli, uşaqla birlikdə təkrarən, xorla deməli və bu yolla

uşağın nitqinin korrektəsinə nail olmalıdır.

– Uşaqlara şeir, hekayə və nağıl oxumazdan əvvəl həmin kitabı, yaxud kitabdakı şəkilləri uşağa göstərərək, onda maraq yaratmalı, yalnız bundan sonra oxuya, yaxud nəqletməyə keçmək lazımdır. Oxu və nəqletmə zamanı sözlərin tələffüzünə, intonasiyaya, obrazlara uyğun olaraq, jest və mimikanı düzgün ifadə etməyə diqqət yetirilməlidir, çünki uşaqlar dinləyir, eyni zamanda danışanın dodaqlarının aldığı formaya diqqətlə baxaraq, sözün tələffüzünü mənimsəyirlər. Özləri hələ sərbəst danışa bilməsələr də, ətrafdakıların tələffüzünə diqqətlə yanaşırlar. Öz reaksiyalarını isə ilk aylarda səslər, sonralar sözlər və 1–2 sözdən ibarət sadə cümlələrlə, jest və mimikalarla ifadə edirlər. Oxu və nəqletmə zamanı fikir bitdikdən sonra fasilə edib, sual vermək, qısa cavab aldıqdan sonra oxu və nəqlə davam etmək lazımdır. Sual verilməsi uşağın fikrinin sizdə olub-olmamasını öyrənmək, eyni zamanda, onun nitqinin inkişafı, fikri ifadə etmək bacarığının formalaşdırılması məqsədi daşıyır. Valideynlər unutmamalıdırlar ki, erkən yaşlı uşaqlarda qeyri-ixtiyari diqqət üstünlük təşkil edir. Ona görə də oxu və nəqletmə üçün uşağın yaş səviyyəsinə uyğun qısa və sadə məzmunlu bədii mətnlər seçilməli, danışarkən mətn sadə dillə, ardıcıl nəql edilməlidir.

– Uşaqların sevdikləri maraqlı hekayə və nağıllar oyuncaqlar vasitəsilə səhnələşdirilməlidir. Bu zaman valideynlərin oyuncaqları əllərində göstərərək, nağılda, hekayədəki obrazların dili ilə danışmaları həmin mətnin uşaqlar tərəfindən daha həvəslə və asanlıqla mənimsənilməsini təmin edir [Məmmədova K.R., 2020].

Tərbiyəçi-müəllimlərin valideynlərlə əməkdaşlığı aşağıdakı istiqamətlərdə təşkil etmələri məqsədəuyğundur:

“1***. Valideynlərlə fərdi və kollektiv görüşlərin təşkili***

– *Fərdi görüşlər* zamanı uşağın fiziki və psixoloji inkişafı ilə bağlı tərbiyəçi-müəllimin valideynlə söhbətlər aparması, problemin həlli yollarının birgə tapılması uşaqların inkişafına təkan verir.

– *Kollektiv görüşlərdə* qarşıya qoyulmuş məsələ ilə bağlı kollektiv müzakirənin təşkili və irəli sürülmüş təkliflər məsələnin həlli yollarının tapılmasına zəmin yaradır. Bu zaman müzakirə olunan pedaqoji problemlə bağlı valideynlərə müəyyən tövsiyələrin verilməsi ailədə həmin istiqamətdə işin davam etdirilməsi məqsədini daşıyır.

2***. Seminarların təşkili*** valideynlərin pedaqoji maarifləndirilməsi yollarından biri olmaqla, müasir məktəbəqədər təhsilin tələblərinə və cəmiyyətin maraqlarına uyğun təşkil olunur. Seminarlara tərbiyəçi-müəllim və valideynlərlə yanaşı, uşaq psixoloqları, tibb işçiləri, metodistlərin də cəlb olunması uşaqların inkişafı istiqamətində valideynlərin zəngin nəzəri və praktik məlumatlara yiyələnmələrinə şərait yaradır.

3. Məktub vasitəsi ilə əlaqə. Bunun üçün tərbiyəçi-müəllim "poçt qutusu" hazırlayır. Valideynlərə onlar üçün maraqlı olan sual və təklifləri yazıb, bu qutuya atmağı təklif edir. Məktublar həmin an cavablandırılmır, çünki tərbiyəçi-müəllim onları oxuyub, bəzi məqamları həmkarları ilə məsləhətləşməlidir. Suallar bir gün sonra da cavablandırıla bilər.

4. ***Telefon əlaqəsi***. Bunun üçün tərbiyəçi-müəllimın danışacağı məsələ ilə bağlı valideyni əvvəlcədən sms vasitəsi ilə məlumatlandırması, bundan sonra zəng etməsi daha məqsədəuyğundur.

5. ***Video-görüntülər, şəkillər, portfolio*** və s. vasitəsi ilə əlaqə yaradılması erkən yaşlı uşaqların ümumi inkişafı haqqında valideynlərin müəyyən qədər məlumat əldə etmələrinə şərait yaradır.

6. Dəyirmi masalar tərbiyəçi-müəllimlərin və valideynlərin iştirakı ilə təhsildə aktual problemlərin müzakirəsinə həsr olunur.

7. ***Valideyn şurası*** məktəbəqədər təhsil müəssisəsində uşaqların həyatının, sağlamlığının qorunması, müstəqil inkişafı üçün şəraitin yaradılması, birgə tədbirlərin təşkili və keçirilməsi üçün müntəzəm olaraq toplanan valideynlər qrupudur.

8. ***Açıq qapı*** günləri valideynlərin körpələr qrupunda təlimin təşkilini müşahidə edərək, innovativ təlimin struktur xüsusiyyətləri ilə tanış olmalarına, tərbiyəçi-müəllim tərəfindən övladının fəallığına, nailiyyət səviyyəsinə dair bəzi metodik məsləhətlərlə məlumatlandırılmalarına şərait yaradır.

9. ***Tədbirlərin və oyunların təşkilində*** iştirak edərkən valideynlər təlim proqramının məqsəd və tələbləri barəsində məlumatlandırılaraq, uşaqların fiziki və psixoloji fəallığının əyani izləyicilərinə çevrilir və beləliklə, övladlarının inkişafı ilə bağlı müşahidə etdikləri problemlərin həlli yollarını axtarırlar.

10. ***Gəzinti və ekskursiyalar*** tərbiyəçi-müəllim – uşaq – valideyn əməkdaşlığını gücləndirməklə yanaşı, uşaqlarda vətənə, yaxınlarına məhəbbət, diqqət və hörmət, təbiətə, heyvanlara, bitkilərə qayğı və sevgi, əməksevərlik, sadə əmək bacarıqları formalaşdırır. Belə gəzintilərdən sonra uşaqlar həvəslə rəsmetmə bacarıqları, təbii materiallardan hazırlanmış birgə yaradıcılıq işləri və s. nümayiş etdirirlər.

11. ***Pedaqoji söhbətlər*** uşaqların təlim-tərbiyəsi ilə bağlı valideynlərə köməyin əlverişli formalarından biridir" [Məmmədova K.R., 2020].

Valideynlərlə görüşlər zamanı uşaqların fiziki inkişafı ilə bağlı gimnastika, yuxu, qidalanma, sağlamlaşdırıcı və gigiyenik prosedurların, oyunların və s. sistemli bölgüsünü əhatə edən gün rejiminin ailədə düzgün təşkilinə xüsusi diqqət göstərilməsi barədə maarifləndirmə işlərinin aparılması, tövsiyələr edilməsi zəruridir, çünki erkən yaşlı uşaqların yemək, yuxu, oyun və s. fəaliyyətlərinin rejimə uyğun təşkil edilməsi onların fiziki inkişafı ilə yanaşı, psixoloji inkişafı, tərbiyə-

si, şən və gümrah böyüməsləri, xoş əhvali-ruhiyyədə olmaları üçün mühüm şərtdir. Bunları nəzərə alaraq, "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı (kurikulumu)"nın tələblərinə əsasən, körpələr qrupunda tətbiq olunan gün rejimi nümunəsinə ailədə də əməl edilməsi məqsədəuyğundur [Sadıqova T.B., Həsənova S.H., Məmmədova K.R., 2012].

**1 – 2 yaşlı uşaqlar üçün gün rejimi**

| Ailədə | | |
|---|---|---|
| | **1–1,5 yaş** | **1,5 –2 yaş** |
| Yuxudan oyanmaq, təbii ehtiyacların ödənilməsi | 6.30 –7.00 | 6.30 – 7.00 |
| Səhər gimnastikası, oyunlar | 7.00 – 8.30 | 7.00 – 8.30 |
| Səhər yeməyi | 8.30 – 9.00 | 8.30 – 9.00 |
| Oyunlar | 9.00 – 10.00 | 9.00 – 10.00 |
| I yuxu | 10.00 –11.00 | – (oyunlar davam edir) |
| Açıq havada gəzinti | 11.00 – 11.00 | 10.00 – 11.15 |
| Gəzintidən qayıtmaq | 11.00 – 11.15 | 11.15 – 11.30 |
| Nahar etmək | 11.20 – 11.50 | 11.30 – 11.50 |
| Digər fəaliyyətlər (karandaşla, plastilinlə iş, sadə əmək vərdişləri və s.) | 11.50 – 13.30 | 11.50 –12.30 |
| Oyunlar | 13.30 –14.00 | – (yuxu) |
| Yuxu | 14.00 – 15.15 | 12.30 –15.00 |
| Yataqdan qalxmaq | 15.15 –15.30 | 15.00 –15.30 |
| Axşamqabağı yemək | 15.30 – 16.00 | 15.30 –16.00 |
| Oyun, müstəqil fəaliyyət | 16.00 –17.30 | 16.00 –17.40 |
| Hava, gigiyenik tədbirlər, axşamqabağı yemək | 17.30 –18.00 | 17.40 –18.00 |
| Açıq havada gəzinti | 18.00 –19.00 | 18.00 –19.00 |
| Oyun, müstəqil fəaliyyət | 19.00 –19.30 | 19.00 –19.30 |

| | | |
|---|---|---|
| Axşam yeməyi | 19.30 – 20.00 | 19.30 –20.00 |
| Gigiyenik tədbirlər, gecə yuxusu | 20.00 – 06.30 | 20.00 – 06.30 |

**2 – 3 yaşlı uşaqlar üçün gün rejimi**

| Ailədə | |
|---|---|
| | **2–2,5 yaş** |
| Yuxudan oyanmaq, təbii ehtiyacların ödənilməsi, müstəqil fəaliyyət | 6.30 – 08.00 |
| Səhər gimnastikası | 8.00 – 8.10 |
| Səhər yeməyi | 08.10 – 8.40 |
| Oyunlar | 08.40 – 09.40 |
| Açıq havada gəzinti | 09.40 –11.15 |
| Gəzintidən qayıtmaq | 11.15 –11.45 |
| Nahar etmək | 11.45 –12.15 |
| Gündüz yuxusu | 12.15 –15.00 |
| Hava, gigiyenik tədbirlər, axşamqabağı yemək | 15.00 –15.25 |
| Açıq havada gəzinti | 16.15 – 17.10 |
| Gəzintidən qayıdış | 17.10 –17.20 |
| Şam yeməyi | 17.20 –18.00 |
| Oyun, müstəqil fəaliyyət | 18.00 –19.00 |
| Açıq havada gəzinti | 19.00 –19.50 |
| Az hərəkətli oyunlar | 19.50 –20.20 |
| Gigiyenik tədbirlər, gecə yuxusu | 20.20 – 06.30 |

Cədvəldəki rejim göstəricilərinin valideynlər tərəfindən tətbiq olunmasını uşaqların sağlamlıq tədbirlərinin ailədə təşkili baxımından təkanverici qüvvə hesab etmək olar [Sadıqova T.B., Həsənova S.H., Məmmədova K.R., 2012].

**1–2 yaşlılar (fiziki inkişaf üçün oyunlar)**

“Məktəbəqədər yaşlı uşaqlar vaxtlarının çoxunu oyunlarda keçirirlər. Bəzən böyüklərə elə gəlir ki, uşaqlar oynayanda mənasız məşğuliyyətə nahaqdan vaxt

itirirlər. Əslində isə oyun məktəbəqədər yaşlı uşaqların aparıcı fəaliyyətidir" [Məktəbəqədər təhsilin yeni məzmunu və onun tətbiqi məsələləri. AR TN Təhsil İnstitutu, 2018]. Uşaqların fiziki, idraki, estetik, sosial bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi məqsədi ilə körpələr qrupunda görülən işlərin ailədə də davam etdirilməsi üçün tərbiyəçi-müəllimlər valideynlərin müxtəlif məzmunlu oyunlar keçirmələrinə yardımçı olmalıdırlar, məsələn, tərbiyəçi-müəllimlər uşaqların fiziki inkişafı ilə bağlı valideynlərə aşağıdakı oyunları tövsiyə edə bilərlər:

**"Dairədə yeriş və qaçış" oyunu.** Döşəmənin üzərində ip, yaxud lentlə dairə düzəldin. Uşağın əlindən tutub, dairə boyu yeriyin. Sürəti qismən artıraraq "Qaçaq!" deyib, yerişi qaçışla əvəz edin. Sonra uşağın əlini buraxın və onun sizin nəzarətiniz altında bu hərəkətləri davam etdirməsinə şərait yaradın.

**"Dəcəl pişik balası" oyunu. "**Bir dəcəl pişik balası var idi. O, bir yerdə dayanmır, bütün günü o tərəf – bu tərəfə qaçır, yeməyini də tələsik yeyirdi. Bir gün dəcəl pişik balası süd tökülmüş qaba yaxınlaşıb, tələsik içmək istəyəndə, qab aşdı və bala pişik başdan ayağa qədər südə bulaşdı. O, əvvəlcə geri çəkilərək başını silkələdi (*bu zaman başınızı astaca sağa-sola hərəkət etdirin, uşaq da təkrar etsin*), əlləri ilə üzünü, sonra dizlərini təmizləməyə çalışdı (*uşaqla birlikdə əllərinizlə üzünüzü və dizlərinizi ovuşdurun*). Sonra pişik balası "əl-üzünü yudu" (*uşaqla birlikdə əllərinizlə üzünüzü yuyurmuş kimi hərəkət edin*) və bundan sonra astaca qaba yaxınlaşaraq, qabın içərisində qalmış südü içdi (*uşaqlarla birlikdə dodaqlarınızı qabağa uzadıb, südü içirmiş kimi hərəkər edin)*.

Pişik balası tələsmədiyi və ehtiyatla hərəkət etdiyi üçün daha südü dağıtmır və üst-başını bulaşdırmır. Sonra aşağıdakı şeri deyərək, uyğun hərəkətləri uşaqla birlikdə yerinə yetirin:

Başımı sağa-sola
Hərəkət etdirirəm.
Əllərimlə üzümü,
Dizlərimi silirəm.
Astaca yeriyərək,
Qabdan südü içirəm.
Daha dəcəl deyiləm,
Mən təmizkar pişiyəm.

**"Bu nədir?"oyunu.** Oyuncaqları ayrı-ayrılıqda parça torbaya elə yerləşdirin ki, torba oyuncağın formasını alsın. Onu uşağa göstərərək, hansı oyuncaq olduğunu soruşun və bu zaman oyuncağın rəngi, forması və s. əlamətlərini söyləyin ki, uşaq, bunlara əsasən, oyuncağı tapa bilsin. Uşağın cavablarını dinlədikdən sonra ona torbanı açıb, oyuncağı çıxarmasını və onu qaçaraq otağın digər hissəsində əvvəlcədən təyin etdiyiniz məsafədəki masaya qoyub, geri qayıtmağı təklif edin.

**2–3 yaşlılar (idraki inkişaf)**

**"Böyük və kiçik toplar" oyunu.** Döşəmənin üzərində hər iki tərəfindən rəngli lent, yaxud ip çəkilmiş "yol" düzəldib, seçdiyiniz qırmızı, sarı, yaxud yaşıl rəngli, böyük və kiçik ölçülü toplarla oyuna başlayın. Uşağa həmin yolla əvvəl böyük, sonra isə kiçik topları diyirlədəcəyini bildirərək, onu oyuna dəvət edin və bu zaman ona "Əvvəl hansı topu diyirlədək?" sualını verin. Onun cavabından sonra oyuna başlayarkən seçdiyi topun hansı rəngdə olduğunu da soruşun. Oyun zamanı "əvvəl böyük, sonra kiçik" sözlərini tez-tez təkrarlayın ki, uşaq buna uyğun olaraq, oyun hərəkətlərini düzgün yerinə yetirsin. Eyni zamanda, topların rənglərini də oyun prosesində tez-tez vurğulayın və uşaq da sizinlə birgə rənglərin adlarını təkrar söyləsin.

"**Gül qutusu" oyunu.** Uşağa həyətdə, yaxud evdə olan gülləri, çiçəkləri göstərib, onların ətrini qoxulamasına şərait yaradın, yaxud onların şəkillərini göstərib haqqında danışın, adlarını, rəngini, ətrinin gözəlliyini və s. qeyd edin. Sonra əvvəlcədən hazırladığınız gül, çiçək şəkilləri qoyulmuş zərflərlə, yaxud şəkillərin büküldüyü kağızlarla dolu karton qutunu gətirib uşağın qarşısına qoyun və ona zərflərin, kağızların içərisində qoyulmuş şəkilləri çıxarıb, baxmağı təklif edin. Bu zaman şəkildəki gülün və ya çiçəyin adını deyin, uşağa isə təkrarlamağı təklif edin. Sonra adları birlikdə təkrar edin.

**"Kürəcik" oyunu**. Kartondan hazırlanmış dərin olmayan bir qutunun küncündən dəlik açın və qutuya kürəcik formasında hər hansı bir əşya: kiçik top, yaxud iri düymə və s. qoyub, onu elə fırladın ki, əşya həmin dəlikdən yerə düşsün. Sonra həmin karton qutunu uşağa da verərək, onun da bir neçə dəfə həmin hərəkəti yerinə yetirməsinə şərait yaradın.

**"Yağış" oyunu.** Şerin sözlərini ritmik şəkildə söyləyərək, əl və barmaqlarınızı şerin məzmununa uyğun hərəkət etdirin. Uşaqlar da sizinlə birlikdə şerin sözlərini deyib, hərəkətləri ritmə uyğun yerinə yetirsinlər:

– Göy üzü qaralanda, *(əlləri yuxarıya qaldırıb, sağa-sola yelləmək).*
– Buludlar toqquşanda, *(əlləri bir-birinə vurmaq).*
–Yağış yağır, şır-şır-şır, *(əlləri yuxarıya-aşağıya doğru hərəkət etdirmək)*
– Quşlar uçur, pır-pır-pır, *(quşların uçmaq hərəkəti).*
–Yağışdan islanmayaq, *(hərə bir tərəfə qaçır).*
– Biz çətirlə dayanaq *(əlləri qoşalaşdırıb, başın üzərinə qaldırmaq).*

**1– 2 yaşlılar (nitq inkişafı)**

**"Söz" oyunu.** Uşağa onun tələffüz edə bilmədiyi yeni sözü öyrətmək üçün onunla üz-üzə dayanın və topu ona ataraq, yeni sözü deyin, məsələn, *"top", "at",*

*"tut"* və s. Siz hər dəfə yeni sözü deyib, topu uşağa atanda, uşaq topu tutduqdan sonra həmin sözü təkrar etsin və sonra topu sizə atsın. Sözü bir neçə dəfə təkrarlamaqla oyunu davam etdirin.

**"Sevimli oyuncaq" oyunu.** Oyuncaqları uşağın qarşısına yığın və ona ən çox sevdiyi oyuncağı götürməyi təklif edin. Götürdüyü oyuncağın adını soruşun. Əgər deyə bilməsə, həmin oyuncağın adını söyləyib, uşaqla birlikdə təkrarlayın. Sonra hər hansı bir oyuncağın adını çəkərək, uşağa onu götürməyi təklif edin. Heyvan təsviri olan oyuncaqların hər birinin səsini çıxarın, uşaqla birlikdə həmin heyvanın adını çəkin və səsini təkrar edin.

**Plastilinlə oyun.** Uşağa bildirin ki, "dovşanlar üçün kələm hazırlamalıyıq". Bunun üçün ağ rəngli plastilini götürüb, onu ovcunuzda əzərək kiçik hissələrə ayırın və bu işi uşaqla birlikdə təkrar edin. Sonra "Dovşan üçün kələmi hansımız daha tez hazırlaya bilərik?" sualını verərək, işi sürətləndirmək məqsədi ilə fəaliyyətə yarış xarakteri verin. Hissələrə ayrılmış plastilindən "kələm" hazırlayarkən çalışın ki, uşaq ovcunda plastilini gücü çatan şəkildə əzsin və işi sizdən əvvəl başa çatdırması üçün ona şərait yaradın.

**2–3 yaşlılar (nitq inkişafı)**

**"Rəngli şarlar" oyunu.** Qırmızı, yaşıl və sarı rəngdə olan şarları bir-bir uşağa göstərib, hər birinin rəngini, dairə formasında olduğunu qeyd edərək, uşaqla birlikdə təkrar edin. Sonra "Hansı şarların rənglərini, adını və formasını düzgün söyləsən, həmin şarlar sənin olacaq" kimi ifadələrlə uşağı şarların rənglərini və formasını müstəqil deməyə həvəsləndirin. Uşaq şarların rənglərini və dairə formasında olduğunu dedikdə, həmin şarı ona verin.

**"Cüt şəkilləri tap" oyunu.** Hər birindən iki ədəd olan heyvan şəkillərini qarışıq şəkildə qoyaraq, uşağa onların içərisindən eyni olan şəkilləri tapıb ayırmağı tapşırın, məsələn, eyni pişik, it şəkilləri və s. Sonra bu tapşırığı cüt meyvə şəkilləri (alma, armud şəkli və s.) ilə yerinə yetirin. Uşaq cüt şəkilləri tapdıqca, şəkildəki heyvanın, yaxud meyvənin adını söyləməlidir. Əgər deyə bilməsə, həmin adı siz deyin və uşaq bir neçə dəfə onu təkrarlasın. Oyunu bu ardıcıllıqla davam etdirin.

**"Azdır, yoxsa çoxdur?" oyunu.** İki müxtəli rəngli kartondan gül, yaxud dairə formaları kəsin və hər rəngli güldən müxtəlif saylarda ayıraraq, masanın üzərinə düzün (məsələn, üç ədəd ağ gül və daha çox qırmızı gül). Sonra uşaqdan hansı rəngdə olan güllərin az və hansının çox olduğunu soruşun. Uşaq "az" və "çox" anlayışlarını fərqləndirməkdə çətinlik çəkərsə, ona kömək edin. Sonra oyunu digər sayda şəkillər, yaxud oyuncaqlarla davam etdirə bilərsiniz.

**1–2 yaş (motor bacarıqlarının inkişafı)**

Aşağıdakı oyunlar uşaqların nitq inkişafı ilə yanaşı, onlarda böyük və kiçik motor bacarıqlarının inkişafına da xidmət edir.

**"Rəngləmə" oyunu.** Əlinizdəki dovşan oyuncağının dili ilə uşaqla "danışın": – Salam, mən balaca dovşanam. Sənin adın nədir? (*uşaq adını deyir*). Sənə öz dostlarımı göstərimmi? Bu, dələdir, bu isə kirpidir. Sən də mənim dostlarımın adlarını deyə bilərsənmi?" (*uşağın cavabını dinləyin*). Sonra isə albom vərəqindən kəsilmiş dələ və kirpi formalarını uşağa göstərərək, "Gəl dovşanın balaca dostlarının şəkillərini rəngləyək" deyib, uşaqla birlikdə formaları boya ilə, yaxud karandaşla rəngləyin.

**Plastilinlə iş.** Albom vərəqində çəkdiyiniz meyvə konturunu, məsələn, alma formasını uşağa göstərərək deyin: – "Bu, alma şəklidir, alma qırmızıdır" (*dediklərinizi uşaq da təkrarlayır*). Sonra "Gəl bu alma şəklini plastilinlə bəzəyək" deyib, rəngli plastilini iki hissəyə ayırın. Bir hissəsini uşaq, digərini isə siz ovcunuzda əzərək, kiçik hissələrə ayırıb yumru formaya salın və alma konturunun üzərinə yapışdıraraq, barmaqlarınızın ucu ilə yaxşıca yayın. Bu işi heyvan şəkilləri ilə də edə bilərsiniz.

**2–3 yaşlılar (motor bacarıqlarının inkişafı)**

**"Hörümçəyin evi" oyunu.** Oyuna belə başlamaq lazımdır: – Bir gün hörümçək ağac budağının üzəri ilə gedirdi (*barmaqlarınızı masanın, yaxud qolunuzun üzərində yeriyirmiş kimi hərəkət etdirin*). Bu zaman külək əsdi (*vıyyy – vıyyy*) və şimşək çaxmağa başladı (əllərinizi sağa-sola, külək kimi hərəkət etdirib, bir-birinə vurun). Sonra isə yağış yağmağa başladı (*barmaqlarınızın ucu ilə əvvəl yavaş-yavaş, sonra isə sürətlə masanı taqqıldadın*). Yağış dayanandan sonra hörümçək budağın altında özünə ev tikməyə başladı ki, bir də yağış yağsa, orada gizlənsin (*Bu zaman əllərinizi bir-birinə yaxınlaşdırıb, barmaqlarınızı tez-tez hörümçək yuva toxuyurmuş kimi hərəkət etdirin*). Nağılı danışdıqca işlətdiyiniz sözləri və hərəkətləri uşaqlarla birlikdə təkrar edin.

**"Şəkil çəkək" oyunu.** Səthi düz olan plastik, dəmir və s. qabın içərisinə qum, yaxud sininin içərisinə un, şəkər və s. tozu tökün. Əvvəlcə onun üzərində bir xətt çəkin, sonra çəkdiyiniz təsviri əlinizlə hamarlayıb, həmin xətti yox edin. Başqa bir şəkil çəkin və onu adlandırın, uşaq da o adı təkrarlasın. Sonra səthi əlinizlə hamarlayıb, uşağa bir xətt, yaxud istədiyi bir şəkli çəkməyi təklif edin və onun çəkdiyi şəkli adlandırın. Uşaq da bu adı təkrar etsin. Sonra isə uşağın tanıdığı hansısa əşyanın adını deyin və uşaq onun şəklini bacardığı kimi çəksin. Bu işdə uşağa istiqamət verin və beləliklə, oyunu davam etdirin.

**"Qar dənəcikləri" oyunu** *(nəfəs gimnastikası)***.** Kağızı xırdalayıb, kiçik qar

dənəcikləri formasına salın və onları dayaz bir qaba yığın. Sonra oyuna başlayın: "Soyuq qış günü idi. Çoxlu qar yağmışdı, hər tərəf ağappaq idi. Birdən elə güclü külək əsdi ki, yerdəki qar dənəcikləri havaya qalxıb, ətrafa səpələnməyə başladı. Bunu görən dovşanlar və dələlər qaçıb yuvalarında gizləndilər" (*meyvə şirəsi içmək üçün istifadə olunan plastik borucuqla qabdakı "qarı" üfürüb, kağız parçalarını hərəkətə gətirin)*. Uşağa da bir borucuq verin və o da sizinlə birlikdə "qar"ı sanki küləkdə uçuşurmuş kimi hərəkət etdirib ətrafa səpələsin.

**1–2 yaşlılar (estetik bacarlıqların inkişafı)**

Uşaqlarda estetik bacarıqların formalaşdırılması və inkişafı ilə bağlı valideynlərin aşağıdakı məzmunda oyunlardan istifadə etmələri məqsədəuyğundur:

**"Dovşanın evi" oyunu.** Oyuna belə başlayın: "Bir dovşan var. O, meşədə yaşayır, amma onun evi yoxdur. Havalar soyuyanda dovşan soyuqda qalır. Gəlin ona ev tikək ki, soyuqda qalıb üşüməsin". Kubları bir-birinin üzərinə qoyub, "ev tikin". Sonra isə uşağın da kublarla "ev tikməsinə" şərait yaradın.

**"Səliqəli olaq!" oyunu.** Uşaq oynayıb qurtardıqdan sonra oyuncaqlar dağınıq halda olduğu üçün ona deyin: "Gəl otağı səliqəyə salaq, oyuncaqları yerinə qoyaq. Əgər oyuncaqları səliqə ilə yerinə yığmasaq, onlar bizdən küsüb gedərlər". Sonra uşaqla birlikdə işə başlayın. Bu zaman uşağın oyuncaqları yerinə yığmasına şərait yaradın və bu işdə ona sərbəstlik verin.

**"Ritmik hərəkətlər".** Şən musiqi sədaları səsləndirib, ritmə uyğun rəqs hərəkətləri edin. Uşağı da sizinlə birlikdə ritmik hərəkətlər etməyə cəlb edin. Bu zaman uşağın ritmə uyğun əl çalmasına, əl və ayaqlarını hərəkət etdirməsinə nəzarət edin.

**2–3 yaşlılar (estetik bacarlıqların inkişafı)**

**"Günəş" oyunu.** Albom vərəqində dairə çəkin, onu sarı rənglə rəngləyin və çəkdiyiniz şəklin günəş olduğunu uşağa bildirin. Günəşin şüalarını çəkmək üçün əvvəlcə ikinci və üçüncü barmaqlarınızı sarı rəngli sulu boyaya bulaşdırın, sonra barmaqlar azacıq aralı şəkildə dairənin xəttinin üzərinə qoyub kənara doğru çəkin, uşağa da barmaqlarını sarı boyayıb, günəş şüaları çəkməsini təklif edin. Ona nəzarət etməklə, dairə ərtafında günəş şüalarını birlikdə çəkin. Sonda dairənin üzərində gülümsəmə işarəsi çəkin və "Günəşin şəklini çox gözəl çəkdin, onun xoşuna gəldi. Bax, günəş gülümsəyir!" deyib, uşağı alqışlayın.

**"Sevimli musiqi" oyunu.** Uşağın sevdiyi şən musiqi parçasını, yaxud mahnını səsləndirib, onunla birlikdə rəqs edin. Rəqs edərkən mahnının sözlərini də oxuyun, uşaq da bacardığı kimi zümzümə etsin. Rəqs zamanı uşağın əllərinin və

ayaqlarının ritmik hərəkətlərinə nəzarət edin.

**"Gül-çiçəklə tanışlıq" oyunu.** Uşağa evdə, yaxud həyətdə bitən gülləri, çiçəkləri göstərin, onların adlarını söyləyin. "Bax, gör nə gözəl güldür?! Ətri də gözəldir. Sən onun adını bilirsən?" deyərək, uşağı həmin gülün, yaxud çiçəyin yaxınlığına gətirib, ətrini qoxladın, rəngini söyləyin. Bu zaman uşağa da həmin gülün, çiçəyin adını, rəngini, ətrinin gözəlliyini və s. deməsini təklif edib, həmin sözləri təkrar etdirin. (Bu oyunu ağac, quş, heyvan və təbiətdəki digər obyektlərə də aid edib, uşağı onlarla tanış edə bilərsiniz).

**1–2 yaşlılar (sosial və emosional hisslərin inkişafı)**

Erkən yaşlı uşaqlarda sosial, emosional hisslərin formalaşdırılması və inkişafı məqsədi ilə valideynlərə uşaqlarla aşağıdakı mövzularda oyunlar təşkil etmələri tövsiyə olunur.

**"Telefon" oyunu.** Oyuncaq telefonun dəstəklərinin birini öz qulağınıza, digərini isə uşağın qulağına tutun və onunla "telefonla" danışın. "Salam, kimdir danışan?" deyib, sonra uşağın adını çəkin. "Necəsən?", "Kiminlə oynayırsan?", "Bu gün nə yemisən?", "Evdə kim var?" və s. kimi suallar verib, cavabını alın. Elə suallar verin ki, uşaq cavab verməkdə çətinlik çəkməsin. Uşağın düzgün cavab verməsi üçün sualları bir neçə dəfə təkrar edin. Danışıb qurtardıqdan sonra isə "Sağ ol" deyib, telefonu kənara qoyun. Uşağı öyrədin ki, o da telefonu götürəndə əvvəlcə "Salam" deyib, sonra verilən sualları cavablandırsın. Söhbətin axırında isə xudahafizləşərək "Sağ ol" desin.

**"Tanışlıq" oyunu.** Oyuncaqlardan birini, məsələn, gəlinciyi əlinizə götürün və onun dili ilə gəlinciyi təqdim edib, onun haqqında 1–2 cümlə ilə məlumat verin. Sonra həmin oyuncağın dili ilə uşağa aşağıdakı məzmunda suallar verin: "Sənin adın nədir?, Atanın, ananın adı nədir?, Sənin bacın, qardaşın varmı?, Onların adları nədir?" və s. Uşağın cavablarını dinləyin, əgər cavab verməkdə çətinlik çəkərsə, cavabı özünüz deyin və ona da təkrar etdirin.

**2–3 yaşlılar (sosial və emosional hisslərin inkişafı)**

**"Sevdiyin oyuncağı gətir" oyunu.** Otaqda, uşağın dayandığı yerdən 5 – 6 metr məsafədə oyuncaqları divar boyu düzün və uşağa qaçaraq çox sevdiyi oyuncaqlardan birini gətirməyi tapşırın. Uşaq sevdiyi oyuncağı gətirdikdən sonra ona "Bu oyuncağın adı nədir?, Nə üçün bu oyuncağı sevirsən?" kimi suallar verin. Cavabları aldıqdan sonra oyunu bu qayda ilə davam etdirin və digər oyuncaqların da adlarını deməsinə şərait yaradın. Oyun zamanı qaydalara əməl olunmasına nəzarət edin.

**“Dostlarımızla paylaşaq” oyunu.** Uşağın qarşısına 2 oyuncaq qoyaraq, “Gəl dostlarımızla alma yeyək” deyin və içərisində bir alma olan boşqabı onun qarşısına qoyun. Uşağa bildirin: “Burada iki dostumuz var, amma almamız bir dənədir. Gəl almanı bölək ki, sənə də, dostlarımıza da çatsın”. Almanı bölün, dilimlərini uşağa və oyuncaqlara təqdim edin. Oyunu digər meyvə, yaxud ərzaqla davam etdirin və onları oyuncaqlarla paylaşması üçün uşağa şərait yaradın [Məmmədova K.R., 2020].

**Qeyd: Məqalədə istifadə olunan oyunların mətni müəllifə məxsusdur.**

“Adətən erkən yaşlı uşaqların inkişafı ilə əlaqədar ailələrlə aparılan görüşlər zamanı valideynləri aşağıdakı mövzular maraqlandırır:

– uşağın həyatının birinci ilində qazandığı təcrübənin onun gələcək həyatına təsiri;

– erkən yaşlı uşaqların fiziki inkişafının xüsusiyyətləri;

– erkən yaşda uşaqların xəstəlikləri və onların profilaktikası;

– kiçik yaşlı uşaqların qidalanması;

– erkən yaşlı uşaqlara nəyi və necə öyrətmək;

–inkişafetdirici oyun və oyuncaqlar;

–uşaqların bir-biri ilə ünsiyyətinin qurulması;

–uşaq şıltaqlığı;

– “çətin” uşaq;

–ailə münaqişələri və uşağın emosional inkişafı;

– uşağın hüquq və ləyaqətinin qorunması” [Şirzadova M.H., 2013].

Tədqiqatlar göstərir ki, qarşılıqlı əməkdaşlığın təşkili zamanı tərbiyəçi-müəllimlərin valideynləri yuxarıda göstərilən məsələlər barədə müəyyən qədər məlumatlandırmaları onların praktik bacarıqlara yiyələnmələrinə və ailədə uşaqlarla işi düzgün təşkil etmələrinə əhəmiyyətli dərəcədə təsir göstərir. Erkən yaşlı (1–3yaş) uşaqların ailələri ilə əməkdaşlığı aşağıdakı şərtlər əsasında təşkil etmək uşaqların inkişafına, şəxsiyyətlərinin formalaşmasına böyük təsir göstərir:

1. *Körpələr qrupunda və ailədə gün rejiminin təşkili.* Uşağın rejimə riayət etməsi onun sağlamlığını qorumaqla yanaşı, idraki inkişafına, şəxsiyyətinin formalaşmasına, bir fəaliyyət növündən digərinə yorulmadan keçməsinə, fəaliyyəti ilə istirahəti arasında sistemlilik yaranmasına, aktiv fəaliyyətlə istirahəti növbələşdirməsinə imkan yaradır.

2. *Tərbiyəçi-müəllimin, valideynlərin şəxsi nümunələri* uşağın şəxsiyyətinin formalaşmasına böyük tərbiyəvi təsir göstərir. Valideyn və tərbiyəçi-müəllimin əməkdaşlığının qarşılıqlı hörmət, səmimiyyət əsasında təşkil olunması, eyni zamanda, valideynin qrup tədbirlərində mütəmadi iştirakı uşaqda qrup fəaliyyətinə, təlimə motivasiya yaradaraq, ona stimul verir.

3. *Tərbiyəçi-müəllimin, valideynin uşaqla kommunikativ münasibətlərinin etik*

*tələblərə uyğun qurulması* uşaqda davranışın sadə elementlərinin formalaşmasına təkan verir. Onların, ilk növbədə, uşaqla aqressivlikdən uzaq normal davranışları, onun azru və tələblərinə səbrlə, hörmətlə yanaşmaları, onu dəstəkləmələri, qayğı, səmimiyyət göstərərək müsbət atmosfer yaratmaları uşaq davranışının formalaşmasına, valideynlə, tərbiyəçi-müəllimlə səmimi ünsiyyət qurmalarına, müstəqil fəaliyyət göstərmələrinə səbəb olur.

4. Ünsiyyət zamanı etik meyarlardan istifadə uşaqların nitqinin, ünsiyyətinin, davranışının düzgün formalaşmasının əsasını qoyur. Belə ki, uşağın valideyn və tərbiyəçi-müəllimlərdən mütəmadi olaraq eşitdiyi "salam", "sağ ol", "çox sağ ol", "bağışla" və s. etik ifadələr onun nitqində yer alır və ünsiyyət zamanı həmin ifadələri asanlıqla nümayiş etdirir.

5. *Uşağın danışığında nitq etiketlərinin məşq və təkrarlama yolu ilə möhkəmləndirilməsi* uşaqların mədəni ünsiyyət vərdişlərinə yiyələnmələrinin ən yaxşı yoludur. Oyun, yaxud digər fəaliyyətlər zamanı təkrarlamalar və məşqlər etik meyarların asanlıqla uşaqların bacarıqlarına çevrilməsini təmin edir [Məmmədova K.R., 2020].

## Nəticə / Conclusion

Araşdırmalardan belə nəticəyə gəlirik ki, erkən yaşlı uşaqların ümumi inkişafı üzrə işin tərbiyəçi-müəllim – valideyn əməkdaşlığı əsasında təşkili bu istiqamətdəki fəaliyyətin səmərəliliyinə zəmin yaradır. Qeyd olunur ki, erkən yaşlı uşaqların ailələri ilə qarşılıqlı əməkdaşlığın kommunikativlik, humanist münasibətlər, fərdiləşdirmə, inkişafyönümlülük, dəstəkləyici mühitin təşkili, stimullaşdırma prinsipləri əsasında təşkili işin səmərəliliyini artırır.

Erkən yaşlı uşaqların inkişafı üzrə işin təşkilində tərbiyəçi-müəllim və valideyn əməkdaşlığının əhəmiyyətindən bəhs olunur. Qeyd olunur ki, erkən yaş dövründə (1–3 yaş) uşaq orqanizmində intensiv psixoloji və fizioloji dəyişikliklər müşahidə olunur və bu, öz növbəsində bu istiqamətdə aparılan işin ailədə sistemli təşkil olunmasına ehtiyac yaradır.

Həmçinin məqalədə 1–2 yaş, 2–3 yaşlılar üçün sosial və emosional hisslərin inkişafı, estetik bacarlıqların inkişafı, motor bacarıqlarının inkişafı, nitq inkişafı, idraki və fiziki inkişafa dair oyunlar təqdim olunur.

Qeyd olunur ki, erkən yaşlı (1–3 yaş) uşaqların ailələri ilə əməkdaşlığı aşağıdakı şərtlər əsasında (uşağın danışığında nitq etiketlərinin məşq və təkrarlama yolu ilə möhkəmləndirilməsi, ünsiyyət zamanı etik meyarlardan istifadə, tərbiyəçi-müəllimin, valideynin uşaqla kommunikativ münasibətlərinin etik tələblərə uyğun qurulması, tərbiyəçi-müəllimin, valideynlərin şəxsi nümunələri, körpələr qrupunda və ailədə gün rejimi) təşkil etmək uşaqların inkişafına, şəxsiyyətlərinin

formalaşmasına müsbət təsir göstərir. Bütün bunlar məqalədə erkən yaşlılara aid müxtəlif oyunlarla təsbit olunur.

**Problemin aktuallığı.** Uşaqların ümumi inkişafına xidmət edən oyunların, metodların tətbiqinin əhəmiyyəti, icra texnikası ilə bağlı tərbiyəçi-müəllimlərin valideynlərə tövsiyələr etmələri, bununla bağlı davamlı maarifləndirmə işləri aparmaları inkişafın birtərəfli deyil, ailə ilə paralel həyata keçirilməsinə şərait yaradır. Bu isə, öz növbəsində, uşaqların körpələr qrupunda yiyələndikləri elementar bilikləri ailədə davamlı şəkildə təkrar etmələrinə və bacarıqlara çevirmələrinə səbəb olur.

**Problemin elmi yeniliyi.** Erkən yaşlı uşaqlarda sosial, emosional hisslərin formalaşdırılması və inkişafı məqsədi ilə valideynlərə uşaqlarla fiziki inkişaf, idraki inkişaf, nitq inkişafı, motor bacarıqlarının, estetik bacarlıqların, sosial və emosional hisslərin inkişafı mövzularında oyunlar təşkil etmələri tövsiyə olunur. Bütün bunlarla yanaşı, valideynlərin, tərbiyəçi-müəllimlərin bir-biri ilə və uşaqla qarşılıqlı əməkdaşlığı, ərtafdakılarla münasibətləri, ünsiyyətləri də uşağın davranışına, şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

**Problemin praktik əhəmiyyəti.** Uşağa göstərilən münasibətin onun davranışına çevrilməsini nəzərə alaraq, hər bir valideyn və tərbiyəçi-müəllimin bir-biri ilə, ətrafdakılarla, ilk növbədə, uşağın özü ilə münasibətlərini etik meyarlara uyğun qurmaları, davranışlarına daim nəzarət etmələri işin təşkilində nəticəyönümlülüyü təmin edir.

## İstifadə edilmiş ədəbiyyat / References


1. «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı»-nın təsdiq edilməsi haqqında AR Nazirlər Kabinetinin 8 avqust, 2019-cu il tarixli, 351 №-li qərarı.
2. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 14 aprel, 2017-ci il, səh. 6.
3. Məktəbəqədər təhsilin yeni məzmunu və onun tətbiqi məsələləri. AR TN Təhsil İnstitutu. Bakı: “Mütərcim”, 2018, 184 səh.
4. Məktəbəqədər təhsilin kurikulumu. (2020). Bakı, 2020, 124 s.
5. Məmmədova K.R. (2020). Körpələr qrupunda uşaqların erkən inkişafı üzrə praktik metodik komplekslər. (valideynlər üçün metodik tövsiyə) (tədqiqat işi). AR TN Təhsil İnstitutu. Bakı, 77 səh.
6. Məmmədova K. (2011). Oyun uşaq şəxsiyyətinin inkişaf vasitəsi kimi. //«Məktəbəqədər və ibtidai təhsil»//, №1.
7. Məmmədova K. (2021). Şeir və tapmaca çələngi (1-6 yaşlı uşaqlar üçün).

Bakı: ADPU  nəşriyyatı, 66 s.
8. Həsənov A. (2007). Məktəbəqədər pedaqogika. Bakı: «Nasir», 312 s.
9. Kərimov Y. (1997). Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: «MMC» poliqrafiya istehsal firması, 216 s.
10. Sadıqova T.B., Həsənova S.H., Məmmədova K.R. (2012). Uşaq bağçasının ailə ilə birgə işi. Bakı: «Nasir», 101 s.
11. Şirzadova. M.H. Erkən yaş dövründə uşaqların tərbiyəsi. Bakı, ADİL-OĞLU, 2013, 172 səh.
12. «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanunu. 19 iyun, 2009.
13. Alyabyeva Ye.A. (2003). Nravstvenno-eticheskie besedı i iqrı s doshkolnikami [tekst] / Ye.A. Alyabyeva Moskva.
14. Blinova L.F. (2007). Sosialno-liçhnostnıe razvitie detey starsheqo doshkolnoqo vozrasta. Kazan.
15. Danilina T.A. (2004). Sosialnoe partnerstvo pedaqoqov, detey i roditeley.[tekst] /T.A Danilina, N.M. Stepina/. Moskva.
16. Kolomiychenko L.V. (2002). Konsepsiya i proqramma sosialnoqo razvitiya detey doshkolnoqo vozrasta. Perm.
17. Komratova N.Q. (2005). Sosialno-nravstvennoe vospitanie detey. N.Q. Komratova, L.F. Qribova. Moskva.
18. https://www.google.com/search?q=Speech+development+games
19. https://www.education.vic.gov.au/Paces
20. https://kidshealth.org/en/parents/comm-2-to-3.html

# A NEW SIGHT AT THE SCIENTIFIC AND PEDAGOGICAL HERITAGE OF PROFESSOR YAHYA KARIMOV

**Kaklik Mammadova**
Ministry of Education of the Republic of Azerbaijan,
Department editor of the journal "Preschool and primary education"
E-mail: seher1960@mail.ru
https://orcid.org/0000-0002-3892-5899

**Abstract.** The article talks about the life and work, scientific and pedagogical activity of Yahya Shafi oglu Karimov, a full member of the International Academy of Pedagogy, editor-in-chief of the journal "Preschool and Primary Education", Doctor of Pedagogical Sciences, Professor. Although he was accepted to university during the war, he was unable to continue his education due to his difficult family situation. After the victory, in 1946, he was admitted to the Faculty of Philology of ASPI. Even during his student years, his interest in scientific work and research was felt. This interest brought him to the full-time postgraduate department of the Azerbaijan State Pedagogical Institute in 1955. The article notes that the scientist, who devoted his entire life to pedagogical research and pedagogical activity, did not resign until the end of his life.
**Keywords:** Yahya Karimov, pedagogical research, didactics, methodology, preschool education, primary education, textbook, journal, editor-in-chief

**To cite this article:** Mammadova K. (2021) A new sight at the scientific and pedagogical heritage of professor Yahya Karimov. *Journal of Preschool and Primary Education*, V.236, İssue III, pp. 55-67
**Article history:** Received – 08.09.2021; Accepted – 15.09.2021.

# PROFESSOR YƏHYA KƏRİMOVUN ELMİ-PEDAQOJİ İRSİNƏ YENİ BAXIŞ

**Kəklik Məmmədova**
Azərbaycan Respublikasının Təhsil Nazirliyi,
"Məktəbəqədər və ibtidai təhsil" jurnalının şöbə redaktoru
E-mail: seher1960@mail.ru
https://orcid.org/0000-0002-3892-5899

**Annotasiya.** Məqalədə Azərbaycanda təhsil və pedaqoji fikrin tarixində xüsusi yeri olan, Beynəlxalq Pedaqogika Akademiyasının həqiqi üzvü, uzun illər Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda məsul vəzifələr daşımış, "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalının baş redaktoru olmuş, pedaqoji elmlər doktoru, professor Yəhya Şəfi oğlu Kərimovun həyat və yaradıcılığından, pedaqoji kadr hazırlığı, eləcə də elmi-pedaqoji fəaliyyətindən, tədqiqatlarının elmi-nəzəri əsaslarından, onların təcrübi əhəmiyyətindən söhbət gedir. Qeyd olunur ki, Y.Kərimov Böyük Vətən müharibəsi illərində ali məktəbə qəbul olunsa da, ailə vəziyyəti ağır olduğu üçün təhsilini davam etdirə bilmir. Qələbədən sonra, 1946-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə qəbul olunur. Elmə, pedaqoji tədqiqatlara olan marağı onu 1955-ci ildə Azərbaycan Dövlət Pedaqogika İnstitutunun aspiranturasının əyani şöbəsinə gətirir. Məqalədə vurğulanır ki, bütün ömrünü pedaqoji araşdırmalara, elmi fəaliyyətə həsr edən alim ömrünün sonuna qədər işdən qalmamış, tədqiqatları ilə pedaqogika elminin zənginləşməsinə xidmət etmişdir. Məqalədə professor Yəhya Kərimovun əlifba yaradıcılığı sahəsindəki fəaliyyətinə xüsusi diqqət yetirilir, alimin bu istiqamətdəki işləri ardıcıllıqla təhlilə cəlb edilir.
**Açar sözlər:** Yəhya Kərimov, pedaqoji tədqiqatlar, didaktika, metodika, məktəbəqədər təhsil, ibtidai təhsil, dərslik, jurnal, baş redaktor.

**Məqaləyə istinad:** Məmmədova K.(2021) Professor Yəhya Kərimovun elmi-pedaqoji irsinə yeni baxış. "*Məktəbəqədər və ibtidai təhsil*", № 3 (236), səh. 55-67
**Məqalə tarixçəsi:** göndərilib – 08.09.2021; qəbul edilib – 15.09.2021.

## Giriş / Introduction

Azərbaycanda təhsil və pedaqoji fikrin çox qədim, zəngin tarixi vardır. Şifahi xalq ədəbiyyatı nümunələrində, xalq deyimlərində, bədii ədəbiyyatda, tarixi, arxeoloji, etnoqrafik, etnopedaqoji, dini, fəlsəfi, psixoloji və digər mənbələrdə bu barədə kifayət qədər məlumatlar, faktlar mövcuddur. Qeyd etməliyik ki, Azərbaycanın məktəb və pedaqoji fikir tarixi, bu sahədə olan problemlər haqqında sistemli şəkildə tədqiqatlar aparılmasına diqqət yetirilmədiyindən, bu sahə tam tədqiq olunmamışdır, lakin müəyyən əhəmiyyətli işlər görülmüşdür.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixində professional elmi tədqiqatların aparılmasına XX əsrin 30-cu illərində başlanmışdır. Bu sahədə elmi-pedaqoji kadr hazırlığının ilk nümayəndələri olan Əhməd Seyidov, Əhməd Kərədi Zəkizadə, Mərdan Muradxanov, Mehdi Mehdizadəni qeyd etmək olar. Bu görkəmli şəxsiyyətlər sonrakı illərdə də peşəkar kadrların hazırlanmasında mühüm rol oynamışlar.

Ciddi elmi tədqiqat işləri meydana çıxdıqca Azərbaycanda pedaqogika tarixi elmi də formalaşmış, onun obyekti, predmeti, vəzifələri, prinsip və metodları, qanunauyğunluqları, tarixi dövrlər üzrə inkişaf dinamikası və s. xüsusiyyətləri müəyyənləşmişdir. Bu elm sahəsi, qədim dövrlərdən başlayaraq, tərbiyə, təhsil, təlim problemlərini, görkəmli maarifpərvər şəxsiyyətlərin, elm xadimlərinin, filosofların, pedaqoqların pedaqoji görüşlərini, fəaliyyətini tədqiq edir, nəzəri və praktik əhəmiyyətli ideyaları ümumiləşdirir, dövrün elmi-pedaqoji mənzərəsini canlandırır. Bu elmi araşdırmada görkəmli pedaqoq, professor Yəhya Kərimovun elmi-pedaqoji irsinə, onun çağdaş pedaqoji fikrimizin inkişafında oynadığı rola aydınlıq gətirməyə çalışacağıq.

## Əsas hissə / Main Part

Azərbaycanda pedaqoji elmin, pedaqoji kadr hazırlığının, əlifba yaradıcılığının, elmi-pedaqoji mətbuatın inkişafında müstəsna xidmətləri olan Yəhya Kərimov 1927-ci il, aprel ayının 5-də, Qax rayonunun (o vaxtkı Nuxa qəzası) İlisu kəndində anadan olmuşdur. Hələ Qax-Muğal orta məktəbinin yuxarı siniflərində oxuyarkən ehtiyac olanda müəllimləri əvəz edir və uşaq qurumu olan pioner təşkilatında pioner baş dəstə rəhbəri işləyirdi. Elə o vaxtdan da onda müəllim peşəsinə dərin maraq oyanmağa başladı.

Yəhya Kərimov 1944-cü ildə Azərbaycan Dövlət Sənaye İnstitutunun neft sənayesi fakültəsinə qəbul olunur, lakin müharibə dövründə ailə vəziyyəti ağır

olduğu üçün təhsilini dayandırmalı olur. İki il (1944–1945) Qax rayonundakı 1 nömrəli uşaq evində pioner baş dəstə rəhbəri, tərbiyəçi vəzifələrində işləyir.

1946–1950-ci illərdə V.İ.Lenin adına APİ-nin (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil alıb. Tələbəlik illərində institut komsomol komitəsinin büro üzvü, divar qəzetinin redaktoru olub. 1950–1955-ci illərdə Quba Dövlət Müəllimlər İnstitutunda, Qazax Dövlət Müəllimlər İnstitutunda, H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universitetinin) Şəki filialında baş müəllim işləmişdir.

1955-ci ildə Y.Kərimov Azərbaycan Dövlət Pedaqogika İnstitutunun aspiranturasının əyani şöbəsinə qəbul olunub və professor Ə.Dəmirçizadənin rəhbərliyi altında namizədlik dissertasiyası üzərində işləməyə başlayıb. 1958-ci ildə aspiranturanı müvəffəqiyyətlə bitirib və institutda kiçik elmi işçi vəzifəsində saxlanılıb. 1961-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (ETPEİ-də) yenicə yaradılmış ibtidai təlim və məktəbəqədər tərbiyə şöbəsinin müdiri vəzifəsinə təyin olunub. Müxtəlif illərdə ibtidai siniflər üçün "Yazı nümunələri", "Əlifba", "Müşahidə gündəliyi", "İlk addımlar", "Ana dili", "Azərbaycan dili", "Oxu", "Qönçə", "Hüsnxət", Cənubi Azərbaycan məktəbləri üçün "Əlifba", "Musiqi", Azərbaycandakı rus, gürcü ibtidai məktəbləri üçün "Azbuka", "Deda ena", "Çtenie" dərslik və dərs vəsaitlərinin müəllifi olub.

1962-ci ildə APİ-nin müdafiə şurasında "İbtidai sinif şagirdlərinin nitqindəki yerli şivə xüsusiyyətləri və onların aradan qaldırılması yolları" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. 1964-cü ildə üçillik ibtidai təlimə keçirilməsi üzrə eksperimental tədqiqata başlayıb. 1971-ci ildə üçillik təlim sistemini müvəffəqiyyətlə hazırlayıb həyata keçirdiyinə görə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunub. 1970-ci ildə yeni təsis olunmuş "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsinin (indiki "Məktəbəqədər və ibtidai təhsil" jurnalı) baş redaktoru, 1973-ci ildə Azərbaycan SSR Maarif Nazirliyi nəzdində ibtidai təlim üzrə elmi-metodik şuranın sədri təyin olunub. 1975-ci ildə S.M.Kirov adına ADU-da (indiki Bakı Dövlət Universiteti) "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Görkəmli pedaqoq-alim 1979-cu ildə "Əlifba" dərsliyinə görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı olub. O, 1981–1991-ci illərdə Respublika Pedaqoji və Psixoloji Tədqiqatları Əlaqələndirmə Şurasının ibtidai təlim bölməsinə rəhbərlik edib. 1981-ci ildə isə Azərbaycan SSR EA Terminologiya Komitəsində ibtidai təlim bölməsinin sədri təyin olunub. Yəhya Kərimov 1984–1987-ci illərdə Azərbaycan ETPEİ-nin direktoru vəzifəsində işləyib. 1987–1990-cı illərdə Altın Sarın adına Qazaxıstan ETPEİ-də təşkil olunmuş ixtisaslaşdırılmış müdafiə şurasının üzvü kimi fəaliyyət göstərib. O, 1990-cı ildə Azərbaycan Res-

publikasının Əməkdar müəllimi adına layiq görülüb. 1992-ci ildə isə görkəmli alim elmi-pedaqoji sahədəki fundamental tədqiqatlarına görə Akademik M.Mehdizadə mükafatı ilə təltif edilib. 1996–2006-cı illərdə Türkiyədə (dörd dəfə), Rusiyada, İsveçdə, İsraildə, Latviyada, Hollandiyada, İngiltərədə işgüzar səfərlərdə olan alim xarici təcrübə ilə yaxından maraqlanıb, qabaqcıl təcrübənin Azərbaycan təhsilində tətbiqi istiqamətləri ilə bağlı maraqlı elmi məqalələr, əsaslı təkliflərlə çıxış edib. Y.Kərimov 2000-ci ildə Təhsil Problemləri İnstitutunun elmi bölməsi üzrə direktor müavini təyin edilib. Elmi araşdırmaları ilə dünyada tanınan alim 2002-ci ildə Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilib. 2006-cı ildə "Şöhrət" ordeni ilə təltif olunub. Yəhya Kərimov 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Yəhya Kərimov 60-dan artıq elmlər namizədi, 3 elmlər doktoru yetişdirmişdir. O, "Savad təlimi", "İbtidai siniflərdə inşalar", "Altıyaşlıların məktəbə hazırlanmasının nəzəri və praktik problemləri", "Əlifba dərsliyinin tərtibi prinsipləri", "Uşaq məktəbə gedir", "Ana dilinin tədrisi metodikası" və bir sıra digər əsərlərin müəllifi, 1959-cu ildən indiyə qədər ibtidai siniflər üçün ana dili proqramlarının tərtibçisi, bütün proqramların redaktorudur. Hazırda onun tərtib etdiyi 6 dərslik və 5 dərs vəsaitindən, ali məktəblərdə isə "İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası" dərsliyindən istifadə olunur. Ömrünün son illərində bütün əsərləri "Seçilmiş əsərlər" adı altında, on cilddə toplanaraq nəşr olunmuşdur.

Professor Yəhya Kərimov 1963-cü ildən son illərədək Azərbaycanda "Əlifba" dərsliyinin müəllifi olmuşdur. Bir çox onilliklər ərzində məktəblilər onun əlifba dərslikləri ilə savad təlimi almışlar. Pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov yazır: "Keçən əsrin 60-cı illərinin əvvəllərindən bu günə kimi I sinfə qədəm qoyan azərbaycanlı balalar məhz onun "Əlifba"sı ilə analarının dillərini öyrəniblər. Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstanda yaşayan azərbaycanlıların yüz minlərlə uşağının əlinə aldığı ilk kitab məhz Y.Kərimovun "Əlifba" dərsliyi olub. Bundan böyük xoşbəxtlik olarmı?" [F. Rüstəmov, 2010].

Yəhya müəllim özü "Əlifba" dərsliyi haqqında belə yazırdı: "İlk baxışda adama elə gəlir ki, "Əlifba" dərsliyi yaratmaq, hər bir dərs üçün bir neçə söz və kiçik mətndən ibarət material vermək o qədər də çətin iş deyil. Əslində isə ana dili dərslikləri içərisində ən mürəkkəbi, ən çətini məhz "Əlifba"dır. Körpə balalarımızın, müəllimlərin, alim, metodist, maarif işçisi və valideynlərin zövqünü oxşayacaq "Əlifba" dərsliyinin yaradılması ciddi problemdir" [VI cild, s.48.]

Professor Yəhya Kərimov "Əlifba" dərsliyinin tərtibi prinsiplərindən danışarkən elmilik, ideyalılıq, didaktik, metodik aparat, dərsliyin quruluşu və tərtibatı, müvafiqlik prinsiplərinə xüsusi diqqət yetirilməsini, dərslikdə şəhər və kənd məktəblərində şagirdlərin ümumi hazırlığının nəzərə alınmasını tövsiyə edirdi. Bununla belə, bu prinsiplərin ehkam olmadığını, tənqidçilərin və dərslik müəl-

liflərinin onları zənginləşdirə biləcəklərini ehtimal edərək yazırdı: “Oxuculara təqdim olunan prinsiplərdə, şübhəsiz, bəzi nöqsanlara, qeyri-dəqiqliklərə yol verilmişdir. Bu baxımdan prinsiplər dəqiqləşməyə və tamamlanmağa məruz qala bilər. Yəqin ki, tənqidçilər və dərslik tərtib edən müəlliflər bu prinsipləri öz mülahizələri və mühakimələri ilə zənginləşdirəcəklər” [VI cild, s. 50].

2013-cü ildə “İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası”nın yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri çapdan çıxdı. Kitab ibtidai təhsil fakültəsi tələbələrinin öyrənmə mənbəyinə çevrildi, təkrar nəşr olundu. 551 səhifədən ibarət olan bu kitab ibtidai siniflərdə Azərbaycan dili tədrisinin bütün problemlərini əhatə edir. Kitab “Ön söz” və 8 fəsildən ibarətdir.

I fəsil “Azərbaycan dilinin tədrisi metodikasının ümumi məsələləri” adlanır. Bu fəsildə Azərbaycan dilinin tədrisi metodikası fənninin məqsəd və vəzifələri işıqlandırılır, bir elm kimi dəyərləndirilir, onun digər elm sahələri ilə əlaqəsi araşdırılır. Azərbaycan dilinin tədrisi metodikası fənninin mənbələri tədqiq olunur, doğma dilin tədrisi prosesində hansı pedaqoji tədqiqat metodlarından istifadə edilməsinin üstünlükləri tədqiqata cəlb olunur.

II fəsil “Azərbaycan dilinin tədrisi metodikasının tarixinə qısa bir nəzər” adlanır. Bu fəsildə XX əsrin əvvəllərinə qədər Azərbaycanda ana dili tədrisinin vəziyyəti, onun inkişaf yolları tədqiq olunur. Xalq Cümhuriyyəti dövründə, 1920–1931-ci illərdə, 1932–1957-ci illərdə, 1958–1969-cu illərdə, 1970-ci ildən sonra Azərbaycan dilinin tədrisi metodikasının inkişafı problemləri tədqiq olunur.

III fəsil “Azərbaycan dilinin tədrisi metodikasının didaktik əsasları” adlanır. Bu fəsildə Azərbaycan dili tədrisi metodikasının məzmunu, prinsipləri, Azərbaycan dili proqramlarının tərtibi prinsipləri, Azərbaycan dili dərslikləri və onların tərtibi prinsipləri, “Əlifba”, “Oxu”, “Azərbaycan dili” dərslikləri, onların tərtibinə verilən tələblər tədqiq olunur.

IV fəsil kitabın ən iri həcmli fəsillərindən biri olub, “Savad təliminin metodikası” adlanır. Bu fəsildə savad təliminin məqsəd və vəzifələri, tarixi, heca metodu, səs metodu, bütöv sözlər metodu, səs təhlil-tərkib priyomları və metodu, səs və hərflərin öyrədilməsinin nümunəvi planı, əlifba təliminə hazırlıq dövrü, əlifba təliminin mərhələləri, savad təlimi dövründə istifadə olunan əyani vəsaitlər, didaktik materiallar və bir çox digər mövzular əhatə olunur.

V fəsil “Oxu təliminin metodikası” adlanır. Bu fəsildə oxu təliminin məqsəd və vəzifələri, metod və priyomları, oxu materiallarının xarakteri və tematikası, müxtəlif janrlarda olan bədii əsərlərin (hekayə, nağıl, şeir, təmsil, elmi-kütləvi mətn və s.) oxunması, oxu dərslərində əyanilik, şagirdlərin müstəqil işləri və digər problemlər şərh olunur.

VI fəsil qrammatikanın tədrisi metodikası problemlərinə həsr olunub. Bu fəsildə qrammatika tədrisinin məqsəd və vəzifələri, metod və priyomları, qram-

matik təhlil, şagirdlərdə sadə qrammatik anlayışların formalaşdırılması, fonetika, morfologiya və sintaksisin tədrisi metodikasına dair mövzular əhatə olunur, qrammatika dərslərinin təşkili, tədrisdə əyanilik, qrammatik biliklərin hesaba alınması və qiymətləndirilməsi məsələləri təhlil edilir.

VII fəsildə orfoqrafiya təliminin metodikası məsələlərindən bəhs olunur, orfoqrafiya təliminin məqsəd və vəzifələri, Azərbaycan dili orfoqrafiyasının prinsipləri şərh edilir. Bu fəsildə orfoqrafiya təliminə verilən tələblər, orfoqrafik çalışmaların xarakteri, yazılışı çətin olan sözlər üzərində işin təşkili, yazılı çalışmaların növləri, orfoqrafik təhlil, yazılarda aparılan düzəlişlər, səhvlərin xarakteri və onların başvermə səbəbləri, hesaba alınması, yazı işlərinin qiymətləndirilməsi, səhvlər üzərində işə həsr olunmuş məşğələlərin keçirilməsi və s. problemlər təhlil olunur.

VIII – sonuncu fəsil həcmcə ən boyük (120 səhifə) fəsildir və "Nitq inkişafı üzrə işin metodikası" adlanır. Bu fəsildə nitq inkişafı üzrə aparılan işin məqsəd və vəzifələri, mənbələri, elmi əsasları, linqvistik, psixoloji, didaktik əsasları tədqiq olunur. Bunlardan əlavə, nitqin növləri, səs mədəniyyəti, ədəbi tələffüz, lüğət üzrə işin təşkili (lüğət ehtiyatının zənginləşdirilməsi, dəqiqləşdirilməsi, təmizliyi, fəallaşdırılması və s.) geniş təhlilə cəlb edilir. Həmçinin bu fəsildə rabitəli nitqin inkişafı, ifadə təlimi, inşa təlimi, əməli yazılar, onların növləri, səhvlər üzərində işin təşkili, yazı işlərinin qiymətləndirilməsi məsələləri əhatə olunmuşdur.

Professor Yəhya Kərimov məktəbəqədər tərbiyə sahəsində də tədqiqatlar aparmış və onların nəticələrini bir neçə kitabda cəmləşdirmişdir. Onun "Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası" adlı irihəcmli əsəri hələ də tərbiyəçi-müəllimlərin stolüstü kitabıdır. O, körpə balalar üçün "İlk addımlar", "Qönçə" kimi irihəcmli məşğələ vəsaitləri də yaratmışdır.

Azərbaycan Respublikasının sabiq təhsil naziri, pedaqoji elmlər doktoru, professor, SSRİ PEA-nın akademiki Mehdi Mehdizadə SSRİ ali və orta ixtisas təhsili naziri V.P.Yelyutinə məktubunda Yəhya müəllim haqqında belə yazırdı: "Я.Ш.Керимов является ведущим методистом в области преподавания азербайджанского языка в начальной школе. Он автор книг «Методика преподавания азербайджанского языка в начальных классах», «Словарная работа в начальных классах», «Особенности словарного запаса учащихся I–II классов», «Система сочинений в начальных классах», «Система орфографических упражнений в начальных классах», «Обучение грамоте», «Предворительные итоги преподавания родного языка в начальных классах по новой программе» и другие" [M. Mehdizadə, 2013]. – "Y.Ş. Kərimov ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi sahəsində aparıcı metodistdir. O, "İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası", "İbtidai siniflərdə lüğət işi", "I–II siniflərdə şagirdlərin lüğət ehtiyatının xüsusiyyətləri", "İbtidai sinif-

lərdə inşa yazıların sistemi", "İbtidai siniflərdə orfoqrafik tapşırıqlar sistemi", " Savad təlimi","İbtidai siniflərdə yeni proqram üzrə ana dilinin tədrisinin ilkin nəticələri" və s. kitabların müəllifidir". [tərc. edən – K.M.].

ARTPİ-nin şöbə müdiri, Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor Vidadi Xəlilov: "Y.Kərimov keçmiş SSRİ məkanında, ayrı-ayrı respublikalarda, qardaş Türkiyədə, İranda yaxşı tanınır. 1977-ci ildə, institutda yeni yaranan estetik tərbiyə şöbəsinə müdir vəzifəsinə seçiləndən sonra SSRİ PEA Estetik tərbiyə üzrə elmi-problem şurasının üzvü kimi Pribaltika, Ukrayna, Belorusiya, Moldaviya, Qazaxıstan, Özbəkistan, Türkmənistan və digər respublikalara elmi ezamiyyətlər zamanı görmüşəm ki, professor Yəhya Kərimovu həmin yerlərdə tanıyır və xətrini çox istəyirlər. Hətta özünün olmadığı məclislərdə də həmişə ondan söhbət açır və ona salam göndərirlər. Uzun müddət Türkmənistan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda ibtidai təlim şöbəsinin müdiri işləmiş, mərhum İqlım Seyisov deyirdi ki, Yəhya ağa bütün ittifaq tədbirlərinin yaraşığı, ən fəal iştirakçısıdır, sayılan, öz dəsti-xətti ilə tanınan alimdir" [V. Xəlilov, 1997].

ARTPİ-nin elmi katibi, Əməkdar müəllim, pedaqoji elmlər doktoru, professor Akif Abbasov professor Yəhya Kərimovu belə xarakterizə edir: "Bu bir həqiqətdir ki, hər saçı, saqqalı ağ olana "ağsaqqal" demirlər. Ağsaqqal öz davranışı, elmi, əməlləri, xeyirxahlığı, ağıllı məsləhətləri ilə seçilir. Mən 1975-ci ildən bu günə kimi Yəhya müəllimi belə ağsaqqal, görkəmli alim kimi görmüş, qiymətləndirmiş, sevmiş və ondan çox şey öyrənmişəm" [A. Abbasov, 2007].

Professor Y.Ş.Kərimovun elmi-pedaqoji fəaliyyətində mühüm yer tutan bir məqam da "Məktəbəqədər və ibtidai təhsil" (əvvəlki "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi) jurnalıdır.

XX əsrin 60-cı illərində Yəhya müəllim tez-tez mətbuatda çıxışlar edir, ibtidai məktəb müəllimləri üçün metodik məcmuənin çap olunmasının zəruriliyini əsaslandırmağa çalışırdı. 1969-cu ildə "Azərbaycan məktəbi" jurnalı Mərkəzi Komitə tərəfindən yoxlanılırdı. Komissiyanın üzvlərindən biri də Yəhya Kərimov idi. Yoxlamanın nəticələri Mərkəzi Komitədə müzakirə olunanda akademik Mehdi Mehdizadə də həmin iclasda iştirak edirdi. Yəhya müəllim öz çıxışında üçillik ibtidai təlimə başlanıldığı bir dövrdə müəllimlərə kömək edə biləcək bir pedaqoji mətbu orqanın yaradılmasının vacibliyini əsaslandırırdı. Mehdi Mehdizadə bu fikri müdafiə etdi. Mərkəzi Komitənin şöbə müdirinin müavini Kəmalə Abdullayeva Mehdi müəllimdən kimin redaktor olacağını xəbər aldı. Mehdi müəllim tərəddüd etmədən Yəhya müəllimin adını çəkdi. Elə oradaca "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsinin nəşrinə dair qərar verildi və onun redaktorluğu Yəhya Kərimova tapşırıldı. Məcmuə iki aydan bir, 6 çap vərəqi həcmində çap olunurdu. Bu məcmuə məktəb haqqında qanun və is-

lahatlarla əlaqədar müəllim və tərbiyəçilərə istiqamət verir, onun səhifələrində qabaqcıl pedaqoqların məqalələri dərc olunurdu.

Prof.Yəhya Kərimov 1990-cı ildə, məcmuənin 20 illiyi münasibətilə yazırdı: "Bu illər ərzində məcmuə ölkəmizin digər regionları ilə də əlaqə saxlamış və öz səhifələrində görkəmli alimlərin çıxışlarını təşkil etmişdir. Akademiklərdən A.Zaporojets, A.Pışkalo, (Moskva), M.Moro, Ş.Amonaşvili (Tbilisi), həmçinin tanınmış mütəxəssislərdən L.Venger, V.Strekozin, A.Pçyolka, N.Vetluqina, T.Komarova, V.Krivoşeyev (Moskva), A.Şevçenko (Kiyev) və başqalarını misal göstərmək olar" [Y.Kərimov, IX cild, 2013].

Fəaliyyəti ərzində jurnal "Ümumpedaqoji problemlər", "Məktəbəqədər təhsil", Fənlərin tədrisi və qabaqcıl təcrübə", "Psixologiya, yaş fiziologiyası və inklüziv təhsil", "Tərbiyə məsələləri", "Sizin şəxsi təhsiliniz", "Psixologiya və defektologiya", "Suallara cavablar", "Yeni nəşrlər" və s. rubrikaları ilə oxucuların görüşünə gəlib. Professor Yəhya Kərimov 1970-ci ildən ömrünün son günlərinə kimi "Məktəbəqədər və ibtidai təhsil" jurnalının baş redaktoru olmuşdur.

Azərbaycan KP MK-nın sabiq birinci katibi, respublika Ağsaqqallar Şurasının sədri, akademik İmam Mustafayev Yəhya müəllim haqqında belə deyirdi: "Yuxarıda təsvir etdiyim kök üstündə əsrimizin ortalarında yeni bir görkəmli pedaqoq – təhsil sisteminin bünövrəsi olan ibtidai məktəbin bilicisi, fədaisi Yəhya Şəfi oğlu Kərimov meydana çıxdı, ibtidai təhsilin ustadı kimi formalaşdı. Bu gün yaradıcı fəaliyyətinin müdriklik dövrünü haqlamış Yəhya Kərimov öz sələflərinin şərəfli yolunu inamla, ilhamla, xüsusi yaradıcılıq qabiliyyəti ilə davam etdirir" [İ. Mustafayev, 1997].

AR-nın sabiq təhsil naziri, filologiya elmləri doktoru, AMEA-nın müxbir üzvü, professor Tofiq Hacıyev Yəhya müəllimi belə xarakterizə edirdi: "Həmişə Yəhyanın əlində haqq bayrağı olub. Pedaqoji, metodik məntiq pozulanda, dərsliklər elmsizləşəndə, iki dənə məşhur dördayaqlının yemini bölə bilməyənlər pedaqojiyə yol tapanda və hələ bu azdır – onlar yüksək ixtisaslı adamlara "dərs verəndə", Yəhya dözə bilmir, dillənir. Bu dözümsüzlüyün nəyi pisdir? Biz indi belə dözümsüzlərin azlığından əziyyət çəkirik. Kaş bu Yəhya dözümsüzlüyü cəmiyyətimizdə bir rəng olub yayılaydı..." [T. Hacıyev, 1997].

Azərbaycan Respublikasının sabiq təhsil naziri Lidiya Rəsulova: " Yəhya müəllim ibtidai məktəbdə təlim və tərbiyə işlərinin yaxşılaşdırılması və təkmilləşdirilməsi sahəsində həmişə axtarışda olub, praktikadan nəzəriyyəyə, nəzəriyyədən praktikaya aparan uzun yolun işığı on minlərlə müəllimin zəkasını nurlandırıb, təhsilimizə göstərdiyi xidmətlərin əvəzsiz olduğu bir daha təsdiq edilib [L. Rəsulova, 1977].

Azərbaycan Respublikasının sabiq təhsil naziri, riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov prof. Yəhya Kərimov haqqında belə deyirdi: "Azər-

baycan xalqının, o cümlədən, ziyalıların böyük əksəriyyətinin üzərində prof. Yəhya Kərimovun haqqı var. Bu haqqı ona 60 illik pedaqoji fəaliyyəti və yaşı 40-ı keçmiş "Əlifba" dərsliyi, həmçinin "Ana dili", "Oxu", "Azərbaycan dili" dərslikləri verib" [Y.Kərimov, "Seçilmiş əsərləri", 2013].

ARTPİ-nin sabiq direktoru, fizika-riyaziyyat elmləi doktoru, Rusiya Təhsil Akademiyasının xarici üzvü, mərhum professor Abdulla Mehrabov onun haqqında belə deyirdi: "Prof. Y.Kərimov ibtidai təhsil sahəsində respublikamızda ilk tədqiqatları aparan və onu elmi-nəzəri əsaslar üzərində quran yenilikçi bir alimdir. Respublikamızda təhsil sahəsində aparılan kütləvi eksperimentlərin təşəbbüskarı və rəhbəri prof. Yəhya Kərimov olmuşdur. 1964–1965-ci illərdə 20 şəhər və kənd məktəbində prof. Y.Kərimovun təşəbbüsü və başçılığı ilə eksperiment qoyulmuş, onun bilavasitə iştirakı ilə proqram, dərslik, onlarla metodik rəhbərlik hazırlanmış, 1969/70-ci dərs ilində kütləvi şəkildə üçillik təlimə başlanmışdır" [A.Mehrabov, 2007].

1972-ci ildən altıyaşlıların məktəbəqədər tərbiyə ocaqlarında və ailədə məktəbə hazırlanmaları üzrə eksperimental axtarışların rəhbərlərindən biri olmuş, 1977-ci ildən 6 yaşdan təlim üzrə eksperimentə başlamış, 90-cı illərin axırlarında eksperimentə cəlb olunanların sayı 90 minə çatmışdı. Onun rəhbərliyi ilə 1992-ci ildən 7 yaşdan başlanan üçillik təlim sisteminə son qoyulmuş və respublikanın məktəblərində başdan-başa 6 yaşdan təlimə keçilmişdir. Bu sistemin proqramları, dərslikləri də prof. Y.Kərimovun rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanmışdır. Respublikamızın məktəblərində beşgünlük tədris həftəsinə keçilməsi (1980–1984-cü illər), şagirdlərin  təlim müvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirilməsi, beşyaşlıların təlimə cəlb olunması üzrə eksperimental tədqiqatlar da prof. Yəhya Kərimovun adı ilə bağlıdır [A.Mehrabov, 2007].

"İstiqlal" ordenli Əməkdar müəllim, prezident təqaüdçüsü, ulu öndərimizin müəllimi olmuş Lətif Hüseynzadə professor Yəhya Kərimov haqqında belə yazırdı: "Onun gənclik illərindən böyük həvəslə, yüksək enerji ilə çalışması, bütün varlığı, qəlbi ilə işdən yapışması, yüksək məsuliyyəti, tədqiqatçılıq bacarıqları, həmçinin müəllimlik fəaliyyəti Yəhya Kərimovu pedaqoji elmin zirvələrinə qaldırdı. O, namizədlik və doktorluq dissertasiyalarını müdafiə etdi. Pedaqogika, metodika sahələrində öz dəsti-xəttini, öz imzasını qoydu. Yaratdığı məktəbin layiqli davamçılarını yetişdirdi" [L.Hüseynzadə , 2007].

Bu davamçılardan Ş.Əliyeva, L.Cəfərova, Ş. Baxışova, S.Musayeva, S.Rəhimova və onlarla başqalarını göstərmək olar.

ARTPİ-nin sabiq direktoru, pedaqoji elmlər doktoru, professor Zahid Qaralov yazırdı: "Yəhya Şəfi oğlu Kərimov pedaqoji elmlərdə, həqiqi mənada, bal arısıdır. O, ibtidai təhsil sistemi üzrə tayı-bərabəri olmayan, zəngin məktəb yaratmış, ibtidai siniflərdə təlim-tərbiyə kompleksini həmişə günün yüksək tələblərinə

uyğun tənzimləyə bilmişdir. Yeni nəsil ibtidai sinif dərsliklərini, elmi-metodik sistemi işləmiş, ilk dəfə olaraq ibtidai sinif proqramlarına elmi məzmun gətirmişdir. Bu, onun öz millətİ qarşısında ən böyük xidmətlərindən biridir" [Z. Qaralov, 1997].

SSRİ PEA-nın həqiqi üzvü, pedaqogika elmləri doktoru, mərhum akademik Hüseyn Əhmədov  Yəhya Kərimovun elmi fəaliyyətini yüksək qiymətləndirirdi: "Sizin ibtidai siniflər üçün dərsliklər hazırlamaq işində uzun illər çəkdiyiniz zəhmət və onun bəhrəsi öz miqyasına görə son 200 ildə sələflərimizin bu sahədəki unudulmaz xidmətləri ilə müqayisə olunmazdır. Pedaqogika elminin bu sahəsində sizin çəkiniz samballı, nüfuzunuz böyükdür, onlar inkarolunmazdır" [H. Əhmədov, 1997].

Pedaqoji elmlər doktoru, Əməkdar müəllim, mərhum professor Əjdər Ağayev yazırdı: "Y.Kərimovun elmi redaktə fəaliyyətini xüsusi qeyd etmək lazımdır. O, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsinin (indiki "Məktəbəqədər və ibtidai təhsil" jurnalı) ilk nömrəsindən (1970) onun ixtisas redaktorudur. Yüksək tirajlı bu məcmuənin öz oxucuları arasında böyük nüfuz qazanmasında Yəhya Kərimovun əməyi az deyildir. O, redaktoru olduğu məcmuə vasitəsilə ibtidai məktəblərdə və uşaq bağçalarında təlim-tərbiyə işinin təşkili və həyata keçirilməsinə elmi-metodik cəhətdən böyük kömək göstərir" [Ə. Ağayev, 1997].

Azərbaycanın Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutunun keçmiş rektoru, pedaqoji elmlər doktoru, mərhum professor Ramiz Məmmədzadə yazırdı: "Zərdüşt alimləri "həyatın yol göstərənləri" adlandırırdı. Bu fikir, sanki Yəhya müəllim haqqında deyilmişdir. Yəhya müəllim respublikamızın neçə-neçə pedaqoqlar nəslinin yol göstərənidir" [R. Məmmədzadə, 1997].

## Nəticə / Conclusion

Bu məqalədə zəngin pedaqoji irsi ilə elmi ictimaiyyətin rəğbətini qazanmış pedaqoji elmlər doktoru, professor Yəhya Kərimovun elmi fəaliyyətinə nəzər yetirdik. Professor Zahid Qaralov onun haqqında belə deyirdi: "Yəhya müəllim elmdə yorğunluğun, dincəlməyin nə olduğunu bilmir. Mənimlə birgə işlədiyi 20 il müddətində bəlkə də heç 20 gün qanuni məzuniyyətindən istifadə etməyib, həmişə işdə, məktəblərdə, tədbirlərdə həyatını keçirib, elmi yaradıcılıq axtarışında olub" [Y. Kərimov, X cild, səh.46].

Təxminən həmin fikirləri Yəhya müəllimin 60 illiyində onun həmkarı, uzun illər onunla bir yerdə işləmiş, ARTPİ-nin sabiq direktoru, pedaqoji elmlər doktoru, Prezident təqaüdçüsü, mərhum professor Şəmistan Mikayıllı belə ifadə etmişdi: "O, hələ də yorulmaq nə olduğunu bilmir, qəlbi gənclik eşqi ilə döyünür,

gecə-gündüz yazıb-yaradır. Hələ qabaqda görüləsi işlər, həllini tapmamış problemlər onu gözləyir" [Y. Kərimov, X cild, səh.50].

Məqalədə istinad olunan bütün fikirlər, araşdırılan, təqdim olunan faktlar professor Yəhya Kərimovun elmi fəaliyyətinin bir hissəsini əhatə edir. Onun zəngin irsi geniş tədqiqat mövzusudur.

**Problemin aktuallığı.** Məktəbəqədər və ibtidai təhsilin qarşısında duran problemlər həmişə dövlətin, ziyalıların, pedaqoqların, təhsil işçilərinin diqqət mərkəzində olmuşdur. Professor Y.Kərimov, bütün bunları nəzərə alaraq, baş redaktoru olduğu "Məktəbəqədər və ibtidai təhsil" jurnalında bu problemləri işıqlandırmış, məktəbəqədər və ibtidai təhsil sahəsində olan yenilikləri respublikanın pedaqoji ictimaiyyətinə təqdim etmişdir. Bu problemlər bu gün də aktualdır və onların həlli böyük məsuliyyət, kadr resursları tələb edir.

**Problemin elmi yeniliyi.** Məqalədə pedaqogika tarixində öz yeri olan professor Yəhya Kərimovun həyat və yaradıcılığı haqqında yığcam məlumat verilmişdir. Onun yeniliklərlə zəngin olan bütün elmi fəaliyyəti qismən araşdırılmışdır. Onun əlifba, ana dilinin tədrisi metodikası, tədqiqat aparmaq qaydaları və s. haqqında olan əsərləri pedaqoqlar və metodistlər üçün qiymətli mənbədir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatçılar, doktorantlar, təhsil işçiləri Y.Ş.Kərimovun əsərlərinə müraciət edərək, öz təcrübələrini zənginləşdirə bilərlər. Onun yaradıcılığı etibarlı elmi və praktik mənbə hesab olunur.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Ağayev Ə. (1997). Zirvəyə gedən ömür yolu, //"Azərbaycan məktəbi"//, 1988, № 6; "Söz çələngi", səh. 28–32.
2. Abbasov A .( 2007). Yəhya Kərimov necə varsa. Bakı, "Pedaqogika", səh.41– 44.
3. Əhmədov H. (1997). Əziz Yəhya müəllim! "Söz çələngi", Bakı, səh. 66–69.
4. Xəlilov V . (1997). 70 yaşın işığında. "Söz çələngi", Bakı, səh.112–116.
5. Kərimov Y.Ş. (2013). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. (dərslik). Bakı, "Səda".
6. Kərimov Y. (2013). Keçən dövrə nəzər salarkən. IX cild. Bakı, səh.237–238.
7. Qaralov Z. (1997). İpə-sapa yatmayan adam. "Söz çələngi", Bakı, "MMC" poliqrafiya istehsal firması, səh.75–77.
8. Mehdizadə M. (2013). V.P.Yelyutinə məktub. Y.Kərimov. Seçilmiş əsər-

ləri. X cild. Bakı, “Mütərcim”.
9. Mehrabov A. (2007). Elm fədaisi, qayğıkeş alim, xeyirxah insan . “Yəhya Kərimov necə varsa...” Bakı, “Pedaqogika”, səh. 14–17.
10. Məmmədzadə R. (1997). Ömrünü məşələ çevirən alim...“Söz çələngi”, Bakı, səh.99.
11. Mərdanov M. (2013). Elmdə və təhsildə öz yeri olan insan. Y.Kərimov, “Seçilmiş əsərləri”, X cild, səh.28.
12. Mustafayev İ. (1997). Ağsaqqal pedaqoq. “Söz çələngi”, Bakı, səh. 62.
13. Rəsulova L. (1977). Görkəmli metodist-alim, /“Azərbaycan müəllimi”/, 1977-ci il, 25 may.
14. Rüstəmov F. Pedaqoji oçerklər: sələflərim və müasirlərim. Bakı: “Elm və təhsil”, 2010, səh.165–170).
15. Hacıyev T. (1997). Xasiyyəti Yəhya Kərimovun yaraşığıdır...// “Azərbaycan məktəbi”// Bakı, 1997-ci il, № 3.
16. Hüseynzadə L. (2007). Yarım əsrdən çox tanıdığım Yəhya müəllim... /“Respublika”/ , 2007-ci il, 15 mart.

# THE ESSENSE AND BAZIS RULES OF ORGANIZATION OF INTERACTIVE TRAINING

**Dilshad Bagirova**
Teacher of Azerbaijan State Pedagogical College
E-mail: bagirova.dilshad@inbox.ru
https://orcid.org/0000-0003-4642-2148

**Abstract.** The article discusses the essence and basic rules of the organization of interactive learning, shows the stages of the structure of the use of methods and techniques, lists the characteristics of interactive learning. Some researches of Russian and Azerbaijani scientists on interactive technologies of training are considered, classification of interactive technologies is given, purpose, organizational features are studied. Also, the peculiarities of interactive learning, the use of these training methods, mainly in three directions, the basic rules of organization of interactive learning are explained. The positive qualities and skills instilled in students by interactive teaching methods are noted. At the end of the article, the author concludes that interactive lessons help to develop students' social and intellectual skills, and are based on teacher-student cooperation.
**Keywords:** interactive learning, teaching methods, creative environment, pedagogical technologies, lessons, cognitive activity.

**To cite this article:** Bagirova D. (2021) The essense and bazis rules of organization of interactive training. *Journal of Preschool and Primary Education*, V.236, İssue III, pp. 69-79
**Article history:** Received – 10.09.2021; Accepted – 17..09.2021.

# İNTERAKTİV TƏLİMİN MAHİYYƏTİ VƏ TƏŞKİLİNİN ƏSAS QAYDALARI

**Dilşad Bağırova**
Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi
E-mail: bagirova.dilshad@inbox.ru
https://orcid.org/0000-0003-4642-2148

**Annotasiya.** Məqalədə interaktiv təlimin mahiyyəti və təşkilinin əsas qaydalarından söhbət gedir, metod və priyomlardan istifadə strukturunun mərhələləri göstərilir, interaktiv təlimin səciyyəvi cəhətləri sadalanır. Təlimin interaktiv texnologiyaları ilə bağlı rus və Azərbaycan alimlərinin bəzi tədqiqatları nəzərdən keçirilir, interaktiv texnologiyaların təsnifatı verilir, məqsədi, təşkili xüsusiyyətləri araşdırılır. Həmçinin interaktiv təlimin səciyyəvi cəhətləri, bu təlim metodlarından istifadənin, əsasən, üç istiqamətdə qurulması, interaktiv təlimin təşkilinin əsas qaydaları şərh olunur. İnteraktiv təlim metodları vasitəsilə təşkil olunan dərslərin şagirdlərə aşıladığı müsbət keyfiyyətlər və bacarıqlar qeyd olunur. Məqalənin sonunda müəllif bu qənaətə gəlir ki, interaktiv məşğələlər şagirdlərin sosial, intellektual bacarıqlarının inkişafına kömək edir və bu məşğələlərin əsasında müəllim-şagird əməkdaşlığı dayanır.
**Açar sözlər:** interaktiv təlim, təlim metodları, yaradıcı mühit, pedaqoji texnologiyalar, dərs, idraki fəallıq.

**Məqaləyə istinad:** Bagırova D. (2021) İnteraktiv təlimin mahiyyəti və təşkilinin əsas qaydaları. "*Məktəbəqədər və ibtidai təhsil*", № 3 (236), səh. 69-79
**Məqalə tarixçəsi:** göndərilib – 10.09.2021; qəbul edilib – 17.09.2021.

## Giriş / Introduction

Cəmiyyətdə son illərdə baş verən dəyişikliklərə uyğun olaraq, ümumtəhsil məktəblərində təhsilin məqsədləri və onların reallaşdırılması üsulları yenilənir. Bu zaman təlim-tərbiyə prosesinin ənənəvi və innovasiyalarla bağlı əlaqələrindən istifadə olunur.

XX əsrin sonu – XXI əsrin əvvəllərinin tələblərinə cavab verən ənənəvi dərsdən fərqli olaraq, müasir dərs, hər şeydən əvvəl, universal tədris fəaliyyətinin formalaşdırılmasına və inkişafına yönəldilmiş bir dərsdir. Dərsin nəticəsi nə davamiyyət, nə öyrənilən materialın həcmi ilə ölçülmür. Bu nəticə şagirdlər tərəfindən universal tədris fəaliyyətinin formalaşdırılması, şəxsi layihələrin həyata keçirilməsi, əldə edilmiş bilikləri tətbiq etmək bacarığı ilə ölçülür, yəni universal tədris fəaliyyətinin inkişafı interaktiv texnologiyaların tətbiqinə, interaktiv təlimə keçməyə kömək edir.

## Əsas hissə / Main Part

Təlimin interaktiv texnologiyaları ilə bağlı bəzi tədqiqatları nəzərdən keçirək. T.A.Myasoyed öz vəsaitində təlimin interaktiv texnologiyaları ilə bağlı müəllimlər üçün xüsusi seminar materiallarını şərh edir [Myasoyed T.A., 2004].

“Təhsilin yeni məzmununa keçidi **təkamül-axtarış** və **informasiyalı** olmaqla iki qrupa ayırmaq olar. Birinci qrupda çoxlu sayda məktəblərdə hazırda da saxlanılan və ayrı-ayrı fənlərin dərindən öyrənilməsinə imkan verən sinif-dərs sisteminin tələblərinə müvafiq fəaliyyətin qurulması əsas tələb kimi götürülür. İkinci qrupda isə fərdə istiqamətləndirilmiş, fəaliyyətyönümlü, kamil insanın, rəqabətə davamlı şəxsiyyətin formalaşdırılması üçün nəticəyönümlü təhsilin qurulmasını, yeni yanaşmaların, interaktiv təlim üsullarının tətbiqi əsas tələb kimi qəbul edilir” [İbrahimov F., Hüseynzadə R., 2012].

A.T.Əliyeva öz dissertasiyasında qeyd edir: “*İnteraktiv metodlar* anlayışının məzmununun əsas üstün cəhəti təlim fəaliyyəti zamanı şagirdlərin təfəkküründə real ziddiyyətlərin həll olunması zəminində öyrənməyə real marağın meydana çıxmasıdır, çünki real ziddiyyətlər intellektual ehtiyatların səfərbər olunmasını təmin edir, öyrənmə fəaliyyətini stimullaşdırır, diqqəti uzun müddət bir şey üzərində saxlamağa ehtiyac yaradır [Əliyeva A.T., 2007].

Q.K.Selevko öz vəsaitinin “İnteraktiv texnologiyalar” adlanan paraqrafında interaktiv texnologiyaların təsnifatını, məqsədini, təşkili xüsusiyyətlərini araşdırmışdır: “İnteraktiv təlim, hər şeydən əvvəl, müəllim və şagirdlərin qarşılıqlı

əlaqəsini həyata keçirən dialoqlu təlimdir. Bu qarşılıqlı əlaqənin xüsusiyyətləri aşağıdakı kimidir:

– təlimin subyektlərinin mənaca bir fəzada olması;

– həll olunan məsələyə birgə yüklənmə;

– məsələnin həll olunması üçün vasitə və metodların razılaşdırılmış şəkildə seçilməsi;

– yaxın emosional vəziyyətə birlikdə daxil olmaq" [Selevko Q.K., 2005].

İnteraktiv texnologiyalar bütün şagirdləri mövzunun müzakirəsinə cəlb etmək, tapşırıqları həll etmək, nəticələri müstəqil təqdim etmək üçün tətbiq olunur. Onların iştirakı nəticəyönümlü və motivasiyalı olur.

Müasir təlim konsepsiyasında şagirdlərin idraki fəaliyyətinin təfəkkür metodlarının tətbiqi ilə gücləndirilməsi prinsipinə əsaslanan metodlara xüsusi diqqət yetirilir. Bu konsepsiya interaktiv təlimin mahiyyətini təşkil edir.

İnteraktiv təlim metodlarının məktəbdə reallaşdırılması böyüməkdə olan yeniyetmə və gənc nəslin aşağıdakı keyfiyyətlərə malik olan bir məzmunda yetişməsini təmin edəcəkdir:

• biliklərə yarımüstəqil və müstəqil yiyələnməklə, onların həyatda tətbiqi yollarını müəyyən etmək və bilavasitə tətbiqetmə bacarıqlarına yiyələnmək;

• əldə edilən biliklərin tətbiqi məqsədlərinin geniş planda dərk edilməsi;

• yeni biliklərin aşkar edilməsində və mənimsədilməsində kollektiv fəaliyyətin reallaşdırılması;

• qazanılmış biliklərin yeni situasiyalarda – yeni problemlərin həllində tətbiqetmə bacarıqlarının formalaşdırılması [Selevko Q.K., 2005].

Dünya təcrübəsi göstərir ki, interaktiv metodların tətbiqi müasir inkişafetdirici təlimin prinsiplərinə tamamilə uyğundur, onların reallaşdırılmasının tədris-metodiki imkanları xeyli artmışdır. Təlimə müasir yanaşma həyat və fəaliyyətin inkişaf dinamikasına uyğun olaraq, tədris prosesindəki yeniliklərə istiqamətləndirilməlidir.

**Pedaqogikada təlimin bir neçə modelini ayırd edirlər:**

1) Passiv – şagird "obyekt" rolunda çıxış edir (qulaq asır və müşahidə edir).

2) Aktiv – şagird "subyekt" rolunda çıxış edir (müstəqil işlər, yaradıcı tapşırıqlar yerinə yetirir).

3) İnteraktiv – *inter* (qarşılıqlı), *act* (fəaliyyət). Təlim prosesi bütün şagirdlərin daim fəal, qarşılıqlı əlaqəsi şəraitində həyata keçirilir. Müəllim və şagird təlimin bərabər hüquqlu subyektləri olurlar [İbrahimov F., Hüseynzadə R., 2012].

Hazırda «internasional», «internet», «inteqrativ», «inteqrasiya», «interaktiv», «interpol» və s. kimi ortaq kökü olan sözlərə tez-tez rast gəlirik. Bu sözlərdəki ortaq söz «inter» və ya «inte» – «əlaqə», «arasında» mənasında işlədilir, məsələn, «internasional» sözü – «inter» – «müxtəlif», «nasional» – «millət» mənasında

işlənib, yəni «müxtəlif millətlərin həmrəyliyi» deməkdir.

«İnteraktiv» – mürəkkəb söz olub, «inter» – *müxtəlif*, «aktiv» – *fəal* mənasındadır, yəni təlim prosesində bilik, bacarıq və vərdişlər səviyyəsi müxtəlif olan şagirdlərin eyni zamanda fəallaşdırılması deməkdir.

İ.A.Qrişanova öz tədqiqatında qeyd edir ki, biliklər öz-özünə bacarığa çevrilmir. Bunun üçün məqsədyönlü iş aparmaq, fəaliyyət göstərmək lazımdır. Bu işlərin məzmun və xarakterinin müəyyənləşdirilməsi üçün onun tərkib hissələrinin araşdırılması vacib amildir [Qrishanova İ.A.,2010 ].

Z.A.Veysova isə interaktiv təlimi belə xarakterizə edir: «İnteraktiv təlim – tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur» [Veysova Z.A., 2000].

İnteraktiv təlimi "fəal təlim" də adlandırırlar. Bu təlim prosesində şagirdlərin marağı, fəallığı artır. Bu, müəllimə imkan verir ki, tədris materialının həcmini artırsın, məzmununu genişləndirsin və dərinləşdirsin. Təlimin səmərəliliyi onunla müəyyən edilir ki, şagirdlər qazandıqları bilikləri həyatda tətbiq etməyi bacarırlar.

Şagirdlərin öyrənmə prosesində, tədris materialının mənimsənilməsi prosesində birgə fəaliyyəti o deməkdir ki, hər bir şagird öz bilik və bacarıqlarını ortaya qoyur, biliklərin və ideyaların mübadiləsi gedir. Həm də bu, qarşılıqlı xeyirxahlıq mühitində baş verir. Bu isə təkcə yeni biliklər əldə etmək deyil, həm də idrak fəaliyyətini inkişaf etdirməyə, onu əməkdaşlığın daha yüksək formasına keçirməyə imkan yaradır.

**İnteraktiv təlimin səciyyəvi cəhətləri aşağıdakılardır:**

✓ müəllim tərəfindən məqsədli şəkildə problem-situasiyanın yaradılması;
✓ şagirdlərin problemin həllinə istiqamətləndirilməsi;
✓ problemin həlli prosesində şagirdlər tərəfindən kiçik (xüsusi) nəticələrin çıxarılması;
✓ problemin həllinə tam cavab verən ümumi nəticənin çıxarılması.

İnteraktiv təlim prosesində hər bir riyaziyyat dərsinin məqsədinə uyğun olaraq:

✓ şagirdlər diferensiasiya olunur və hər qrup öz qüvvəsinə müvafiq tapşırıq alır;
✓ müəllim istiqamətverici göstərişlər verir;
✓ şagirdlər yarımüstəqil və müstəqil işləməklə fəallıq göstərir, yeni qayda və nəticələr çıxarırlar;
✓ alınmış nəticələr yeni situasiyalarda tətbiq olunur [Veysova Z.A., 2000].

X.Ş.Əlizadə öz tədqiqatında gəldiyi nəticələrdən birində belə yazır: "İnteraktiv təlim prosesində şagirdlərdə aşağıdakı bacarıqlar formalaşır: dərslik üzərində işləmək, müşahidə etmək, təbiət hadisələrini, müəllim-şagird münasibətlərini izləmək, informasiya vasitələrindən, texniki vasitələrdən istifadə etmək, insanlarla

əməkdaşlıq etmək, hadisələrdən baş çıxarmaq, müstəqil mühakimə yürütmək, biliklərini tətbiq edə bilmək, bilikləri müstəqil əldə etmək, öyrəndiklərinə və eşitdiklərinə münasibət bildirmək" [Əlizadə X.Ş., 2018].

Şagird dərslərdə interaktiv metod və priyomlardan istifadə etdikdə mənimsəmə prosesinin tam hüquqlu iştirakçısı olur, onun təcrübəsi tədris materallarının dərk edilməsi üçün mənbə rolunu oynayır. Müəllim hazır biliklər vermir. O, şagirdləri bu bilikləri müstəqil əldə etməyə istiqamətləndirir. Dərslərin ənənəvi formada keçirilməsi ilə müqayisədə, interaktiv təlimdə müəllim və şagirdin qarşılıqlı əlaqələri dəyişir: müəllimin aktivliyi şagirdlərə də sirayət edir. Bu zaman müəllimin vəzifəsi şagirdlərin təşəbbüskarlığı üçün şəraitin yaradılmasından ibarətdir.

İnteraktiv təlim eyni zamanda üç problemi həll edir:

– tədris-dərketmə;

– kommunaktiv-inkişafetdirici;

– sosial-istiqamətləndirmə.

İnteraktiv təlimin mahiyyəti bundan ibarətdir: tədris prosesi elə təşkil olunur ki, bütün şagirdlər praktik şəkildə dərketmə prosesinə cəlb olunurlar. Onlar bildiklərini, düşündüklərini ifadə etmək, təhlil etmək imkanlarına malik olurlar.

**İnterakiv təlimin məqsədlərini aşağıdakı kimi qeyd etmək olar:**

– şagirdlərdə təlimə marağın yaradılması;

– tədris materiallarının effektiv mənimsədilməsi;

– qoyulmuş tədris tapşırığının həlli yollarının şagirdlər tərəfindən müstəqil şəkildə axtarılması;

– şagirdlər arasında qarşılıqlı təsirin yaradılması, onları komandada işləməyə öyrətmək, istənilən məsələnin müzakirəsində dözümlülük göstərmək, hər bir şagirdin söz demək, fikir bildirmək hüququna hörmətlə yanaşmaq;

– şagirdlərdə mülahizə və münasibətlərin formalaşdırılması;

– həyati və tədris vərdişlərinin formalaşdırılması.

A.M.Nəzərov öz dərs vəsatində qeyd edir: "...interaktiv təlim metodlarından həmişə istifadə etmək onun təsirini azalda bilər. Həqiqi təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir" [Nəzərov A.M., 2012].

F.Rüstəmov və Ə.Paşayevin birgə yazdıqları dərs vəsatində bəzi interaktiv metodların: əqli hücum, binar dərs, qarşılıqlı nəzarət, qarşılıqlı imlanın təhlili verilir [Paşayev Ə., Rüstəmov F., 2010].

İnteraktiv təlim, həm də düşündürücü və şagirdi axtarışa sövq edən təlimdir. Təqdim olunan problem şagirdin əvvəl qazandığı biliklərə əsaslanmaqla, yeni biliklərin aşkar edilməsinə gətirib çıxarır. Bunun üçün müəllim problemi (tapşırığı) elə seçməlidir ki, onun həllində iştirak edən bilik elementləri şagirdlərə tanış

olsun; həmin elementlər əsasında qanunauyğunluq yaratmaqla yeni qayda və ya nəticənin çıxarılması şagirdin müstəqil əməyi olsun.

İnteraktiv təlim metodlarından müxtəlif şəkildə istifadə olunur. Son zamanlar qabaqcıl ibtidai sinif müəllimləri interaktiv təlim metodlarından istifadəni üç istiqamətdə qururlar.

**Birinci istiqamət** təlim monitorinqinin həyata keçirilməsidir. Bu prosesin üç mərhələsi vardır:

***a) Diaqnostika*** mərhələsində təlim prosesinin uğurları və çatışmazlıqları ətraflı öyrənilir.

***b) Pedaqoji diaqnostika*** mərhələsində hansı təlim metodlarından istifadə edilməsi müəyyən olunur.

**c) *Korreksiya*** mərhələsində bütün qüsurlar korrektə edilir, aradan qaldırılır, alınan səmərəli nəticə yeni miqyasda tətbiq olunmaq üçün hazırlanır.

**İkinci istiqamət** yeni pedaqoji texnologiyaların imkanlarından istifadə olunmasıdır. Bu istiqamətdə aşağıdakı fəaliyyət formaları həyata keçirilir:

a) sinif müəlliminin diaqnostik fəaliyyəti;

b) sinif müəlliminin layihələndirici fəaliyyəti;

c) sinif müəlliminin konstruktiv fəaliyyəti;

ç) sinif müəlliminin kommunikativ fəaliyyəti;

d) sinif müəlliminin təşkilatçılıq fəaliyyəti.

Bütün bunlar təlim prosesinin səmərəliliyini yüksəltmək üçün aparılan pedaqoji əməliyyatların kompleksini təşkil edir.

**Üçüncü istiqamət** interaktiv təlim metodlarından düzgün istifadə edilməsidir. Burada əsas vəzifələrdən biri dərsdə şagirdlərin fəallığının yüksəldilməsindən ibarətdir. Bunun üçün mövzunun ətraf aləmlə əlaqələndirilməsi təmin olunmalıdır. Elə "interaktiv" sözünün lüğəvi mənası da buradan götürülmüşdür. Bu söz xarici mühitlə əlaqə yaratmaqla təlim prosesinin bütün iştirakçılarının fəallaşdırılmasını nəzərdə tutan pedaqoji prosesi xarakterizə edir. Ona görə də ibtidai siniflərdə bu metodun tətbiqinə daha çox üstünlük vermək lazımdır, çünki interaktiv metodların tətbiqi zamanı şagirdlərdə nitq, təfəkkür, təxəyyül inkişaf edir, onlarda öz fikrini ifadə edərkən onu əsaslandırmaq qabiliyyətləri formalaşır. Bu zaman dialoji nitqə geniş yer verilir.

İnteraktiv təlim metodlarının tətbiqi aşağıdakılarla xarakterizə olunur:

a) müəllimin iştirakı ilə şagirdin yaradıcı fəallığa cəlb edilməsi;

b) şagirdin aktiv fəaliyyəti və ona sadə tədqiqatçılıq bacarıqlarının aşılanması;

c) müəllimin şagirdlərlə və şagirdlərin bir-biri ilə əməkdaşlığı;

ç) sosial bərabərliyin və müsbət psixoloji şəraitin yaradılması;

d) əyləncəli çalışmalar və riyazi məzmunlu oyunlardan istifadə;

e) müəllimin təqdim etdiyi tematik materialın şagird təfəkkürünə və milli düşüncə tərzinə təsiri.

A.M. Məcidova öz tədqiqatında yazır: "İnkişafetdirici təlimin bir xüsusiyyəti də ondan ibarətdir ki, təlim prosesində şagirdin əqli, intellektual fəaliyyəti biliyin müstəqil əldə edilməsi fəaliyyəti ilə əlaqədar olub, yeni biliyin aşkar edilməsi ilə nəticələnir və şagird böyük iftixar hissi keçirir" [Məcidova A.M., 2015].

Onu da qeyd etməliyik ki, müasir təlim metodlarının tətbiqi dərsəqədərki müddətdə müəllimin, dərs prosesində isə şagirdlərin fəallığını tələb edir. Bu metodların tətbiqi zamanı müəllim sinif şagirdlərini 4–5 nəfərlik kiçik qruplara bölür və hər qrupa işçi vərəqəsi təqdim edir. Şagirdlər öz nəticələrini həmin işçi vərəqələrində qeyd edirlər. Həmin nəticələr birlikdə təhlil olunur, sonra isə müəllim tərəfindən qiymətləndirilir. Bütün bunlarla yanaşı, interaktiv təlim metodlarının köməyi ilə təlimin həm tərbiyəedici, həm inkişafetdirici, həm də təhsilləndirici funksiyaları həyata keçirilir.

İnteraktiv təlim metodlarının ən aparıcı komponentlərindən biri dialoq–treninqdir. Buna *təlim – məşq rejimi* də deyirlər. Bu zaman şagirdlər daha çox intellektual vərdişlər qazanır, onlarda öz fikrini ifadə edərək, onu əsaslandırmaq qabiliyyəti inkişaf edir, analiz və sintez etməyi öyrənir, ümumi nəticəyə gəlməyi bacarırlar. Bu da riyaziyyat təlimində ən əsas amillərdən biridir. İnteraktiv təlim metodu imkan yaradır ki, müəllim dərsi həmişə maraqlı qursun.

İnteraktiv təlimin metod və priyomlarından istifadə strukturu 8 mərhələdən ibarətdir.

**1. *Motivasiya*** mərhələsinin təşkili zamanı hər dərsdə motivasiya üsullarını dəyişmək lazımdır.

**2. *Məqsədyönlülük* –** məqsədlər haqqında məlumat verilməsi sonrakı fəaliyyəti məqsədyönlü təşkil etməyə imkan verir. Müəllim şagirdlərə dərsin məqsədini qısa və düzgün ifadə etməyi öyrədir.

**3. *Yeni informasiyanın təqdim edilməsi*** mərhələsi imkan verir ki, müəllim özü üçün şagirdlərin nəyi bildiklərini və onlara aydın olmayanları aşkar etsin.

**4.** İnteraktiv metodlar və priyomlardan kiçik qruplarda istifadə olunur. Belə hallarda ən yaxşı variant hər qrupda müxtəlif informativ səviyyəyə malik şagirdlərin olmasıdır. Bu, şagirdlərə bir-birini tamamlamağa və biliklərlə zənginləşdirməyə imkan verir. Hər qrup konkret və dəqiq informasiyalarla çıxış etməlidir.

**5. *Yeni məhsul.*** Şagirdlər tərəfindən mənimsənilmiş informasiyanın həcmini nəzərə alaraq, onlara çıxardıqları şəxsi nəticəni və öz nöqteyi-nəzərlərini ifadə etməyə imkan verilir.

**6. *Refleksiya*** mərhələsində şagirdlərin gördükləri işə yekun vurulması nəzərdə tutulur. Bu mərhələ şagirdlərə imkan verir ki, yeni mənimsənilmiş bilikləri qeyd etsinlər və onları hansı hallarda tətbiq edəcəklərini müəyyən etsinlər.

**7.** ***Qiymətləndirmə*** mərhələsinin çətinliyi ondan ibarətdir ki, bu mərhələ şagirdləri sonrakı fəaliyyətlər üçün stimullaşdırmalıdır.

8. ***Ev tapşırığı*** mərhələsində interaktiv metodlardan istifadə edilməklə keçilən dərslərdən sonra şagirdlərə öyrənilmiş mövzunun daha dərindən mənimsənilməsi üçün yaradıcı ev tapşırıqları verilir [Nəzərov A.M., 2012].

İnteraktiv təlimin təşkilinin əsas qaydalarını aşağıdakı kimi qeyd etmək olar:

**Birinci qayda** – Öyrənmə prosesinə sinfin bütün şagirdləri cəlb olunmalıdır. Bu məqsədlə bütün iştirakçıları müzakirə prosesinə cəlb edən texnologiyalardan istifadə etmək faydalıdır.

**İkinci qayda –** İştirakçıların psixi hazırlığına diqqət yetirmək lazımdır. Şagirdlərin bilavasitə bu və ya digər formada psixoloji cəhətdən dərsə hazır olub-olmamaları önəmlidir. Bu məqsədlə onların fəaliyyətləri həmişə təqdir olunmalı, özlərini reallaşdırmaq üçün onlara imkan yaradılmalıdır.

**Üçüncü qayda** – İnteraktiv texnologiyalardan istifadə zamanı şagirdlərin sayı çox olmamalıdır. İştirakçıların sayının 25 nəfər olması optimaldır. Yalnız bu şərt daxilində kiçik qruplarda məhsuldar iş mümkündür.

**Dördüncü qayda** – Sinif otağı interaktiv təlim üçün hazırlanmalıdır. Otaqda elə şərait yaradılmalıdır ki, iştirakçılar böyük və kiçik qruplarda işləyərkən yerlərini asanlıqla dəyişə bilsinlər. Öyrənənlər üçün şərait fiziki cəhətdən də rahat olmalıdır.

**Beşinci qayda –** Əvvəlcədən reqlament (qaydalar) qoyulmalıdır və onun pozulmamasına çalışmaq lazımdır.

**Altıncı qayda –** İştirakçıların qruplara bölünməsinə diqqətlə yanaşılmalıdır. Əvvəlcə bunu könüllülük əsasında, sonra isə təsadüfi seçimlər əsasında etmək lazımdır [Veysova Z.A., 2000].

İnteraktiv təlimin təşkilinə aşağıdakılar daxildir:

– dərs üçün problem-situasiyanın tapılması;

– dialoqa aparan tədris mühitinin təşkili;

– təlim prosesində müəllimin və şagirdlərin motivasiya hazırlığının formalaşdırılması;

– şagirdlər və müəllim üçün əməkdaşlıq qaydalarının hazırlanması və qəbul edilməsi;

– ünsiyyət üsullarından (konstruktiv sualların verilməsi və s.) istifadə;

– birgə fəaliyyətin nəticələrinin qiymətləndirilməsinin optimallaşdırılması.

## Nəticə / Conclusion

Beləliklə, interaktiv təlimin mahiyyətindən, əhəmiyyətindən və səmərəliliyindən söhbət açdıq. İnteraktiv təlimin təşkilinin əsas qaydaları – iştirakçıların psixi hazırlığına diqqət yetirmək; sinfin bütün şagirdlərinin öyrənmə prosesinə cəlb olunması; interaktiv texnologiyalardan istifadə zamanı şagirdlərin sayının çox olmaması; sinif otağının interaktiv təlim üçün hazırlanması; əvvəlcədən reqlamentin (qaydalar) qoyulması və onun pozulmamasına çalışmaq; iştirakçıların qruplara bölünməsinə diqqətlə yanaşmaq qaydaları şərh olundu.

İnteraktiv təlimin metod və priyomlarından istifadə strukturunun 8 mərhələdən – motivasiya, məqsədyönlülük, yeni informasiyanın təqdim edilməsi, interaktiv metod və priyomlardan istifadə, yeni məhsul, refleksiya, qiymətləndirmə, ev tapşırığı mərhələlərindən ibarət olduğunu qeyd etdik.

T.A.Myasoyed, Q.K.Selevko, A.T.Əliyeva, F.İbrahimov, R.Hüseynzadə, İ.A.Qrişanova, Z.A.Veysova, X.Ş.Əlizadə, A.M.Nəzərov, F.Rüstəmov və Ə. Paşayev, A.M. Məcidovanın interaktiv təlim haqqında əsərlərini tədqiq etdik və müvafiq nəticələrə gəldik.Sonda bu nəticəyə gəlirik ki, interaktiv məşğələlər şagirdlərin sosial, intellektual bacarıqlarının inkişafına kömək edir və belə məşğələlərin əsasında müəllim-şagird əməkdaşlığı dayanır. Bu qənaətə gəlirik ki, interaktiv təlim metodlarının köməyi ilə təlimin tərbiyəedici, inkişafetdirici və təhsilləndirici funksiyalarını həyata keçirmək mümkündür.

**Problemin aktuallığı.** Bu məşğələlərdə nəinki şagirdlərin, həmçinin müəllimlərin də fəallığının artması, bir-birindən qarşılıqlı öyrənmə, yaradıcı və məntiqi inkişaf baş verir. Dərslərdə interaktiv texnologiyaların tətbiq edilməsi təlim prosesində meydana çıxan bir sıra çətinlikləri aradan qaldırmağa kömək edir, çünki bu təlimin əsas xüsusiyyəti odur ki, burada şagirdin idrak fəallığına və müstəqil fəaliyyətinə istinad olunur.

**Problemin elmi yeniliyi.** İnteraktiv metodların əsas üstün cəhəti odur ki, təlim prosesində şagirdlərin təfəkküründə real ziddiyyətlərin həll olunması zəminində öyrənməyə real maraq meydana çıxır, çünki bu ziddiyyətlər intellektual ehtiyatların səfərbər olunmasını təmin edir, öyrənmə fəaliyyətini stimullaşdırır, diqqəti uzun müddət bir problem üzərində saxlamaq ehtiyacı yaranır.

**Problemin praktik əhəmiyyəti.** İnteraktiv təlimin təşkilinin əsas qaydalarına (bütün şagirdlərin öyrənmə prosesinə cəlb olunması; iştirakçıların psixi hazırlığı; interaktiv texnologiyalardan istifadə zamanı şagirdlərin sayı; sinif otağının interaktiv təlim üçün hazırlanması; əvvəlcədən qaydaların qoyulması; iştirakçıların qruplara bölünməsi və s.) riayət olunmalıdır.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Əliyeva A.T. (2007). İnteraktiv metodlardan istifadə təlim rus dilində olan məktəblərdə Azərbaycan dili tədrisinin səmərəliliyini artırmağın vasitəsi kimi. Ped.üzrə fəl.dok.dis.avtoref. Bakı, 23 s.
2. Əlizadə X.Ş. (2018). İbtidai siniflərdə riyaziyyatın tədrisində interaktiv təlim metodlarından istifadə. Ped.üzrə fəl.dok.dis.avtoref. Bakı, 27 s.
3. İbrahimov F., Hüseynzadə R. (2012). Pedaqogika. (2 cilddə). I cild. Bakı, "Mütərcim", 705 s.
4. Məcidova A.M. (2015). İbtidai siniflərdə riyaziyyat təliminin keyfiyyətinin yüksəldilməsi probleminin həlli yolları. (metodik vəsait). Bakı: "Elm və təhsil", 369 s.
5. Nəzərov A.M. (2012). Müasir təlim texnologiyaları. (dərs vəsaiti). Bakı: ADPU, 103 s.
6. Paşayev Ə., Rüstəmov F. (2010). Pedaqogika. Bakı, "Elm və təhsil", 464 s.
7. Veysova Z.A. (2000). Fəal təlim metodlarına giriş. Bakı, "Pedaqogika", 134 s.
8. Qrishanova İ.A. (2010). Didakticheskaya konsepsiya formirovaniya kommunikativnoy uspeshnosti mladshix shkolnikov. (avtoreferat dissertasii). İjevsk, 21 s.
9. Myasoyed T.A. (2004). İnteraktivnıe texnoloqii obucheniya. (spes. seminar dlya uçiteley). Moskva, 151 s.
10. Selevko Q.K. (2005). Ensiklopediya obrazovatelnıx texnoloqiy. V 2-x t. T.1. M: «Narodnoe obrazovanie», 556 s.

# ORGANIZATIONAL ISSUES OF WORK ON WORLD LITERATURE SAMPLES IN PRIMARY SCHOOLS

**Arif Asadov**
Doctor of Philosophy in Philology
E-mail: arif_alim@mail.ru
https://orcid.org/0000 –0003 –4321 –3295

**Abstract.** The article talks about the teaching of samples of world literature in primary schools. The author notes that the world is becoming increasingly global. The growing generation faces not only local but also human problems. Today's younger generation is responsible for the future of mankind. Schools should pay more attention to topics in this direction, and place in the teaching programs. All these activities should start from primary schools. Students should be presented with works that instill a sense of love and respect for human values. The author notes that the Azerbaijani language is of great importance in this regard.In these textbooks, texts from Azerbaijani and world literature should be presented in parallel. Students should be able to compare selected texts from national and foreign literature. Love for national literature should be instilled in Azerbaijani language classes and educational values should be promoted.
**Keywords:** Azerbaijani language, world literature, primary school, planetary thinking, comparative analysis.

**To cite this article:** Asadov A. (2021) Organizational issues of work on world literuture samples in primary schools. *Journal of Preschool and Primary Education*, V.236, İssue III, pp. 81-93
**Article history:** Received – 17.09.2021; Accepted – 22.09.2021.

# İBTİDAİ SİNİFLƏRDƏ DÜNYA ƏDƏBİYYATI NÜMUNƏLƏRİNİN TƏDRİSİ ÜZRƏ İŞİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**Arif Əsədov**
filologiya üzrə fəlsəfə doktoru
E-mail: arif_alim@mail.ru
https://orcid.org/0000 –0003 –4321 –3295

**Annotasiya.** Məqalədə ibtidai siniflərdə dünya ədəbiyyatı nümunələrinin tədrisindən söhbət gedir. Müəllif qeyd edir ki, getdikcə dünya daha çox qloballaşır. Böyüməkdə olan nəslin qarşısında yalnız yerli deyil, bəşəri problemlər də dayanır. Bugünkü gənc nəsil bəşəriyyətin gələcəyi üçün məsuliyyət daşıyır. Məktəblərdə bu istiqamətdə mövzulara daha çox diqqət yetirilməli, tədris proqramlarında yer verilməlidir. Bütün bu fəaliyyətlərə ibtidai siniflərdən başlamaq lazımdır. Şagirdlərə insani dəyərlərə sevgi və hörmət hissi aşılayan əsərlər təqdim edilməlidir. Müəllif qeyd edir ki, Azərbaycan dili fənni bu baxımdan böyük əhəmiyyətə malikdir. Bu dərsliklərdə paralel olaraq Azərbaycan ədəbiyyatından və dünya ədəbiyyatından mətnlər təqdim edilməlidir. Şagirdlər milli və xarici ədəbiyyatdan seçmə mətnləri müqayisə etməyi bacarmalıdırlar. Azərbaycan dili dərslərində milli ədəbiyyata sevgi aşılanmalı və tərbiyəvi dəyərlər təbliğ olunmalıdır.

**Açar sözlər:** Azərbaycan dili, dünya ədəbiyyatı, ibtidai siniflər, planetar təfəkkür, müqayisəli təhlil.

**Məqaləyə istinad:** Əsədov A. (2021) İbtidai siniflərdə dünya ədəbiyyatı nümunələrinin tədrisi üzrə işin təşkili. "*Məktəbəqədər və ibtidai təhsil*", № 3 (236), səh. 81-93
**Məqalə tarixçəsi:** göndərilib – 17.09.2021; qəbul edilib – 22.09.2021.

## Giriş / Introduction

Hər bir xalqın və dövlətin gələcək inkişafı, iqtisadi yüksəlişi, əhalinin rifahı birbaşa onun təhsilindən asılıdır. Bu günün təhsili sonrakı onilliklər ərzində ölkənin kadr potensialının formalaşması və iş qabiliyyətinin səmərəliliyi üçün əsas amildir. Müasir dövr və qarşısıalınmaz proses olan qloballaşma şəraitində beynəlxalq miqyasda cərəyan edən hadisələr (pandemiya, texnoloji yeniliklər, innovasiyalar), sosial-iqtisadi, siyasi-mədəni situasiyalar təhsil sisteminin yeni çağırışlara birbaşa cavab verməsini zərurətə çevirir. Fənn proqramlarının, təlim texnologiyalarının, təhsil qanunvericiliyinin yeni əsaslarının yaradılması, işlək təlim və təhsil menecerliyi mexanizminin formalaşdırılması üçün zəmin ola biləcək ideyaların və buna müvafiq platformaların təşkil edilməsi əsas humanitar-pedaqoji istiqamətlərdən biri olmalıdır.

İnsan kapitalının keyfiyyət göstəricilərinin artırılması, iqtisadi artıma və əhalinin rifaha nail olmasının təmin edilməsi təhsilin məzmununun səmərəliliyi və yüksələn səviyyəsi ilə düz mütənasibdir. Bu kontekstdə ibtidai siniflərin xüsusilə diqqətdə saxlanılması, istər təhsilin məzmunu, istərsə də tədris resurslarının qənaətbəxşliyi prizmasından dəyişikliklər və keyfiyyət göstəricilərinin artırılması qaçılmazdır. İngilis filosofu, riyaziyyatçısı, ictimai xadimi, 1950-ci ildə ədəbiyyat üzrə Nobel mükafatı almış Russel Bertrand yazırdı: “Təhsilin iki məqsədi olmalıdır: bir tərəfdən zəkanı yetişdirmək, digər tərəfdən vətəndaş yetişdirmək” [Bertrand R., 1962].

## Əsas hissə / Main part

Bütün bunların fonunda orta ümumtəhsil məktəblərində dərsliklərin hazırlanması və tədrisin keyfiyyətinin yüksəldilməsi müsbət keyfiyyət tendensiyasına çevrilməlidir. Fikrimizcə, şagird şəxsiyyətinin formalaşdırılması və təfəkkürünün inkişaf etdirilməsi baxımından dərsliklərdə, təlimin təşkilinin müxtəlif formalarında daha çox müasir tələblərlə səsləşən materiallara yer verilməlidir. Tədris resurslarında milli ədəbiyyat nümunələri ilə yanaşı, dünya ədəbiyyatı nümunələrindən də istifadə edilməlidir. Bu nümunələrin müvafiq dərsliklərdə sistemli və faydalı şəkildə yer alması özündə müxtəlif təhsil məqsədlərini birləşdirir. Belə ki, şagirdlər Azərbaycan ədəbiyyatı nümunələri ilə yanaşı, dünya ədəbiyyatı nümunələri ilə də yaxından tanış olmalı, bu əsərlərdə təbliğ edilən mütərəqqi ideyaları mənimsəməlidirlər. Onlar anlamalıdırlar ki, dünya ədəbiyyatı nümunələrində əks olunan bu ideyalar, vətənə, torpağa, ailəyə, insana sevgi, əməyə məhəbbət hisslərinin tərbiyəsi Azərbaycan ədəbiyyatının da əsas ideya istiqamətlərindən-

dir. Azərbaycan ədəbiyyatı özünün neçə min illik tarixi ərzində dünya ədəbiyyatının ayrılmaz tərkib hissəsi olmuşdur. Eyni tarixi-mədəni inkişafın, təfəkkürün şərq kontekstində davamı, paralel mövcudluq təcrübəsinə malikdir. "Kitabi – Dədə Qorqud" eposunda, "Koroğlu" dastanlarında, Nizaminin "Xəmsə"sində, Nəsimi poeziyasında, Füzulinin, Vaqifin, A.Bakıxanovun, M.F.Axundzadənin yaradıcılığında, H.Cavidin, C.Məmmədquluzadənin, S.Ə.Şirvaninin, A.Səhhətin, M.Ə.Sabirin, A.Şaiqin, S.Vurğunun, H.Ziyanın bədii irsində təbliğ olunan, tərənnüm edilən fikir və ifadə tərzi, bəşəri ideyalar, janr–forma və ideya-məzmun istiqamətləri dünya ədəbiyyatında "Gilqameş dastanı"nda, Homerin "Odisseya"sında, Ezopun təmsillərində, "Kəlilə və Dimnə"də, hindlilərin "Mahabharata"sında, ərəblərin "Min bir gecə" nağıllarında, qədim və orta əsrlər Avropa qəhrəmanlıq dastanlarında, Şekspirin, Molyerin, Mark Tvenin, O.Henrinin, hətta müasir Avropa və Amerika yazıçılarının yaradıcılığında bu və ya digər şəkil və formada əksini tapmışdır. Düşünürük ki, tədris olunan bu əsərlərin paralelliyi və bir çox məqamlarda eyniliyi Azərbaycan ədəbiyyatı nümunələrinin tədrisi işini də asanlaşdıracaq, şagirdlərdə milli ədəbiyyata, onun ideyalarının bəşəriliyinə hörmət və sevgi hissini aşılayacaqdır. Gənc nəslin tərbiyəsi, şəxsiyyət kimi formalaşması prosesində dünya ədəbiyyatı ilə tanışlığın, yaş səviyyələrinə uyğun olaraq dünya mədəniyyəti və incəsənətinin humanitar prinsip və düşüncələri arasında əlaqələrin qurulmasının mühüm didaktik, psixoloji əhəmiyyəti vardır. Professor Ağarəhim Rəhimov bu barədə yazır: "Elmi zəmində qurulan təlim təhsilləndirici, inkişafetdirici və tərbiyəedici funksiyaları yerinə yetirir, şagirdlərə möhkəm biliklər verir, zəruri bacarıq və vərdişlər aşılayır, onların ümumi inkişaf səviyyəsini yüksəldir. Bunun üçün, hər şeydən əvvəl, biliklərin verilməsi vasitələri müəyyənləşdirilməlidir. Bəs bu vasitələr hansılardır? Birinci, tədris materialının məzmunu, ikinci, məzmuna uyğun seçilən əyani və texniki vəsaitlər, didaktik materiallar, üçüncüsü isə məzmuna uyğun seçilən priyom və metodlardır. (Xatırladaq ki, biliklərin verilməsində metodlar və priyomlar da bir vasitə rolunu oynaya bilər)" [Rəhimov A.Ç., 2015].

Müasir dövr üçün, müasir insan üçün ən zəruri, ən aktual məsələ "formalaşmış şəxsiyyət", "ləyaqətli insan", "şəxsiyyətin kamilliyi", "daim öyrənməyə cəhd", "rəqabətədavamlı insan" ifadələri və onların əməli şəkildə gerçəkləşdirilməsidir. Bu tələblərin, xüsusilə ibtidai siniflərdə həyata keçirilməsində dünya ədəbiyyatı nümunələrinin səmərəli tədrisinin böyük əhəmiyyəti vardır. Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, şagirdin bilikləri öyrənməsi ardıcıl və sistemli işdir, yəni məktəblə məhdudlaşmır. Şaran B. Merriam yazır: "Böyüklərin həyatları boyu daim öyrəndiklərini hər kəs müəyyən bir səviyyədə bilsə də, öyrənmə formal siniflər və məktəblə o qədər əlaqələndirilib ki, böyüklər özləri də daim öyrənmələrini xatırlamır  və ya qəbul etmirlər" [Contemporary theories

of learning. Second edition. Edited by Knud İlleris. 2018]. Deməli, şagirdin öyrənmə mühitinin dairəsi genişdir və ibtidai sinifdə gerçəkləşən öyrədici məsələlər onun mikro və makro mühitində də özünü göstərməlidir. Məqalədə qeyd etdiyimiz problemlərlə əlaqədar məktəblə ailələr arasında əməkdaşlıq da zəruridir. Bu, pedaqoji tədqiqatların nəticələrinin valideyn-məktəb əməkdaşlığı zəncirində təhsil prosesinin hər bir iştirakçısına çatdırılmasının (həm də bu məqalə ilə bağlı olaraq) zəruriliyini özündə ehtiva edir.

Ümumiyyətlə, şagirdin öyrənmə bacarıqlarının və şəxsiyyətinin formalaşmasını məktəblə məhdudlaşdırmaq qeyri-ciddi yanaşma olardı. Dünyanın aparıcı təhsil araşdırma mərkəzlərinin tədqiqatçıları şagirdi əhatə edən ətraf mühitin də təhlilini aparmış, hansı amillərin onun inkişafına, formalaşmasına təsir etməsini və həmin təsirin miqyasını tədqiq etməyə çalışmışlar. Bütün hallarda ailənin rolu və əhəmiyyətini yüksək qiymətləndirənlər daha çox olmuşdur. Daha aydın olması üçün şagirdi əhatə edən ətraf mühiti *mikro, mezo və makro* mühit (bax: sxem 1) kimi təsnif etməyi məqsədəuyğun saydıq. Hesab edirik ki, öyrətmə və inkişaf prosesində şagird haqqında düzgün qərar vermək baxımından bu sxem müəllimlərə müəyyən kömək göstərəcəkdir.

**Sxem 1**




Əlbəttə, bu sxem dünya ədəbiyyatının milli ədəbiyyatımızın nümunələri ilə paralel tədris edilməsində də istifadə edilə bilər. Biz dərsləri elə qurmalıyıq ki, şagirdi əhatə edən mühitin təsirlərinin müsbət istiqamətini, onun dərsə marağını təmin edək. Təklifimiz ondan ibarətdir ki, dünya ədəbiyyatı nümunələri, imkan daxilində, həm ayrılıqda, həm də paralel, müqayisəli şəkildə tədris olunmalıdır. Əlbəttə, müəllimlər unutmamalıdırlar ki, dünya ədəbiyyatı nümunələrinin orta ümumtəhsil məktəblərində, eləcə də ilk pillə olan ibtidai siniflərdə tədrisində

müəyyən çətinliklər də vardır. Bu çətinliklər hansılardır? Bu məqalədə həmin çətinliklərin qısa təsviri ilə yanaşı, onların aradan qaldırılması, tədrisin daha səmərəli təşkili, müəllimin dərs otaqlarında işinin daha effektiv qurulması ilə bağlı metodik, didaktik və pedaqoji məqamlara aydınlıq gətirməyə, tədris işində nəzəri və praktik nümunələrlə kömək göstərməyə çalışacağıq.

Metodika üzrə müxtəlif məzmun və formada araşdırmalar aparan pedaqoqların təhlillərindən, müəllim və şagirdlərlə apardığımız söhbətlər, müşahidə, müsahibə və sorğulardan aydın olur ki, müəllimlər fənlərin daha səmərəli tədrisi və nəzərdə tutulan standartların reallaşdırılması istiqamətində çalışırlar. Bunun üçün metodistlər də ən optimal metod və vasitələrin tapılmasına xeyli zaman və əmək sərf edirlər. Əlbəttə, yuxarıda sadaladığımız məsələləri bütün məktəblərə və metodistlərə şamil etmək olmaz, lakin görünür ki, cəmiyyətin sosial tələblərə dayanmadan artan maraqlarına əsasən, həmin yollar müxtəlif şəxslər və mərkəzlər tərəfindən həmişə araşdırılacaq. Bu mənada Azərbaycan pedaqoji fikir təcrübəsində də ibtidai siniflərdə tədrisin daha mükəmməl, faydalı təşkil edilməsi ilə bağlı təhlil və tədqiqatlar, təcrübələr davam etdirilməkdədir. Düşünürük ki, həmin fəaliyyətin tərkib hissəsi kimi, ibtidai siniflərdə Azərbaycan dili proqramına Azərbaycan ədəbiyyatı nümunələri ilə yanaşı, dünya ədəbiyyatı nümunələri, onlarla bağlı müəyyən anlayışlar da daxil edilməlidir.

Azərbaycan dili dərslərində nəzərdə tutulan anlayışların mənimsədilməsi, dövlət standartlarının reallaşdırılması milli və xarici ədəbiyyat nümunələrinin nəzəri və praktik cəhətdən qarşılıqlı öyrənilməsi işinin təşkilinə istiqamətlənməlidir. Eləcə də məktəb kursunda öyrənmə prosesində şagirdlərdə mənəvi-ideoloji, estetik tərbiyə məsələlərinin və ədəbi təfəkkürün inkişafı təmin edilməlidir. A.Rəhimov qeyd edir: "İbtidai siniflərdə ana dili təliminin məqsədi şagirdlərə savadlı yazmaq, ifadəli, şüurlu oxumaq, fikrini aydın, dəqiq və məntiqi şəkildə ifadə etmək bacarıq və vərdişləri aşılamaqdan, onların idrak fəaliyyətini yüksəltməkdən, elmi dünyagörüşünü formalaşdırmaqdan və s. ibarətdir. Şagirdlərin əqli, əxlaqi və psixi bacarıqları inkişaf etdirilməli, onlarda müstəqil işləmək, öyrəndiklərini təcrübəyə şüurlu şəkildə tətbiq etmək bacarıqları formalaşdırılmalıdır. Bunun üçün, hər şeydən əvvəl, təlimə güclü maraq və meyil, öyrənməyə böyük inam yaradılmalıdır" [Rəhimov A. 2015].

Şagirdlərin xarici ədəbiyyat nümunələri ilə tanışlığı zamanı əsərlərin filoloji problemləri, didaktik səviyyəsi, qavrayış xüsusiyyətləri ilə bağlı müəyyən anlaşılmazlıqlar ortaya çıxa bilər. Şagirdlərin həmin əsərləri qavrama imkanlarını nümayiş etdirmələri, eləcə də, milli və xarici ədəbiyyat nümunələrinin qavranılmasında oxşar və fərqli cəhətləri üzə çıxarmaları xüsusi idraki əhəmiyyətə malikdir. Şagirdlərin ədəbi əsərləri qavrama xüsusiyyətlərini təhlil etmələri onların qarşılıqlı əlaqədə öyrənilməsinə zəmin yaradır.

Dünya ədəbiyyatı nümunələrinin orta ümumtəhsil məktəblərində tədrisi şagird şəxsiyyətinin, təhsil qanunvericiliyi ilə təsbit olunmuş normativ hüquqi bazanın və eyni zamanda metodik yanaşmaların əsas prioritetlərindən olsa da, həmin nümunələrin tədrisi özlüyündə şagirdlərin bu nümunələri başa düşmələri, məzmunu anlaması və təhlil etməsi baxımından müəllim üçün müəyyən çətinliklər törədə bilər. Apardığımız təhlillər, sorğu və müşahidələr, müsahibələr göstərir ki, dünya ədəbiyyatı nümunələri üzrə işin sistemli qurulmasında da müəyyən çətinliklər özünü göstərməkdədir. Həmin çətinliklərin müəyyən bir hissəsi filoloji, elmi-nəzəri məsələlərin tədrisi, materialların müəllimlər tərəfindən mənimsənilməsi, şagirdlərə çatdırılması ilə bağlıdır. Müəllim sinif işini təşkil edərkən mütləq həmin məsələləri nəzərə almalı və tədrisi səmərəli qurmaq üçün metodik ədəbiyyatda göstərilən, dərsin məqsədinə uyğun seçdiyi standartların düzgün, lazımi şəkildə reallaşdırılmasına çalışmalıdır.

Müəllim bilməlidir ki, Azərbaycan dili fənninin məzmununu reallaşdıran materialları bədii nümunələr təşkil edir. Şagird üçün nəzərdə tutulan bacarıqlar, estetik zövq və təfəkkür tərzi həmin əsərlərin tədrisinin nə dərəcədə düzgün qurulmasından birbaşa asılıdır.

Müəllim tədris prosesində qarşılaşdığı filoloji problemləri bilməli, onların aradan qaldırılması istiqamətində çalışmalıdır. O bilməlidir ki, bədii əsərlər janr, mövzu və ideya, bədii əsərin müəllifinin mənsub olduğu etnik, mədəni düşüncənin xüsusiyyətləri müxtəlifdir. Hər bir ədəbi janrın özünəməxsus cəhətləri, bədii dil və üslub xüsusiyyətləri vardır. Xüsusilə dünya ədəbiyyatı nümunələrinin təhkiyəsi, dialoq və monoloqlar, bədii dil məziyyətləri, həyat hadisələrinə yanaşmalar fərqli ola bilər. Bu baxımdan, həmin əsərlərin şagirdə təsiri də fərqlidir. Buraya tərcümə məsələlərini də əlavə etsək, mənzərə bir az da ciddiləşir. Odur ki, dərslik müəlliflərindən ciddi məsuliyyət və diqqət tələb edilir. Dərs vəsaitlərində kiçik həcmli əsərlərlə yanaşı, iri həcmli əsərlərin müvafiq ideya və məzmun aşılayan hissələri təqdim edilməklə yanaşı, ədəbi dilin imkanlarından düzgün şəkildə istifadə edilmiş, orijinala yaxın tərcümələrə yer verilməlidir.

Müxtəlif ədəbi janrlarda olan əsərlərin oxusunu, təhlilini təşkil etmək, lüğət üzrə işi düzgün qurmaq zəruridir. Müəllimlər ibtidai siniflərdə dünya ədəbiyyatı nümunələrinin tədrisi zamanı istər-istəməz şagirdlərin qavrama və dərketmə problemləri ilə əlaqədar müəyyən çətinliklərlə qarşılaşırlar. Əsərlərin məzmunundan, yazıçının qayəsindən, aid olduğu ədəbi cərəyandan asılı olaraq bu çətinliklər arta da bilər. "Doğrudur, şagirdin fəaliyyəti yalnız dərsliklə deyil, həm də dərs vəsaitləri, əyani vəsait və didaktik materiallarla, təlimin digər vasitələri ilə, xüsusilə müəllimin nəzəri-metodik hazırlığı ilə şərtlənir və idarə olunur. Bununla belə, həmin vəzifənin həllində dərsliyin rolunu azaltmaq olmaz"[ Kərimov Y., 2011].

Əlbəttə, bunun üçün müəllimlər aşağı siniflərdən başlayaraq, dünya ədəbiyyatı nümunələrinin məzmunu, lüğəti, oxusu və təhlili üzərində səmərəli şəkildə işləməli, şagirdləri müxtəlif məzmunlu bədii əsərləri qavramağa, dərk etməyə istiqamətləndirməlidirlər. Müəllim bilməlidir ki, şagird sinifdən-sinfə keçdikcə onun həm söz ehtiyatı artır, həm nisbətən daha çətin və mürəkkəb bədii-estetik materiallarla işləmək bacarıqları inkişaf edir, həm də dünyagörüşü müxtəlif kənar amillərin təsiri ilə fərqli istiqamətlərdə, yüksələn xətlə formalaşır.

Deməli, şagirdin qavraması, yaddaşı və fiziki imkanları dərslərdə mütləq nəzərə alınmalı, bilik və bacarıqları inkişaf etdirilməli, xüsusi tapşırıqlar və məşğələlərlə yeni keyfiyyətlər qazanmalıdır. Müəllim müəyyən dünya ədəbiyyatı nümunəsini tədris edərkən, standartları reallaşdırarkən əsərdəki obrazların psixoloji davranışlarını izah etməli, hətta həyat hadisələrinin təsvirini, fərqliliyini, təhkiyə özəlliyindən doğan psixoloji müxtəlifliyi şagird üçün aydınlaşdırmalıdır.

Ədəbiyyat fənni orta məktəblərdə V sinifdən başlayaraq XI sinfə qədər tədris edilir, yəni həm ümumi orta təhsil, həm də tam orta təhsil səviyyəsində orta məktəblərdə ədəbiyyat fənni tədris proqramının mühüm bir hissəsidir. Bu təhsil səviyyəsi üzrə təhlil etdikdə ədəbiyyat fənni üzrə materialların da iki mərhələyə bölündüyünü görürük. Materiallar V–IX siniflər və X–XI siniflər, V–IX siniflər üzrə materiallar da V–VII siniflər, VIII–IX siniflər üzrə fərqlənir. Bu işin bünövrəsi isə ibtidai siniflərdə qoyulur. Deməli, ibtidai sinif müəlliminin məsuliyyəti daha ağırdır.

Eyni zamanda, müəllimlər şagirdlərin bədii-estetik zövqünü inkişaf etdirməli, milli və dünya ədəbiyyatı nümunələri əsasında onların dünyagörüşünün, həyata baxışının inkişaf etdirilməsi üzərində çalışmalıdırlar. Əlbəttə, bu işdə müəllimin üzərinə böyük və ağır yük düşür. Dərsliklərdə təqdim edilmiş nümunələr məhz müəllimin təqdimatında, müəllimin istiqamətləndirməsində xüsusi əhəmiyyətə malik olur və şəxsiyyətin formalaşdırılmasında əhəmiyyət daşıyır.

Ə.Abbasov yazır: “Bu bir həqiqətdir ki, müasir dünyanın təhsil meridianında sadəcə biliklərin öyrənilməsi, bacarıqların mənimsənilməsi, yadda saxlanılması və həyata keçirilməsi başlıca məqsəd deyil. Psixoloqların, eləcə də sosioloqların araşdırmalarına görə, yeni dövr mədəniyyəti üçün insan vasitə idi, müasir mədəniyyət üçün isə məqsəddir. Şəxsiyyətin formalaşması və inkişafı onun üçün başlıca məqamdır. Müasir mədəniyyət, ilk növbədə, humanitar mədəniyyətdir” [“Kurikulum” jurnalı. 2019, №1].

Müəllim sinifdə bədii əsərin təhlili işini təşkil etməlidir. Təhlil prosesində tələblər ardıcıllıqla yerinə yetirilməli, müəllim şagirdin son təhlil materialını qiymətləndirməklə kifayətlənməməli, prosesin özünü də düzgün həyata keçirilməsini qiymətləndirməyə çalışmalıdır.

Dünya ədəbiyyatı nümunələrinin tədrisi zamanı müəllim daha diqqətli olmalı və pedaqoji-psixoloji səriştə nümayiş etdirməlidir. Müəllim bilməlidir ki, milli ədəbiyyat nümunələri ilə müqayisədə dünya ədəbiyyatı nümunələrinin tədrisi, həmçinin müqayisəli tədrisi müəyyən çətinliklər yarada bilər. Bu çətinliklərlə bağlı müəyyən sorğular, müşahidə və müsahibələr həyata keçirmişik. Həmin didaktik problemləri sistemli şəkildə aşağıdakı kimi qruplaşdıra bilərik:

• əsərdə təsvir edilmiş fərqli mentalitetin şagirdlər tərəfindən düzgün anlaşılmaması;

• əsərdə özünü göstərən fərqli yazı tərzinin, təhkiyə tərzinin yaxşı qavranılmaması;

• tərcümə zamanı yol verilən xətaların, fərqli təqdimatların əsərin mahiyyətinə mənfi təsiri;

• obrazların adlarının milli adlardan fərqlənməsi və bunun yaratdığı çətinliklər;

• müasir dövrdə mövzunun fərqliliyi və ya aktuallığı;

• məzmunun, problemin doğurduğu fərqliliklər və s.

Bunları reallaşdırmaq üçün müəllim nə etməlidir? Axı dövlət standartlarının reallaşdırılması təlim nəticələrinin alınmasında əsas şərtdir. Reallaşdırılmayan hər hansı bir standart şagird şəxsiyyətinin inkişafının qarşısında duran ciddi bir maneədir. Odur ki, ibtidai sinif müəllimi xüsusilə dünya ədəbiyyatı nümunələrini tədris edərkən əsərin oxusunu düzgün təşkil etməli, lüğət üzrə dəqiq iş aparmalı, istiqamətləndirici suallardan daha çox istifadə etməlidir. Rus pedaqoq-alimi L.D.Mali ibtidai siniflərdə ədəbiyyatın təhsili və tədrisi ilə bağlı yazırdı: "İbtidai sinif şagirdlərinin təhsil sistemində əsas bacarıq kimi şüurlu, düzgün, səlis oxumaq; düzgün və ifadəli oxunu mənimsəmək; bədii, yaradıcı və idrak qabiliyyətlərinin inkişaf etdirilməsi; emosional həssaslıq, sözə estetik münasibətin formalaşdılrması; kitaba marağın artırılması, mənəvi təcrübəni zənginləşdirmək; yaxşılıq və pislik haqqında fikirlər aşılamaq; əxlaq tərbiyəsi; bütün xalqların mədəniyyətinə hörmət aşılanması təhsilin əsas məqsədlərindəndir" [L.D.Mali, 2014].

Beləliklə, ibtidai siniflər üzrə Azərbaycan dili dərslikləri müəllimə qarşılıqlı əlaqədə, nəzəri anlama səviyyəsində olan məlumatlar təqdim edir. Müəllim bu problemin həllində aparılmış tədqiqatların nəticələrinə və müəyyən təcrübəyə əsaslanaraq, şagirdləri mövcud proqramla əlaqədar işlərin təşkili və aparılması üçün materialla təmin edir.

İbtidai sinif müəllimi bədii mətnlərə yalnız oxu bacarıqlarının inkişaf etdirilməsi resursları kimi baxmamalıdır. Həmin mətnlər şagirdin dünyagörüşünü, məntiqini, şəxsiyyətini formalaşdırır, onun estetik zövqü inkişaf edir. Eyni zamanda, ibtidai sinif səviyyəsinin verdiyi imkanlar daxilində milli və dünya ədəbiyyatı nümunələrinin müqayisəli öyrədilməsi, dünya ədəbiyyatı nümunələrinin

daha məqsədyönlü və sistemli tədris edilməsi şagirdin ədəbiyyat fənninə marağını inkişaf etdirən amil kimi çıxış edir. Onlar dünyanı vahid bir məkan kimi dərk etməklə yanaşı, həm də Azərbaycan ədəbiyyatının bədii-poetik cəhətdən dünya ədəbiyyatından geri qalmadığını, zənginliyini "kəşf edirlər".

Müqayisəli tədrislə bağlı bir neçə məqama məqaləmizin həcminin verdiyi imkanlar daxilində nəzər salmağı zəruri hesab edirik. 4-cü sinfin "Azərbaycan dili" dərsliyinin 40-cı səhifəsində "Sözün qüdrəti" adlı rəvayət təqdim edilmişdir. Rəvayət şagirdin estetik zövqünün inkişaf etdirilməsi, müdrik sözə dəyər verməsi baxımından əhəmiyyət daşıyır. Mətnin tədrisinə 2 saat vaxt ayrılıb. Müəllim üçün metodik vəsaitdə mətnin tədrisi ilə bağlı 1.1.2, 2.1.3, 2.2.4, 3.1.2, 4.1.4 alt standartlarının reallaşdılırması nəzərdə tutulub.

Hesab edirik ki, bu dərslərdə müəllim Bəhlul Danəndə ilə bağlı lətifələrlə də müqayisə aparsın. Eyni zamanda, fikri daha dəqiq və düzgün çatdırma xüsusiyyətini aşılamaq üçün Molla Nəsrəddin lətifələri ilə bağlı paralellər, müqayisələr aparmaq məqsədəuyğun olardı.

Hazırda ümumtəhsil məktəblərində istifadə olunan ibtidai siniflər üzrə Azərbaycan dili dərsliklərində verilmiş milli ədəbi nümunələrin dünya ədəbiyyatı nümunələrinə nisbəti aşağıdakı sxemdə olduğu kimidir.

**Azərbaycan dili dərsliklərində verilmiş milli ədəbi nümunələrin dünya ədəbiyyatı nümunələrinə nisbəti**

| **II sinif** | | **III sinif** | | **IV sinif** | |
|---|---|---|---|---|---|
| **Mövcud mətnlər** | **Dünya ədəbiyyatı** | **Mövcud mətnlər** | **Dünya ədəbiyyatı** | **Mövcud mətnlər** | **Dünya ədəbiyyatı** |
| 97 mətn | 12 mətn | 98 mətn | 15 mətn | 88 mətn | 6 mətn |

2-ci sinfin "Azərbaycan dili" dərsliyində dünya ədəbiyyatından aşağıdakı nümunələr verilmişdir: "İki güzgü" (s.22–24, B.Leonidov), "Sehrli söz" (s.31, V.Oseyeva), "Yaşıl fincan" (s.48, L.Tolstoy), "Xilaskar it" (s.101, L.Tolstoy), "Papaqçı və meymunlar" (s.102, hind rəvayəti), "Rəhmli küçük" (s.112, G.Tsiferov), "İki gonbul və dovşan" (s.126, S.Mixalkov), "Dostlar səfərdə" (s.134, S.Mixalkov), "Ana təbiətin uşaqlara məktubu" (s.138, S.Sximmen), "Tülkü və dəvə" (s.172, S.Behrəngi), "İki ayı balası" (s.186, rus xalq nağılı), "Əkinçi və canavar" (s.192, özbək xalq nağılı).

3-cü sinfin "Azərbaycan dili" dərsliyində dünya ədəbiyyatı üzrə aşağıdakı nümunələr verilmişdir: "Məktəbdə bir gün" (s.12, C.Rodarinin "Görünməz Tonino" hekayəsi əsasında), "Otuz altı, altı" (s.19, S.Mixalkov), "Yaşıl karandaş" (s.31, V.Oseyevanın "Göy yarpaqlar" hekayəsi əsasında), "Üç oğlan" (s.50, V. Oseyevanın "Nə daha asandır?" əsəri əsasında), "Ağac" (s.72, A.Kuznetsov), "Leylək və Bülbül" (s.74, V.Berestov), "Qar dənəsi" (s.82, S.Behrəngi), "Şahzadə və dilənçi" (s.89, M.Tven), "Qavroş" (s.101, V.Hüqonun "Səfillər" romanından), "Balaca və Karlson"(s.104, A.Lindqren), "Əkinçi və oğlu" (s.164, A.Çernyayevskninin "Vətən dili" kitabından), "Dəniz qorxusu" (s.171, S.Şirazi), "Ata nəsihəti" (s.172, S.Şirazi), "Siçan və Dəvə" (s.176, C.Rumi), "Daha mənə ehtiyac yoxdur" (s.183, Bəhlul Danəndənin lətifəsi).

4-cü sinfin "Azərbaycan dili" dərsliyində dünya ədəbiyyatı üzrə aşağıdakı nümunələr verilmişdir: "Tom özünü fəda edir" (s.31, M.Tvenin "Tom Soyyerin macəraları" əsəri), "Natiqlik məharəti haqqında" (s.38, "Qabusnamə"), "Mauqlinin dostları" (s.127, R.Kiplinq), "Uşaqlıq dostu" (s.136, V.Draqunski), "Səxavətli ağac" (s.140, Amerika uşaq yazıçısı Ş.Silversteyn), "Çiçək – yeddi rəng ləçək" (s.179, V.Katayev).

Bu nümunələrlə bağlı onu deyə bilərik ki, dərslik tərtibçilərinin növbəti nəşrlərdə şagird şəxsiyyətinin və dünyagörüşünün inkişaf etdirilməsi sahəsində dünya mədəni irsində qəbul olunmuş maraqlı və əhəmiyyətli olan nümunələrdən istifadə etmələri, onların sayının artırılması məqsədəuyğun olardı.

## Nəticə / Conclusion

Əlbəttə, yuxarıdakı ədəbi nümunələrin kəmiyyəti, eləcə də keyfiyyəti bizi qane edə bilməz. Düşünürük ki, gələcək nəşrlərdə və tərtibatlarda dərslik müəllifləri dünya ədəbiyyatının şah əsərləri siyahısına düşmüş, şagird şəxsiyyətinin formalaşdırılması baxımından ciddi əhəmiyyət kəsb edən, planetar təfəkkürün inkişaf etdirilməsi istiqamətində qiymətli olan ədəbi nümunələrdən daha çox istifadə edəcəklər.

Əgər ümumtəhsil məktəblərinin ibtidai siniflərində:

- tədris olunan ədəbiyyat nümunələrinin təlim-tərbiyə imkanları əhatəli öyrənilərsə;
- onların tədrisinin elmi-nəzəri, didaktik, psixoloji əsasları müəyyənləşərsə;
- bədii nümunələr üzərində işin imkan və yolları dəqiq aydınlaşdırılarsa;
- əsərlərin təhlilində, tədrisində müasir metodoloji əsaslara və didaktik prinsiplərə riayət edilərsə;
- təlim metodlarından məqsədəuyğun şəkildə istifadə olunarsa;

- xarici ölkə ədəbiyyatı nümunələrinə aid zəruri ədəbiyyat nəzəriyyəsi anlayışları nəzərə alınarsa;
- şagirdlərin milli-mənəvi dəyərlərlə yanaşı, ümumbəşəri ideyalar əsasında tərbiyə olunmasında xarici ədəbiyyat nümunələrinə, sinifdənxaric və müstəqil oxu üzrə işin imkanlarına istinad olunarsa, şagirdlərin müxtəlif ədəbi janrlara aid bilik və bacarıqları dəqiqləşər, dərinləşər, məntiqi, tənqidi və yaradıcı təfəkkürü daha yüksək formada və dərinlikdə inkişaf edər.

Beləliklə, şagirdlərin ədəbi növ və janrlarla bağlı bilikləri dəqiqləşər, onlar həm milli-mənəvi, həm ümumbəşəri, həm də bədii-estetik dəyərlərə yiyələnərlər.

**Problemin aktuallığı.** Müasir dövrdə, qloballaşma şəraitində beynəlxalq miqyasda cərəyan edən hadisələr (pandemiya, texnoloji yeniliklər, innovasiyalar) təhsil sisteminin yeni şəraitə uyğunlaşması zərurətini meydana çıxarır. Təlim texnologiyalarının, təhsil qanunvericiliyinin, yeni fənn proqramlarının yaradılması, işlək təlim və təhsil menecerliyi mexanizminin formalaşdırılması aktual problemdir və bütün bu problemlərə müvafiq platformaların təşkil edilməsi əsas humanitar-pedaqoji istiqamətlərdən biri olmalıdır.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, məqalənin müəllifi dərslik müəlliflərini gələcək dərslikləri tərtib və nəşr edərkən dünya ədəbiyyatı siyahısına düşmüş, şagird şəxsiyyətinin formalaşdırılması baxımından ciddi əhəmiyyət kəsb edən, planetar təfəkkürün inkişaf etdirilməsi istiqamətində dəyərli olan ədəbi nümunələrdən daha çox istifadə etməyə çağırır.

**Problemin praktik əhəmiyyəti.** İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi zamanı şagirdlərə milli və bəşəri dəyərlər aşılanmalı, onların məntiqi, tənqidi və yaradıcı təfəkkürü formalaşdırılmalıdır. Əlbəttə, orta məktəbdə tədris olunan hər bir fənnin şagird şəxsiyyətinin, məntiqinin, dünyagörüşünün formalaşdırılması, inkişaf etdirilməsində xüsusi rolu vardır. Etiraf etmək lazımdır ki, bu istiqamətdə Azərbaycan dili fənninin rolu zəruri, dərin məzmunlu, yüksək estetik keyfiyyətli materialların verdiyi imkanlar ölçüyəgəlməzdir.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası// "Azərbaycan məktəbi", 2013, № 5, s.10–24.
2. Azərbaycan dili. (2-ci siniflər üçün dərslik). Bakı: "Altun kitab", 2019, 208 s.
3. Azərbaycan dili. (3-cü siniflər üçün dərslik). Bakı: "Altun kitab", 2019, 208 s.

4. Azərbaycan dili. (4-cü siniflər üçün dərslik). Bakı: "Altun kitab", 2019, 224 s.
5. Azərbaycan dili. (4-cü sinif. Metodik vəsait). Bakı: "Altun kitab", 2019, 243 s.
6. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı: "Kövsər", 2011, 564 s.
7. "Kurikulum" // Cild 12, №1 (45), 2019, səh.7-16.
8. Rəhimov A. Əsərləri. 20 cilddə. XX cild (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, BQU-nun nəşriyyatı, 2015, 470 s.
9. Bertrand R. Bilimdən beklediklerimiz. İstanbul: "Varlık" yayım evi, 1962, 189 s.
10. Vıqotskiy L.S. Razvitie vısşey formı vnimaniya v detstve. M., 1976. 186 s.
11. Contemporary theories of learning. Second edition. Edited by Knud İlleris. USA, New York. 2018. 276 page, p.83.
12. Mali L.D. Metodika obuçeniya russkomu yazıku i literature v naçalnıx klassax. Penza: İzdatelıstvo PQU, 2014, 228 s.

# THE CONTENT, GOALS AND OBJEKTIVES OF THE WORK ON THE SOCIALIZATION OF CHILDREN IN PRESCHOOL AGE

**Gulnar Valiyeva**
Doctoral student of the Doctor of Philosophy
program of the Institute of Education of the Republic of Azerbaijan
Email: pedagoggulnaretibar@gmail.com
https://orcid.org/0000-0002-1333-8401

**Abstract.** The article discusses the goals and objectives of the child's socialization, its content. It is noted that the socialization of the child occurs primarily within the family. The child's social and emotional development in the early years is the basis of his behavior in later years. Social relationships will be significantly formed for the child who learns behavioral patterns by observing others. Growing up in a safe and loving family environment, a child learns social norms, knowledge, and skills related to life. The article also notes that the increase in attention to preschool education in recent years has significantly increased the role of preschool education, which is the child's second social environment. On this basis, the family's cooperation with preschools is expanding.
**Keywords:** preschool age, socialization, social development, family, kindergarten

**To cite this article:** Gulnar V.(2021) The content, goals and objektives of the work on the socialization of children in preschool age. *Journal of Preschool and Primary Education*, V.236, İssue III, pp. 95-107
**Article history:** Received – 20.09.2021; Accepted – 26.09.2021.

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ UŞAQLARIN SOSİALLAŞMASI ÜZRƏ İŞİN MƏZMUNU, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**Gülnar Vəliyeva**
Azərbaycan Respublikası Təhsil İnstitutunun fəlsəfə doktoru
proqramı üzrə doktorantı,
E-mail: pedagoggulnaretibar@gmail.com
https://orcid.org/0000-0002-1333-8401

**Annotasiya.** Məqalədə uşağın sosiallaşmasının məqsəd və vəzifələrindən, məzmunundan bəhs edilir. Qeyd olunur ki, uşağın sosiallaşması əvvəlcə ailə daxilində baş verir. Uşağın ilk illərdə sosial və emosional inkişafı sonrakı illərdə onun davranışının əsasını təşkil edir. Başqalarını müşahidə edərək davranış nümunələri qazanan uşaq üçün sosial münasibətlər əhəmiyyətli dərəcədə formalaşacaqdır. Təhlükəsiz və mehriban bir ailə mühitində sevgi ilə böyüyən uşaq həyatla əlaqədar cəmiyyət normalarını, bilik və bacarıqları mənimsəyir. Həmçinin, məqalədə qeyd olunur ki, son illərdə məktəbəqədər təhsilə diqqətin artması, uşağın ikinci sosial mühiti olan məktəbəqədər təhsil müəssisələrinin rolunu əhəmiyyətli dərəcədə yüksəldir. Bu zəmində məktəbəqədər təhsil müəssisələri ilə ailənin əməkdaşlığı geniş vüsət alır.

**Açar sözlər:** məktəbəqədər yaş dövrü, sosiallaşma, sosial inkişaf, ailə, məktəbəqədər müəssisə.

**Məqaləyə istinad:** Vəliyeva G. (2021) Məktəbəqədər yaş dövründə uşaqların sosiallaşması üzrə işin məzmunu, məqsəd və vəzifələri. "*Məktəbəqədər və ibtidai təhsil*", № 3 (236), səh. 95-107
**Məqalə tarixçəsi:** göndərilib – 20.09.2021; qəbul edilib – 26.09.2021.

## Giriş / Introduction

*Sosiallaşma* – hər bir fərdin formalaşmasını xarakterizə edən proseslər arasında ən geniş yayılmış anlayışdır. Bu, yalnız uşağın ictimai həyatın hazır forma və metodlarını şüurlu şəkildə mənimsəməsini, maddi və mənəvi dəyərlərin formalaşdırılması yollarını, cəmiyyətə uyğunlaşmasını deyil, həm də öz sosial təcrübəsinin, dəyərlərinin inkişafını (böyüklər və yaşıdları ilə birlikdə) əhatə edir. Həmçinin sosial və emosional inkişaf – fərdlərin sosial və emosional səriştə qazanmaq üçün inkişaf etdirdiyi bacarıq, yanaşma və dəyərləri öyrənmə prosesidir. Sosial bacarıqların inkişaf etdirilməsində məqsəd fərdlərin yaşadıqları cəmiyyətə uyğunlaşmalarına kömək etməkdir. Uşağın yaşadığı cəmiyyətin ictimai qanunauyğunluqlarına əməl etməsi onun sosial inkişafı ilə əlaqədardır, çünki həyatın ilk illərində baş verən sosial inkişaf sonralar onun sosial davranışının əsasını təşkil edir. Uşağın sosial bacarıqlara yiyələnməsi yalnız sağlam sosial inkişaf nəticəsində baş verir. Uşaqlarda sosial bacarıqların formalaşdırılmasına məktəbəqədər yaşdan etibarən başlanılmalıdır.

## Əsas hissə / Main Part

Uşaq dünyaya gəldiyi gündən ailənin və cəmiyyətin üzvüdür. O, yaşadığı cəmiyyətə uyğunlaşmaq və normal şəraitdə yaşamaq üçün düşüncə, iş və hissetmə qabiliyyətlərindən istifadə edir. Sosial bacarıqların inkişafı uşağın anadan olduğu vaxtdan başlayır və onun həyatı boyu davam edir. Lazımi sosial bacarıqların vaxtında qazanılmaması sonralar fərdin həyatına mənfi təsir göstərir. Uşaqlıq dövrü – sosial inkişafın ən gərgin və davamlı olduğu dövrdür. Sosial və emosional inkişaf dövründə uşağın ətraf mühitə uyğunlaşması vacibdir. Buna görə də sosial bacarıqlar uşaqlara mümkün qədər erkən yaşlarda öyrədilməlidir.

"Uşaq sosial mühitdə doğulur. Uşağın dünyaya gəldiyi sosial mühit, ona münasibət, ehtiyaclarını qarşılamaq yolları, reaksiyaları, davranış xüsusiyyətləri fiziki və mənəvi inkişafda, şəxsiyyətin formalaşmasında mühüm amildir" [Altınköprü, 2003].

İnsan bioloji və sosial varlıqdır. Mədəni şəraitdə sosial münasibətlər həm cəmiyyətin, həm mədəniyyətin, həm də fərdin inkişafına təsir göstərir. Fərdin bütün həyatı onun mühitə uyğunlaşma səyindədir. Bu harmoniya səyi doğuşdan başlayaraq həyatın sonuna qədər davam edir.

İnsanların yaşadıqları fiziki və sosial mühitə uyğunlaşmalarını təmin edən sosial inkişaf yazılı mənbələrdə belə müəyyən edilmişdir: *Sosial inkişaf* – doğuşdan başlayaraq ömür boyu davam edən, insanın başqaları ilə müsbət əlaqələr qur-

masına və yaşadığı cəmiyyətə uyğunlaşmasına imkan verən bir prosesdir, onun xaricində olanlarla qurulan əlaqələrin inkişafıdır.

"Sosial inkişaf – sosial stimullara, xüsusən, qrup həyatındakı təzyiqlərə və çətinliklərə qarşı həssaslığı inkişaf etdirən, öz qrupunda və ya mədəniyyətində başqaları ilə yaxınlaşa bilən, onlar kimi davranan bir insanın inkişafıdır" [Yavuzer, 1994].

Yuxarıda göstərilənlərə əsasən, sosial inkişafın doğuşdan başlayan, ömür boyu davam edən, insanın başqaları ilə müsbət sosial əlaqələr qurmasına, yaşadığı cəmiyyətə uyğunlaşmasına imkan yaradan bir müddət olduğu söylənilə bilər. Uşaq sosial mühitdə doğulur. Onun dünyaya gəldiyi sosial mühit, ona münasibət, ehtiyaclarını qarşılamaq yolu, reaksiyaları, davranış xüsusiyyətləri fiziki və mənəvi inkişafda, şəxsiyyətin formalaşmasında mühüm amildir.

F.A.Mustayevaya görə, sosiallaşma – insanın ətraf aləmlə qarşılıqlı münasibətdə inkişaf prosesidir. L.V.Mardaxayev isə sosiallaşmanı şəxsiyyətin formalaşması, uşağın nitqini, sosial dəyərləri və təcrübəsini (normaları, münasibətləri, davranış qaydaları və s.), yaşadığı cəmiyyətə xas olan mədəniyyəti, aid olduğu qrupu, təkrar istehsal və zənginləşdirmə prosesi kimi müəyyənləşdirir. A.V.Mudrik sosiallaşma problemini, onun təhsillə əlaqəsini nəzərə alaraq, bunu cəmiyyətin mədəniyyətini mənimsəmək, insanın həyatı boyu inkişafı və özünütəsdiqi kimi tərif edir. Psixoloji lüğətdə *sosiallaşma* – fərd tərəfindən sosial təcrübə, öz təcrübəsində sosial əlaqə və münasibətlər sistemi tərəfindən assimilyasiya və aktiv ünsiyyət prosesi, onun nəticəsi kimi qəbul edilir.

M.A.Qalaquzova uşağın sosiallaşma müddətini müəyyən sosial təcrübə (bilik, dəyərlər, davranış qaydaları şəklində) qazanaraq, uşağın cəmiyyətə inteqrasiya prosesi kimi müəyyən edir. Uşağın sosiallaşması çox uzun sürən və mürəkkəb bir prosesdir. Bir tərəfdən, cəmiyyət, hər şeydən əvvəl, hər bir uşağın sosial və mənəvi dəyərlər sistemini, ideallarını, normalarını və davranış qaydalarını qəbul edib mənimsədiyi üçün bu cəmiyyətdə yaşamasında, onun tam hüquqlu üzvü olmasında maraqlıdır. Digər tərəfdən, uşağın şəxsiyyətinin formalaşmasına ətraf həyatda baş verən müxtəlif proseslər də böyük təsir göstərir.

İnsanların yaşadıqları fiziki və sosial mühitə uyğunlaşmaları, sağlam, xoşbəxt və uğurlu bir həyat sürmələri çox vacibdir. Buna görə də sosial inkişaf insan həyatında böyük əhəmiyyətə malikdir.

Sosial birlik insan həyatının əvəzolunmaz bir xüsusiyyətidir. Sağlam sosial qarşılıqlı əlaqə öz həyatlarını münasibətlər şəbəkəsində yaşayan insanların harmoniya və xoşbəxtliyində böyük rol oynayır. Uşağın sosial davranışı münasibət qurduğu iki qrupun – ailə və yaşıdlarının reaksiyaları kontekstində nəzərdən keçirilir. Uşaqlar ilk münasibətlərini qurduqları böyüklərdən asılı və zəifdirlər. Beləliklə, uşaqlarla böyüklərin münasibətləri, bir növ, bərabərsizliyə əsaslanır.

Sonrakı illərdə uşaqların yaşıdları ilə münasibətləri getdikcə daha vacib hala gəlir. Uşaqlar yaşıdlarının onlara göstərdikləri reaksiyalardan hansılarını qəbul, hansılarını rədd edəcəklərini öyrənirlər. Buna görə də sosial qüvvələr bu güc bərabərliyinə əsaslanan münasibətlərdə öyrənilir.

Uşağın yaşıdları tərəfindən qəbul edilməsi onun kifayət qədər sosial bacarıqlara sahib olması ilə birbaşa əlaqəlidir [Grusec & Lyutton, 1998].

Uşağın ilk illərdə sosial uyğunlaşma və bacarıqlarının inkişafı sonrakı illərdə onun sosial adaptasiyası və bacarıqlarının əsasını təşkil edir. Başqalarını müşahidə və təqlid edərək davranışlar qazanan uşaq üçün təhsildə izlənilən ünsiyyət və münasibətlər onun yaşayacağı sosial uyğunlaşma və bacarıqları əhəmiyyətli dərəcədə formalaşdırır. Təhlükəsiz və isti bir ailə mühitində sevgi ilə böyüyən uşaq cəmiyyətin davranış normalarını, həyati vərdişləri və həyata uyğunlaşma ilə əlaqədar bilik-bacarıqları öyrənir. Sosial bacarıqları olmayan uşaqlar dostları tərəfindən rədd edilir və akademik cəhətdən uğursuz olurlar. Belə uşaqların gələcəkdə sosial və emosional problemlərlə qarşılaşma ehtimalı həmyaşıdlarından daha yüksəkdir [Çağdaş & Seçer, 2002].

Ailə – məktəbəqədər yaşlı uşağın həyatında ən təsirli sosiallaşma qurumudur. Uşağın ilk sosial davranışları ailə üzvləri ilə qarşılıqlı əlaqə nəticəsində qazanılır [Çağdaş & Seçer, 2002]. Uşaqlar əvvəlcə qaydaları ailənin digər üzvləri ilə qarşılıqlı əlaqədə öyrənirlər. Digər tərəfdən, uşaqların məktəb kimi yeni bir sosial mühitə daxil olmaları onların rəhbərlik anlayışlarına bir çox cəhətdən təsir edir. Korkmazlara görə, məktəb uşaqlar üçün yeni və mürəkkəb bir sosial mühitə girmək, cəmiyyətdə fərd olaraq iştirak etmək və dünyaya açılmaq deməkdir [Korkmazlar,1998].

A. Banduraya görə, öyrənmə sosial mühitdə meydana gəlir. Uşaqların ən vacib öyrənmə təcrübələri başqalarının davranışlarını müşahidə etməklə baş verir [Cüceloğlu, 1991].

Uşaq şəxsiyyətlərarası münasibətləri qiymətləndirmək üçün cəmiyyətdə mövcud olan mənəvi dəyərləri, standartları və münasibətləri ailədə öyrənir. Bu öyrənmə prosesində özünənəzarət, daxili nəzarət təkmilləşir. Daxili nəzarətdə olan şəxs öz istəkləri ilə cəmiyyətin tələbləri arasında bir tarazlıq yaratmağı bacararsa, öz reaksiyaları ilə davranışını istiqamətləndirə bilər. Bu inkişaf səviyyəsində xarici təzyiq olmadığı hallarda cəmiyyət normalarına uyğun davranışlar meydana gəlir. Başqa sözlə – uşağın sosial qaydaları qavramasına ailənin ilk və ən vacib təsiri var. Valideynlər, övladlarının məlumat ötürücüsü olaraq, mədəni dəyərlərin və qaydaların davamlılığını təmin edirlər. Ailə –uşağın ilk sosial təcrübələrini əldə etdiyi yerdir.

Ailənin uşağa olan münasibəti və davranışları uşağın ilkin həyat təcrübəsində böyük əhəmiyyətə malikdir. Bir tərəfdən, uşaq sosial varlıq olduğunu başa düşür,

digər tərəfdən də davranışını təqlid etmək üçün həmişə bir modelə ehtiyac hiss edir. Məktəbəqədər yaşlı uşaqlar valideynlərindən nümunə götürür, onların rəftar və davranışlarını təqlid edir, öz yaddaşlarında möhkəmləndirməyə çalışırlar. Uşaqlar ana və atalarını modelləşdirərkən onların mədəni dəyərlərini və qaydalarını öyrənirlər. Beləliklə, yaşadıqları mədəniyyətə zidd olmayan, müvafiq davranışlar nümayiş etdirirlər.

Uşağın bəzi bilik və bacarıqları sonradan öyrənməsi mümkündür. Gec öyrənilmiş bilik və bacarıqlar uşağın sosial adaptasiyasını poza bilməz, lakin lazımi sosial davranışlar vaxtında öyrənilməzsə, gələcəkdə bunların öyrənilməsi daha çətin ola bilər.

İnsanların müxtəlif maraqları və münasibətləri də sosial inkişafın nəticəsidir. Xarakter və şəxsi xüsusiyyətlər bir sıra sosial şərtləndirmə yolu ilə də əldə edilir. Uşaqlarda baş verən intizam problemlərinin əsas səbəbi sosial uyğunlaşmanın olmamasıdır. 15–20 yaş dövründə tez-tez rast gəlinən uyğunsuzluqların mənbəyi, uşağın həyatının ilk illərində keçirdiyi ictimai həyatdır. Bu səbəbdən ailədə və məktəbdə uşağın sosial inkişafına lazımi diqqət yetirilməlidir.

**A.V.Mudrik sosiallaşma prosesini dörd komponentin birləşməsi kimi qəbul edir:**

**1.** ***Spontan sosiallaşma*** – qarşılıqlı münasibətlərdə, həyat və cəmiyyət hadisələrinin mahiyyəti və nəticələri, sosial-ekoloji, sosial-mədəni reallıqlar tərəfindən müəyyən edilən obyektiv şərtlərin təsiri altında formalaşmış sosiallaşmadır.

**2.** ***Nisbətən istiqamətləndirilmiş sosiallaşma*** – dövlətin, inkişafın məcburi minimumu müəyyənləşdirilərək, müəyyən yaş qruplarının həyat yoluna, inkişaf imkanları və təbiətinin dəyişməsinə obyektiv təsir edən problemləri həll etmək üçün görülən müəyyən iqtisadi, qanunverici, təşkilati tədbirlərdir. Bunlara təhsil sahəsində nizamlayıcı qanunlar, təhsil istiqamətləri, gənclik dövründə ordudakı xidmət şərtləri və s. aiddir.

**3.** ***Sosial cəhətdən idarə olunan sosiallaşma*** – cəmiyyət və dövlət tərəfindən insanın inkişafı (tərbiyəsi) üçün hüquqi, təşkilati, maddi və mənəvi şəraitin planlı şəkildə yaradılması nəticəsində formalaşmış sosiallaşmadır.

**4.** ***Subyektiv və obyektiv şəraitə uyğun olan*** və ya əksinə – bir insanın azad seçimi ilə təmin edilən sosiallaşma [Mudrik A.V., 2014].

A.V.Mudrikə görə, sosiallaşma prosesinin məzmunu, uğurlu sosiallaşmanın formalaşdırılması ailə və təhsil mühitində uşağa sosial həyatda iştirak etmək, ailə qanunlarına əməl etmək və qanuna tabe olan vətəndaş olmaq fikirlərinin aşılanmasından asılıdır.

**A.V.Mudrik sosiallaşmanın aşağıda qeyd edilmiş vəzifələrini müəyyənləşdirmişdir:**

– təbii-mədəni vəzifə – hər yaş mərhələsində müvafiq fiziki və cinsi inkişaf

səviyyəsinə çatmaq;

– sosial-mədəni vəzifə – hər yaş mərhələsinə xas olan idraki, mənəvi və etik inkişafa nail olmaq;

–sosial-psixoloji vəzifə – şəxsiyyətin özünüdərkinin formalaşması, mövcud həyatda və gələcəkdə öz müqəddəratını təyin etməsi, özünü dərk etməsi və özünü təsdiqləməsi [Mudrik A.V., 2014].

Məktəbəqədər dövr uşağın sosial münasibətlər aləminə girməsi, sosiallaşması prosesi üçün son dərəcə vacibdir. Uşaq sosial təcrübəni ünsiyyət prosesində qazanır və bu, yaxın ətrafdakılar tərəfindən ona təqdim olunan sosial münasibətlərdən asılıdır. Uşağın əvvəlki nəsillər tərəfindən toplanmış universal təcrübəni mənimsəməsi yalnız birgə fəaliyyət və insanlarla ünsiyyətdə baş verir. Bunun nəticəsində uşaq nitqə yiyələnir, yeni bilik və bacarıqlara sahib olur, onun öz inancları, mənəvi dəyərləri və ehtiyacları formalaşır. Beləliklə, uşağın xarakteri inkişaf edir.

Müasir tədqiqatçılar – A.V.Mudrik, S.A.Kozlova uşağın sosiallaşmasının təzahürünü aşağıda qeyd edilmiş üç aspektdə görürlər:

- sosial mühitə adaptasiya;
- inteqrasiya və sosial mühitin qəbul edilməsi;
- diferensiallaşma – sosial gerçəkliyi mənimsəmək, dəyişdirmək, fərdiləşdirmək bacarığı və ehtiyacı.

Uşağın sosiallaşması prosesi bir sıra şərtlərin və ya amillərin təsiri altında baş verir. A.V.Mudrik sosiallaşmanın aşağıda qeyd edilmiş amillərini müəyyənləşdirir:

–**Mikroamillər**–uşağın həyatının ilkin sosial mühiti (ailə, qonşular, uşaq qrupları, mikrososium). Mikroamillər uşağın ilkin sosiallaşmasında ən əhəmiyyətli amillərdir.

–**Mezoamillər**–mühitin etno-mədəni şərtləri, alt mədəniyyətlər, kütləvi informasiya vasitələri, insanın yaşadığı coğrafi mövqenin növləri: metropol, böyük şəhər, kiçik şəhər, liman şəhəri, sənaye mərkəzi, kurort mərkəzi, sənaye və mədəniyyət şəhərləri, kəndlər və s. mezoamillər uşağın sosial dünyasının inkişafında mühüm rol oynayır.

–**Makroamillər** – ölkə, etnos, cəmiyyət və dövlətdir. Makroamillər sosiallaşmanın gedişatını və istiqamətini müəyyənləşdirir.

–**Meqaamillər** kosmos, planetlər, dünyadır. Meqaamillər gənc nəslin sosiallaşması prosesinə dolayı yollarla təsir göstərir [Mudrik A.V., 2014].

A.V.Mudrik sosiallaşma amillərindən başqa, sosiallaşma mexanizmlərini və ya metodlarını da müəyyənləşdirmişdir.

İnstitusional xalq təhsili sistemi – buraya, hər şeydən əvvəl, uşaq bağçaları, məktəblər, uşaq və gənclər birlikləri, KİV daxildir.

**Aşağıdakı mexanizmlər təqlidə əsaslanır:**

– Ənənəvi *mexanizmlər* davranışdakı hakim stereotiplərin ailə və yaxın sosial mühit vasitəsi ilə, şüursuz səviyyədə qavranılması ilə xarakterizə olunur.

– *Stilizə edilmiş mexanizmlər* – yaş subkulturu, istinad qrupunun şəxsiyyətə təsiri yolu ilə xarakterizə olunur.

– Şəxsiyyətlərarası münasibətlər – müəyyən bir şəxslə eyniləşdirməyə əsaslanır.

– *Refleksiv mexanizmlər* – uşağın tək özü ilə, yaxud real və ya xəyali obrazlar arasında daxili dialoquna əsaslanır [Mudrik A.V., 2014].

L.V.Mardaxayevə görə, bir uşağın tam hüquqlu sosial inkişafını təmin etmək üçün onun fərdi imkanlarını, inkişaf dinamikasını bilmək lazımdır. Uşağın fərdi imkanları bir insanın sosial inkişafını və tərbiyəsini təyin edən əsas mənbələr, onların hərəkətverici qüvvələri ilə müəyyən edilir.

L.V.Mardaxayev sosial inkişaf mənbələrini aşağıdakı kimi müəyyənləşdirmişdir:

– anadangəlmə, qazanılmış, şəxsin həyatı boyunca qazandığı bacarıq və imkanları özündə cəmləşdirən daxili mənbələr;

– insanı və onun birbaşa qarşılıqlı əlaqədə olduğu hər şeyi əhatə edən xarici mənbələr [Mardaxayev L.V., 2009].

Bioloji, fizioloji, psixoloji və sosial amillərin, habelə, duyğu orqanlarının və şərtsiz reflekslərin qarşılıqlı əlaqəsi uşaq potensialının inkişafında mühüm rol oynayır. Müxtəlif qruplar, fərdlər, ətrafdakı obyektlərlə qarşılıqlı əlaqə uşağın maraqlarını, əxlaqi dəyərlərini və ideallarını, dünyaya və ətrafda baş verən hadisələrə ümumi baxışlarını müəyyən edir. Daxili və xarici hissələrə bölünən hərəkətverici qüvvələr uşağın sosial inkişafının potensial mənbələrinin reallaşdırılmasını təmin edir. Daxili hərəkətverici qüvvələrə şüursuz və şüurlu bio-psixi mexanizmlər daxildir.

Uşaqların sosiallaşması prosesində aşağıdakı xüsusiyyətlər ortaya çıxır:

– Özünüidarəetmə qabiliyyətinə malik olan yetkin insanlardan fərqli olaraq, uşaqlarda cəmiyyətə inteqrasiya prosesində emosional dəyər münasibətləri özünü qabarıq şəkildə büruzə verir.

– Uşaqlar yetkin insanların sosial normalarını qiymətləndirə bilir, onlara tənqidi yanaşmağı bacarırlar. Onlar yetkin insanları müəyyən edilmiş davranış tənzimləyiciləri kimi qəbul edirlər.

– Uşaqların sosiallaşması böyüklərə tabe olma, onların dediklərini yerinə yetirmək və s. qayda və tələblərin yerinə yetirilməsinə əsaslanır.

– Yetkin insanların sosiallaşması müəyyən bacarıqlara yiyələnmək məqsədinə yönəlsə də, uşaqlarda aparıcı rola malik olan davranış motivasiyasıdır.

Uşağın sosial idrakının formalaşması yolunda mühüm mərhələlərdən biri də

ətraf aləmlə bağlı fikirlərin bilik bazasına keçməsidir. Hazırda uşaqların sosial inkişafını təmin etmək üçün nəzərdə tutulan vəzifələr məktəbəqədər pedaqogikada tərbiyə – təlim əlaqəsinin təmin olunması yolu ilə həll olunur.

Beləliklə, məktəbəqədər yaşlı uşaqların sosiallaşması prosesi bir sıra amillərin, hərəkətverici qüvvələrin və sosial reallıqla tanışlığın istiqamətlərini, dinamikasını və xarakterini müəyyən edən mexanizmlərin təsiri altında baş verir.

**Sosial bacarıqların qazanılmasına təsir edən əsas amillər aşağıdakılardır:**

- valideyn-uşaq qarşılıqlı əlaqələri;
- yaşıdların qarşılıqlı əlaqələri;
- sinifdə sosial mühit;
- uşaqların fərdi xüsusiyyətləri;
- pedaqoq-valideyn əməkdaşlığı.

Bu amillərin nəzərə alınması tərbiyə prosesini səmərəli şəkildə idarə etməyə imkan verir, həmçinin uşağın sosial inkişaf istiqamətlərini proqnozlaşdırır.

Sosial inkişafın əsas konsepsiyalarından biri – *mənlik konsepsiyası* insanın şəxsiyyəti haqqında fikirlərin cəmi özünü tanımaq və qiymətləndirmək yolu kimi müəyyən edilir, fərdin özünü necə gördüyünü və qiymətləndirdiyini ifadə edir [Gizir, 2002].

**Mənlik** – bir sıra təcrübələr nəticəsində əldə edilmiş konsepsiyadır. Körpə doğulduğu ilk günlərdə öz varlığının fərqində olmur, "mən" deyə bilmir. İlk günlərdə və aylarda körpə üçün vacib olan şey bədənlə əlaqədar olan ehtiyacların dərhal ödənilməsidir. Körpə aclıq, susuzluq və üşümə kimi fiziki problemlərdən xəbərdardır, lakin öz bədənini xarici mühitdən fərqləndirə bilmir. Başqa sözlə – uşaq *mənlik* anlayışı ilə doğulmur, *mənlik* – uşağın həyatı və ətrafındakı insanların təsiri ilə tədricən formalaşır [Şahin & Seçer, 2002].

**Şəxsiyyət** – Bütün insanlar bir-birindən boy, saçın, gözün rəngi, arıqlıq və köklük xüsusiyyətlərinə görə fərqlənirlər. Bu baxımdan heç bir insan başqasına bənzəmir, yəni insanların hissləri, düşüncələri və reaksiyaları da özlərinə məxsusdur, başqalarınınkı kimi deyil. Bu şəkildə şəxsiyyət ayrıca fərdə xas olan xüsusiyyətlərə malikdir. Şəxsiyyəti müəyyənləşdirmək çətin bir prosesdir. Bu səbəbdən də şəxsiyyətə çox fərqli təriflər verilir. Son nəticədə, şəxsiyyət – insanın ideyasının, hisslərinin, sosial və əxlaqi dəyərlərinin sintezidir.

"Psixologiya terminləri lüğəti"nə görə, şəxsiyyət, fəaliyyətdə olan insanın əqli, fiziki və fizioloji xüsusiyyətlərinin az və ya çox dərəcədə sabit olan bütövlüyüdür. Şəxsiyyət bir insanın psixoloji quruluş və sistemlərinin dinamik şəkildə təşkil olunmasının, ətraf mühitlə qarşılıqlı əlaqəsinin məhsuludur.

Şəxsiyyət haqqında psixoloqlar vahid bir tərif verməsələr də, bir çox mənbələrdə şəxsiyyət – bir insana xas olan, onu başqalarından fərqləndirən ardıcıl və

stereotip olan bütün fiziki, əqli, mənəvi və sosial xüsusiyyətlərin cəmləndiyi fərd kimi izah olunur.

Uşağın həyatında 0 – 6 yaş dövrü böyümənin və inkişafın ən sürətlə getdiyi dövrdür. Şəxsiyyətin təməlinin qoyulduğu dövr ilk altı ildir. Uşağın sağlam bir şəxsiyyət kimi inkişaf etməsi üçün onun fizioloji və psixoloji ehtiyacları vaxtında qarşılanmalıdır. Uşaq şəxsiyyəti sosial inkişaf prosesində formalaşır. Bu prosesdə inkişaf etməkdə olan şəxsiyyət, ilk növbədə, valideynləri ilə sıx bağlıdır. Valideynlərin uşağa olan müsbət və ya mənfi reaksiyaları onun şəxsiyyətinin inkişafında mühüm rol oynayır. Diqqətdən kənarda qalan, fikirlərinin bildirilməsinə icazə verilməyən, yaxud ifadə edərkən davamlı tənqid olunan uşaq öz daxilinə qapanmış, özünə inamsız, küskün və aqressiv ola bilər [Çağdaş & Seçer, 2002].

**Sağlam şəxsiyyətin inkişafında üç amil vacibdir:**

1. Uşaqda əvvəlcə özünə və ətrafındakılara etibar hissi inkişaf etdirilməlidir.
2. Onun başqaları ilə münasibətləri möhkəm bir təmələ söykənməlidir.
3. Müstəqilliyə doğru irəliləmə tarazlaşdırılmalıdır [Qanun. Gizir, 2002].

Sosiallaşma konsepsiyasını ilk dəfə istifadə edən Emil Dürkgeym olmuşdur. O, təhsil konsepsiyasını "böyüməkdə olan nəsillərin sosiallaşması, onların ictimai həyata alışması, mənəvi, əqli və əxlaqi cəhətdən tərbiyə olunması" kimi izah edir [E. Dürkgeym].

Sosiallaşma prosesində körpə insan cəmiyyətin üzvü olur, yəni ailəsinin, qohumlarının, qonşularının, yaşadığı şəhərin və ya kəndin, nəhayət, millətinin bir hissəsi olduğunu öyrənir. Böyüməkdə olan uşaq ətrafdakılarla qarşılıqlı əlaqələr qurmaq nəticəsində özündə onlarınkına bənzər davranışlar inkişaf etdirəcəkdir. Beləliklə, ayrı-ayrı fərdlər əvəzinə, cəmiyyətin üzvləri olan, bir-birinə çox oxşar və bir-birindən fərqlənən sosial fərdlər meydana gəlir [Kağıtçıbaşı, 1996].

Valideynlərin və digər şəxslərin uşaqla qarşılıqlı əlaqəsi uşağın ailədəki yerini müəyyənləşdirir. Ailə qəbul edilmiş sosial davranış nümunələrinin inkişafında uşağa rəhbərlik edir.

Bir çox nəzəriyyələrdə fərdlərin yetkinlik illərində göstərəcəkləri fəaliyyətlərin təməlinin məktəbəqədər dövrdə qoyulduğu araşdırmalarla sübut edilmişdir. Bu səbəbdən fərdlərin xoşbəxt, özləri ilə barışıq, hədəflərini düzgün müəyyənləşdirməsi, bunun öhdəsindən gəlmək üçün lazım olan emosional və sosial bacarıqların təməlinə qatqı təmin edəcək davranışlar sərgiləmələri üçün, məktəbəqədər dövrdə yarana biləcək maneələri dəf etmək üçün təhsil mühitinin olması qaçılmaz görünür [Sevinç, 2003].

Sosiallaşma öyrənmə yolu ilə baş verir. Uşaqlar anlama və təqlid yolu ilə mədəniyyətin adət və dəyərlərini mənimsəyirlər [Çağdaş və Seçer, 2002].

## Nəticə / Conclusion

Beləliklə, biz bu məqalədə məktəbəqədər yaşlı uşaqların sosiallaşması və ona təsir edən amillərdən söhbət açdıq. Qeyd olunur ki, məktəbəqədər yaşlı uşaqların sosiallaşması prosesi bir sıra hərəkətverici qüvvələrin və ətraf aləmlə tanışlığın dinamikasını, xarakter xüsusiyyətlərini müəyyən edən mexanizmlərin təsiri altında baş verir.

Məqalədə uşağın sosiallaşması prosesinə təsir edən bir sıra amillər də (meqa-amillər, mikroamillər, mezoamillər, makroamillər) təhlil olunur, sosial inkişafın əsas konsepsiyalarından olan *mənlik və şəxsiyyət* konsepsiyaları araşdırılır.

V. Mudrikin təqlidə əsaslanan sosiallaşma mexanizmlərini (ənənəvi mexanizmlər, stilizə edilmiş mexanizmlər, şəxsiyyətlərarası münasibətlər, refleksiv mexanizmlər və s.) və sosiallaşma konsepsiyasını ilk dəfə istifadə edən tədqiqatçının Emil Dürkgeym olduğu qeyd edilir.

Məqalədə sağlam şəxsiyyətin inkişafında üç amilin vacibliyi qeyd olunur: özünə və ətrafındakılara etibar hissi; münasibətlərin möhkəm bir təmələ söykənməsi; müstəqilliyə doğru irəliləmə.

Beləliklə, məlum olur ki, məktəbəqədər yaşlı uşaqların sosiallaşması prosesi bir sıra amillərin, hərəkətverici qüvvələrin və sosial reallıqla tanışlığın istiqamətlərini, inkişaf dinamikasını, xarakterini müəyyən edən mexanizmlərin təsiri altında baş verir.

**Problemin aktuallığı.** Bu istiqamətdə aparılan araşdırmalar göstərir ki, sosial inkişaf – doğuşdan başlayaraq ömür boyu davam edən, insanın başqaları ilə müsbət münasibətlər qurmasına və yaşadığı cəmiyyətə uyğunlaşmasına imkan verən bir prosesdir. Uşağın ilk sosial davranış təcrübəsi ailədə, onun hər bir üzvü ilə qarşılıqlı münasibətlərdə qazanılır. Deməli, onun həyatında ən təsirli sosiallaşma qurumu ailədir.

**Problemin elmi yeniliyi.** Məktəbəqədər dövrdə ailə uşağın həyatında təsirli bir sosiallaşma qurumu kimi diqqəti çəkir. Ailə uşağa inam hissi aşılayır və onun sosiallaşmasını təmin etmək üçün lazımi mühiti hazırlayır. Məktəb təliminə başlamazdan əvvəl uşağa təklif olunan sosial təcrübələrdən əlavə, uşaq, bir nümunə kimi, ailə üzvlərindən də faydalanır.

**Problemin praktik əhəmiyyəti.** Bu nəticəyə gəlirik ki, sosial bacarıqların inkişafı uşağın anadan olduğu vaxtdan başlayır və bu proses onun bütün həyatı boyu davam edir. Əgər sosial bacarıqlar vaxtında qazanılmasa, bu, sonralar uşağın bütün həyatına mənfi təsir göstərir. Buna görə də sosial bacarıqlar uşaqlara mümkün qədər erkən öyrədilməlidir.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Altınköprü, T. (2003). Çocuğun Başarısı Nasıl Sağlanır? İstanbul: Hayat Yayıncılık, 77–78.
2. Cüceloğlu, D. (1998). İnsan ve davranışı. İstanbul: Remzi Kitab evi.
3. Çağdaş, A., Seçer-Şahin, Z.(2002). Çocuk ve Ergende Sosyal ve Ahlak Gelişimi. An kara: Nobel Yayın Dağıtım
4. Gizir, Z. (2002). Anaokuluna Devam Eden Dört-Beş Yaş Çocuklarında Sosyal Dav ranışların Gelişimi ile Benlik Saygısı Arasındaki İlişkinin İncelenmesi. Yüksek Li sans Tezi, Ankara Üniversitesi, Fen Bilimleri Enstitüsü.
5. Kağıtçıbaşı, Ç. (1999). Yeni İnsan ve İnsanlar.10. Bas., İstanbul: Evrim Yay.
6. Sevinç, M. (2003). Oyun Ortamında Uyumsuz Davranışlara Eğitsel Yaklaşım. Erken Çocuklukta Gelişim ve Eğitimde Yeni Yaklaşımlar, (Yay. Haz. Müzeyyen Sevinç). İstanbul: Morpa Kültür Yayınları.
7. Şahin, H. (2004). Saldırganlık Ölçeği Geçerlik ve Güvenirlik Çalışması. Süleyman Demirel Üniversitesi, Burdur Eğitim Fakültesi Dergisi. 5 (7):180–190.
8. Aleksandrova O. (1998). Razıqrıvaem skazki. // «Doşkolnoe vospitanie»., №1.
9. Alyanskiy Yu. L. (1998). Azbuka teatra. L.: «Detskaya literatura».
10. Baryaeva L., Vechkanova İ., Zaqrebaeva Ye., Zarin A. (2001). Teatralizovannıe iqrı-zanyatiya. – S. Pb.C.: «Soyuz».
11. Vıqotskiy L.V. (1983).Voobrajenie i tvorchestvo v detskom vozraste. M.:«Prosvesh enie».
12. Kozlova S.A. (2012). «Ya – chelovek». Proqramma sosialnoqo razvitiya rebenka «Doshkolnoe vospitanie i obuchenie». Prilojenie k jurnalu «Vospitanie doshkolnikov». İzd. «Shkolnaya pressa».
13. Mardaxaev L.V. (2009). Sosializasiya cheloveka kak sosialno-pedaqoqiçeskiy prosess // «Pedaqoqicheskoe obrazovanie i nauka », № 4, s. 137.
14. Mardaxaev L.V. (2015). Sosializasiya i sosionomiya. Sosialno-pedaqoqiçeskiy podxod // «Vestnik vısşey şkolı». Seriya: Pedaqoqika i psixoloqiya, № 4, s. 51 – 55.
15. Mudrik A.V. (2014). Sosializasiya – pole sistemnıx izmeneniy // «Voprosı vospitaniya», № 4, s. 114.
16. Mudrik A.V. (1999).Sosialnaya pedaqoqika / A.V.Mudrik– M.: «Akademiya»,176 c.

17. Çistyakova M.A. (1990). Psixoqimnastika. Moskva.
18. Çurilova E.Q. (2004). Metodika i orqanizasiya teatralnoy deyatelnosti doshkolnikov i mladşix şkolnikov. M.: VLADOS.
19. Shvayko Q.S. (1983). İqrı i iqrovıe uprajneniya dlya razvitiya rechi. Moskva.

# FACTORS AFFECTING FAMILY AND INSTILLING SELF-CONFIDENCE IN CHILDREN

**Nazakat Rasulova**
Gakh city orphanage No.3 nursery - kindergarten,
educator-teacher.
E-mail: lrszd@mail.ru
https://orcid.org/0000-0002-9380-4096

**Abstract.** The article discusses ways to instill in children a sense of family and self-confidence, and analyzes the impact of different types of parents on the child, which are observed in the formation of self-confidence and family members. Factors that undermine self-confidence and family confidence are approached from different angles. It is noted that the role of family upbringing is great in instilling in children a sense of family and self-confidence. According to the author, along with parents, educational institutions and educators have a great influence on instilling feelings of confidence, belief and self-confidence. The joint activity of educational institutions and the family is in the center of attention as one of the main issues in the formation of personality.
**Keywords:** self-confidence, parent, confidence, child, essential needs, inbelief, reputation, upbringing, collective

**To cite this article:** Nazakat R.(2021) Factors affecting family and instilling self-confidence in children. *Journal of Preschool and Primary Education*, V.236, İssue III, pp. 109-118
**Article history:** Received – 25.09.2021; Accepted – 30.09.2021.

# UŞAQLARDA AİLƏYƏ VƏ ÖZÜNƏGÜVƏN HİSSLƏRİNİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

**Nəzakət Rəsulova**
Qax şəhəri, 3 №-li körpələr evi–uşaq
bağçasının tərbiyəçi-müəllimi
E-mail: lrszd@mail.ru
https://orcid.org/0000-0002-9380-4096

**Annotasiya.** Məqalədə uşaqlarda ailəyə və özünəgüvən hisslərinin aşılanması, inkişaf etdirilməsi yollarından bəhs olunur, özünə və ailə üzvlərinə güvən hissinin formalaşmasında müşahidə olunan müxtəlif tip valideynlərin uşağa təsir gücü geniş təhlil edilir. Özünəəminlik və ailəyə güvən hisslərinə zərbə vuran amillərə müxtəlif aspektlərdən yanaşılır. Qeyd olunur ki, uşaqların ailəyə və özünə inam hisslərinin aşılanmasında ailə tərbiyəsinin rolu böyükdür. Müəllifin fikrincə, əminlik, inam, özünəgüvən kimi hisslərin aşılanmasında valideynlə yanaşı, təlim-tərbiyə müəssisələrinin, tərbiyəçi-müəllimlərin də təsiri böyükdür. Təlim-tərbiyə müəssisələri ilə ailənin birgə fəaliyyəti şəxsiyyətin formalaşmasında əsas məsələlərdən biri kimi diqqət mərkəzindədir.

**Açar sözlər:** özünəgüvən, valideyn, əminlik, övlad, zəruri ehtiyaclar, inamsızlıq, nüfuz, tərbiyə, kollektiv.

**Məqaləyə istinad:** Rəsulova N. (2021) Uşaqlarda ailəyə və özünəgüvən hisslərinin formalaşmasına təsir edən amillər. "*Məktəbəqədər və ibtidai təhsil*", № 3 (236), səh. 109-118
**Məqalə tarixçəsi:** göndərilib – 17.09.2021; qəbul edilib – 22.09.2021.

## Giriş / Introduction

Dünyada heç bir yeni doğulan canlı insan övladı qədər qayğı və mühafizəyə möhtac deyil. Ətrafındakı insanların, xüsusilə valideynlərin qayğısı, sevgisi və ya laqeydliyi, mənfi və müsbət davranışları ömür boyu uşağın yaddaşında həkk olunub qalır.

XX əsrin birinci yarısında psixoanaliz və ondan qaynaqlanan nəticələr əsasında davranışların fərd və çevrə münasibətlərinin məhsulu olduğu müəyyən olunmuşdur. Yeni doğulmuş körpənin əhatəsində olduğu bütün insanların içərisində ona ən yaxın olanı anadır. İlk günlərdən başlayaraq körpənin aclıq, normal temperatur və s. kimi zəruri, həmçinin sevgi və qayğı kimi mənəvi ehtiyaclarının ödənilməsi prosesinin nəticəsi olan hisslərlə yanaşı, uşağın öz çevrəsinə güvən və ya güvənsizlik kimi duyğularının da təməli qoyulur.

## Əsas hissə / Main Part

Özünəgüvən, başqa sözlə, özünəinam – özünü dərk etmək deməkdir. Bunun nəticəsində uşaq özünü olduğundan çox bacarıqlı və ya bacarıqsız deyil, olduğu kimi görə bilir. Uşağın fəaliyyətinin uğurlu olması bu fəaliyyət üçün münbit şəraitin olması ilə bərabər, özünəinam, özünəgüvən hisslərinin səviyyəsindən, özünü dəyərləndirmə bacarığından da asılıdır. İnsanın öz potensial imkanlarını, keyfiyyət və sosial mövqeyini qiymətləndirməsi özünüdəyərləndirmədir. Adətən, insanlar özlərini üç səviyyədə dəyərləndirirlər:

- aşırı özünəinam;
- özünəinamın əskikliyi;
- real vəziyyətə uyğun özünəinam.

***Aşırı özünəinamı*** olan uşaqlar özlərinin mövcud vəziyyətdən daha yüksəkdə olduqlarını, həqiqətin həmişə onların tərəfində olduğunu düşünür, özlərini həmişə haqlı hesab edirlər. Başqalarının uğurlarını görmək istəmir, digər uşaqların zəifliyindən istifadə edərək, onları idarə etməyə can atır, öz çatışmazlıqlarını qəbul etmir, başqalarına təkəbbürlə yanaşır, həmişə diqqət mərkəzində olmağa çalışırlar. Onların aşırı özünəinamı aqressivliyə də yol aça bilər.

**Özünəinamın əskikliyi** daim narahatlığa, meyil və maraqların gizlədilməsinə, mövcud potensial imkanların inkişafdan qalmasına və ya tədricən aşınmasına, uşağın başqalarının idarəçiliyi altına keçməsinə, çətinlik qarşısında çarəsizlik, qorxaqlıq hisslərinin güclənməsinə, başqalarından asılılıq vəziyyətinin yaranmasına səbəb olur. Onların hisslərinə başqaları tərəfindən aldadılmaq, incidilmək,

dəyərləndirilməmək qorxusu hakim olur. Belə uşaqlar yeni fəaliyyət növlərindən və yoldaşlarından uzaqlaşır, təkliyə, özünəqapanmaya meyillənirlər. Başqalarının daha qabiliyyətli olduqlarını düşünərək, öz bacarıqlarını nümayiş etdirmirlər. Bu da onların şəxsiyyət kimi formalaşmalarına mane olur.

***Real vəziyyətə uyğun özünəinam*** özünü dəyərləndirə bilmək bacarığıdır. Təlim-tərbiyə müəssisələri və valideynlərin qarşısında duran əsas məsələ şəxsiyyətin tərbiyə olunmasıdır. Bu məqsədin reallaşdırılması üçün, ilk növbədə, özünəgüvən, ailəyə güvən, çevrəyə güvən hisslərinin aşılanması vacib addımlardandır [Bircan Y., 2015].

Çevrəyə güvən hissi gələcəkdə insanın özünə və yaxın çevrəsinə əminlik hissinin yaranmasına şərait yaradır. Müşahidələr göstərir ki, bir insanın özünə güvənməsi uşaq yaşlarında ətrafındakı insanların ona olan münasibətlərindən qaynaqlanır. İnsan özünə güvənirsə, başqalarından qorxmur, onda özünə əminlik hissi formalaşır. Əhatə dairəsindən qorxan, çəkinən uşaq çarəsizlik hissləri yaşayır. İlkin mərhələdə özünəgüvən hissi formalaşmayan uşaqlar üçün həyatın sonrakı mərhələlərində bu hissin əldə edilməsi olduqca çətin olur. Ona görə də özünəəminlik, özünəinam, özünəgüvən hisslərinin formalaşdırılması vəzifəsi ilk mərhələdə valideynlərin, sonra isə təhsil müəssisələrinin üzərinə düşür.

Uşaq ətrafındakı insanların ona olan münasibətlərini anlayır, müsbət və mənfi münasibətləri asanlıqla fərqləndirə bilir. Təbii ki, müxtəlif yaş dövrlərində uşaqların anlama səviyyələri fərqlidir. Əslində, uşaqlar duyma qabiliyyəti ilə ətrafında baş verənlərin fərqinə varır, uzun müddət onlara pis təsir edən hadisələrin təsiri altında qalırlar.

Böyüklərdə intuisiya ilə qavrayış üstünlük təşkil edir. Əksər hallarda uşaqlarda da intuisiya ilə qavrama özünü büruzə verir. Çox vaxt bu hisslər hər hansı bir situasiya ilə əlaqəli, ilkin təəssürat ani olsa da, insan intuisiyasında yanılmır, təxminlər doğru çıxır. Bəzən isə həmin situasiyaya verilən hökm, düşüncə və təxmin yanlış da ola bilər. Bu mənada, uşaqlar öz çevrəsindən bir qədər kənarda olan insanlara güvəni təxmin və ya intuisiya vasitəsi ilə müəyyən etməyə çalışırlar.

Uşaqla ən yaxın münasibətdə olan insan ana olduğundan, özünəgüvən və başqalarına güvən hisslərinin formalaşmasına təsir edən əsas fiqur da anadır. Təlim-tərbiyə mərhələsində tərbiyəçi-müəllim, müəllim uşaqların mənəvi aləminin zənginləşdirilməsinə xidmət edir, onların şəxsiyyətinin formalaşmasına böyük təsir göstərirlər. Uşağın tərbiyəsinin kimin əlində olması həlledici faktdır. İstər valideynin, istərsə də tərbiyəçi-müəllimin özündə, digər müsbət cəhətlərlə yanaşı, özünəgüvən hissinin hansı səviyyədə olması əhəmiyyətlidir. Bu baxımdan, tədqi-qatçılar aşağıdakı valideyn tiplərini müəyyən etmişlər:

**Birinci tip** valideynlərin övladları öz üzərlərində işləməklə asanlıqla bilik, bacarıq və vərdişlərə yiyələnə bilirlər. Onlarda özünəgüvən hissi güclü olur və hər

bir problemi öz gücləri ilə həll etməyə cəhd edirlər.

**İkinci tip** valideynlərin övladları yaranan çətinliklərin həllini kənardan gözləyirlər. Onlarda valideynə güvən hissi güclü, özünə güvən hissi isə çox zəif olur.

**Üçüncü tip** valideynlərin övladlarında özünə əminlik hissi olmur. Belə uşaq çevrəsindəki insanlardan uzaqlaşır və özünə qapanır.

**Dördüncü tip** (laqeyd) valideynlərdən danışarkən, müşahidələrə əsaslanaraq demək olar ki, onların övladları güvən yerini ailədən kənarda, özünə yaxın olan adamlarda və ya tərbiyəçi-müəllimdə axtarırlar. Onlarda özünəgüvən hissi zəif olur, həmişə başqaları ilə məsləhətləşirlər.

**Beşinci tip** valideynlər övladlarının potensial imkanlarını müəyyən etmədən, öz tələblərini başqa uşaqlarla müqayisə əsasında irəli sürürlər. Valideyni razı salmağa çalışan uşaq öz bacarıqlarını və qabiliyyətlərini, hətta xarakterini kənara qoyur, müqayisə obyektinə bənzəməyə çalışır. Bu cür yanaşma zamanı iki vəziyyət müşahidə olunur:

1) Uşaq müqayisə obyekti ilə rəqabətə girir, onu üstələdikdə özünə əmin olmamaq hissi özünəinamla əvəz olunur. Qeyd olunmalıdır ki, bu vəziyyətə çox az rast gəlinir, çünki uşaq götürə biləcəyindən artıq yüklə yüklənərsə, arzuolunmaz hallarla qarşılaşmaq olar.

2) Nəticə əldə edə bilməyən uşaqda məyusluq, ruh düşkünlüyü və özünə əminsizlik hissi daha qabarıq formada əks olunur [Bayramov Ə. S., Əlizadə Ə. Ə., 2009. Bakı]**.**

Daha bir valideyn tipi – tənqidi tərbiyə vasitəsi kimi seçən valideynlər də vardır. Onlar övladlarının göstərdiyi nəticələrə hər zaman tənqidi yanaşırlar. Tənqid etməzdən əvvəl uşağın potensial imkanları müəyyənləşdirilməlidir ki, onun qarşısına öz gücünə müvafiq vəzifələr qoyulsun. Tənqid tənbeh formasında aparılmalı, haqlı olmalı, səhvlərin üzə çıxarılmasına xidmət etməlidir [Cüceloğlu D., 2016]. Yalnız bu halda uşaq öz geriliyini aradan qaldırmaq üçün əzmlə çalışar və tənbəllikdən uzaq olar. Əksinə, uşaq həddən artıq tənqid atəşinə tutulduqda onda aqressivlik yaranır, çatışmazlıqlar üzərində işləmək əvəzinə, hədəfdən tamamilə uzaqlaşır.

Özünəgüvən hissinin yaranmasında və formalaşmasında ananın mövqeyi xüsusi əhəmiyyət kəsb edir. Uşaq ən çətin vəziyyətdə öz ailə üzvlərinə, xüsusilə anasına üz tuta biləcəyinə əmindir. Ona görə də şəxsiyyətin formalaşmasında ailə münasibətlərinin əhəmiyyəti danılmazdır. Uğursuz ailələrdən olan uşaqlar özlərinə dəstəyi, əsasən, yaxın qohumlardan, müəllimlərdən və ya dostlarından gözləyirlər. Başqalarından qayğıkeşlik görən uşaq özü də başqalarına qarşı qayğıkeş olur, öz çevrəsindəki insanlardan ona qayğı ilə yanaşanlara daha çox güvənir, inanır.

Yaxşı valideyn ailə üzvlərinin hər birinin güvən yeridir. Ailə üzvlərinin və

digər insanların hisslərinə, fikirlərinə, hüquqlarına hörmətlə yanaşan valideynin himayəsində olan uşaq sağlam düşüncəyə malik olur. Avtoritar valideynlərin və uğursuz ailələrin övladları isə məyusluq, əmin olmamaq hissləri ilə yaşayırlar. Bu, uşağın psixoloji vəziyyətinə mənfi təsir göstərir.

Mən böyük ailə tərəfdarıyam. Böyük ailələrdə böyüyən uşaqlar cəmiyyətə, kollektivə daha tez adaptasiya olunurlar. Onlarda kollektivçilik, qrupla işləmək, ətrafındakı insanlarla ünsiyyət qurmaq və əməkdaşlıq etmək bacarıqları daha yüksək səviyyədə olur.

Ailə kiçik kollektiv, "kiçik dövlət"dir, yəni ümumi mənafe ilə, ümumi həyat, ümumi sevinc, bəzən isə ümumi dərdlə birləşən insanlar qrupudur. Atanın, yaxud ananın ailədən ayrılması ilə bu "kiçik dövlət" dağılır, uşağın tərbiyə olunması çətinləşir. Ona görə də belə bir seçim qarşısında qalarkən uşağın qarşısında məsuliyyət hiss etmək, uşaqların taleyini fikirləşmək lazımdır. Bu mənada özünəgüvənin əsas elementlərindəın biri ailə sevgisidir. Ailə başçısı ailədə hörmət, sevgi münasibətlərini düzgün formalaşdırmaq üçün xüsusi təşkilatçılıq bacarıqlarına malik olmalıdır. Ailə üzvləri arasında ayrı-seçkilik, əmək və maddi bölgüdəki ədalətsizlik ailə münasibətlərinin pozulması ilə yanaşı, övladların ailəyə güvənini azaldır.

Özünəəminlik və ailəyə güvən hisslərinə təsir göstərən amillərdən biri də valideyn nüfuzudur. Bu məsələ ailənin möhkəmliyini təmin etməklə yanaşı, övladın ailə üzvlərinə güvənməsinin əsasını təşkil edir [Əsədova İ. M., 2019 ]. Valideynin ailədə nüfuzu yoxdursa, ya da bu, saxta, uydurma nüfuzdursa, övlad kənar insanların öz ailə üzvlərindən üstün olduğunu düşünür. Hər hansı bir məsələdə "bunu mənim valideynlərim və ya bacı-qardaşım bacarmaz" deyə düşünür və tədricən "bu işi başqaları məndən daha yaxşı bacarar" fikri formalaşır. Ona görə də ailə münasibətlərinin düzgün qurulması və tənzimlənməsi uşaq şəxsiyyətinin formalaşmasına təsir edən başlıca amildir.

Mütəxəssislərin fikrincə, özünə əmin olmamaq hissi yaşayan insanlar başqalarının qarşısında daha çox tələblər qoyurlar. İstər ailədə, istərsə də təhsil müəssisəsində gücəmüvafiqlik prinsipi ilə yanaşılan uşaqlarda "hamıdan yaxşı olmaq" prinsipi ilə tərbiyə olunanlardan daha uğurlu nəticə əldə olunur, onlarda özünəgüvən, özünəəminlik hissləri daha güclü şəkildə əks olunur.

Uşaqlara ailəyə və özünəgüvən hisslərinin aşılanmasına təsir edən amillərdən biri də hörmət, özünəhörmət hisslərinin hansı səviyyədə olmasıdır. Özünəgüvən hissi özünəhörmətdən qaynaqlanır. Ailəyə və özünə hörmət hissinə ailəyə, özünə dəyər verə bilmək, başqaları ilə müqayisə etmədən, özün kimi olmaq, başqa sözlə – özünəməxsusluq kimi cəhətlər səciyyəvidir. Uğurların nəzərə alınması, geriləmələrin aradan qaldırılması üçün çalışmaq, daha hansı uğurlara imza atmaq bacarığına qabil olmaq kimi məsələlər üzərində düşünmək vacibdir.

Özünəgüvən hissi həm də sağlamlıq tələb edir. Ona görə də uşaqların həm fi-

ziki sağlamlığı, həm də sağlam düşüncəyə malik olmaları üçün həyat tərzinin düzgün qurulması, gün rejiminə riayət olunması vacib amillərdəndir. Gün rejiminin təşkili zamanı uşaqların məşğuliyyət vaxtının düzgün seçilməsi sağlamlığa təsir göstərən əsas amillərdəndir. Onların yemək, yuxu, oyun fəaliyyətlərinin normal rejimə uyğun qurulması həm tərbiyəçi-müəllimlərin, həm də valideynlərin diqqət mərkəzində olmalıdır. Müəyyən yaşdan sonra onları əmək vərdişlərinin tətbiq olunduğu oyunlara cəlb etməklə, yaşa və fiziki güclərinə müvafiq kiçik tapşırıqlar verməklə uşaqlarda həyati bacarıqlar formalaşır.

Məktəbəqədər yaşlı uşaqların sevimli məşğuliyyəti oyuncaqlarla oynamaqdır. Bu səbəbdən həmin yaş dövründə həm tərbiyəçi-müəllim, həm də valideyn uşaqlar üçün oyuncaq seçiminə və oyuncaqla rəftar aspektlərinə xüsusi həssaslıqla yanaşmalıdırlar. Unutmaq olmaz ki, oyuncaqlar tərbiyə prosesinə, əmək vərdişləri, dünyagörüşü, həyati bacarıqların aşılanmasına, xarakterin formalaşmasına təsir göstərən vasitələrdən biridir [Dökmen Ü., 2004]. Ona görə də həm ailələrdə, həm də məktəbəqədər müəssisələrdə tərbiyə prosesində uşaqlarda oyuncaq seçimi və oyuncaqlarla rəftar qaydaları tərbiyə olunmalıdır. Oyuncaq seçimi zamanı yaşamüvafiqlik prinsipi gözlənilməlidir. Oyuncaqlarla davranış uşaqlarda düzgün rəftar, ünsiyyət, davranış mədəniyyəti formalaşdırır. Öz oyuncağını yoldaşları, bacı-qardaşları ilə bölüşərkən uşaqda sərbəst ünsiyyət və davranış bacarıqları yaranır. Daha sonra oyuncaqlar insanlarla əvəz olunur. Başqa sözlə – ünsiyyət, rəftar, davranış münasibətləri insanlara yönəlir, uşaqlarda yad və fərqli insanlara uyğunlaşmaq, onlarla ünsiyyət qurmaq, yeni, fərqli insan və alətlərlə davranış baxımından özünəəminlik, özünəgüvən hissləri formalaşır.

Özünəgüvən hisslərinin formalaşmasına təsir edən amillərdən biri də uşaqlarla gəzintilərin, ekskursiyaların təşkilidir. Belə gəzintilər zamanı onlara gizli nəzarət altında sərbəstlik verilməli,gücəmüvafiqlik prinsipi nəzərə alınmaqla, uşaqların düşdükləri mühitdə qarşıya çıxan çətinliklərin həllinə (məsələn, meşə gəzintisi zamanı yemək hazırlamaq məqsədi ilə çır-çırpı toplanması) cəlb edilmələri lazımdır. Bu, uşaqların mühitə adaptasiya olunmasına kömək edir, yad mühit qorxusunun qarşısını alır.

Gənc nəslin tərbiyəsi ailə və təlim-tərbiyə müəssisəsinin başlıca funksiyalarından, ən mühüm vəzifələrindən biridir. Biz "yaxşı" və "pis" uşaqlar haqqında danışırıq. Uşaqların necə tərbiyə olunmaları valideynlərdən və təhsil müəssisələrinin onlarla apardığı işin məzmunundan, məqsədindən asılıdır. Bununla belə, bəzən eyni evdə böyüyən uşaqların fərqli xarakterlərdə (birinin müsbət, digərinin isə mənfi xarakterli) olduğu da danılmaz faktdır. Bu da bütün uşaqlara eyni metodla yanaşmağın düzgün olmadığını, diferensial yanaşmanın vacibliyinin göstəricisidir. Müəyyən yaşdan sonra uşaqların tərbiyəsi məktəbəqədər təhsil müəssisələrində və məktəblərdə davam etdirilir. Ona görə də, tərbiyəçi-müəllimlər, müəllimlər

təlim-tərbiyəsinə başlayacaqları uşağın diaqnostikasını aparmalı, onun necə bir ailədən gəldiyini müəyyənləşdirməli, hər bir uşaqla aparılacaq tərbiyə işinə diferensial yanaşmalıdırlar.

Bəzən valideynlər digər uşaqları öz övladlarına nümunə göstərərkən onlardan məhz həmin uşaqlar kimi olmağı tələb edirlər, lakin xarakterlər kimi, bacarıqlar da müxtəlifdir. Hər uşağa fərdi yanaşan tərbiyəçi-müəllim valideynin də maarifləndirilməsini diqqət mərkəzində saxlamalıdır. Hər bir uşağın xarakterinə, bacarıq və potensial imkanlarına uyğun yanaşma arzuolunan nəticə verir [Əmrahlı L. Ş., 2006]. Uşağın qarşısına başqasına oxşamaq, başqası kimi olmaq tələbi qoymaq əvəzinə, diferensial yanaşma prinsipi ilə onun öz potensial imkanlarını araşdırmaq, üzə çıxarmaq və fərdi qabiliyyətlərinə uyğun istiqamətdə inkişafa yönəltmək daha yaxşı nəticə verər. Bununla belə, başqasını nümunə göstərməyin də faydalı tərəfləri danılmazdır, məsələn, uşağa gözəl rəsm çəkən yoldaşını nümunə göstərərək, onun kimi şəkil çəkməyi o vaxt tələb etmək olar ki, həmin uşağın da bu sahədə potensial bacarıqları olsun.

Mövcud qabiliyyətlərin inkişafı müəyyən dərəcədə məşğələlərin təşkilindən də asılıdır. Əks halda, müəllim də, valideyn də uşağın başqa potensial qabiliyyətlərinin diaqnostikasını aparmalı, onun öz bacarığı və maraqları istiqamətində inkişafyönümlü məşğələlər təşkil etməlidirlər. Əgər uşaqlardan biri gözəl rəsm çəkmək, digəri şifahi riyazi hesablama bacarıqlarına malikdirsə, diferensial yanaşmanın nəticələri öz bəhrələrini verəcək. Bu zaman "sən bunu yaxşı bacarırsan" təqdiretməsi əvəzinə, "sən hansını yaxşı bacarırsan?" sualı ilə uşağı qərar verməyə, öz işini qiymətləndirməyə, öz bacarıqlarını müəyyən etməyə yönəltmiş, eyni zamanda, onda özünəgüvən hissini gücləndirmiş olarıq.

Əgər uşaq "mən bunu bacarıram" deyirsə, buna əmindirsə, tərbiyəçi-müəllim və valideyn asanlıqla uşağın bu fikrini inkişaf etdirərək, onun "mən bunu da bacararam" düşüncəsinə yiyələnməsinə nail ola bilərlər. Bunun üçün uşağın yaşına müvafiq, gücünə müvafiq meyil və maraqları, qabiliyyətləri nəzərə almaqla məşğələlərin və ya oyun, əmək, təlim fəaliyyətlərinin planlı, sistemli, ardıcıl, inteqrativ təşkili həyata keçirilir. Uşaqlarda özünə və ailə üzvlərinə güvən, inam yaratmaq üçün bir sıra məsələlər nəzərdə saxlanılmalıdır:

- ✓ uşağa fikrini ifadə etməyə, düşüncələrini söyləməyə imkan yaradıl malı;
- ✓ yaşa və gücəmüvafiqlik prinsipi gözlənilməli;
- ✓ uşağa "vəzifə borcu", "məsuliyyət hissi" anlayışları başa salınmalı;
- ✓ uşağın əməyi dəyərləndirilməklə onda nailiyyət, uğur hisslərini yaşatmağa, zəhmətinin nəticəsindən zövq almasına imkan yaradılmalı;
- ✓ stimullaşdırıcı tədbirlər hazırlamalı;
- ✓ uşağın meyil və maraqları qabiliyyət və istedadına uyğun istiqamətləndirilməli;

- ✓ uşağın səhvləri, yerinə yetirə bilmədiyi tapşırıqlar pozitiv əhvali-ruhiyyə ilə aradan qaldırılmalı;
- ✓ təhqir, kobudluq, fiziki cəza tədbirlərinə yol verilməməli;
- ✓ uşağın əvəzinə tapşırığı yerinə yetirməməli;
- ✓ uşaqların bir-birindən öyrənmələrinə şərait yaratmalı;
- ✓ uşaqdan başqaları kimi olmağı tələb etməməli, onun özünəməxsusluğunu qoruyub saxlamalı [Əsədova İ. M., 2019].

Uşaq ailədə ana, bir sıra hallarda isə nənə ilə daha çox vaxt keçirir, məktəbəqədər müəssisədə isə tərbiyəçi-müəllimlə daha çox ünsiyyətdə olur. Bu, onların arasında bağlılığa gətirib çıxarır. Bu əlaqələr uşaqlarda çevrəyə güvən hisslərinin inkişafına imkan verir. İlk baxışdan sadə görünən çevrəyə güvən problemi, əslində, uşağın həyatına, gələcək taleyinə təsir göstərən ciddi problemlərdən biridir. İnsan güvənmədiyi birini sevə bilməz. Bu mənada ailəsinə, tərbiyəçi-müəlliminə inanmayan, güvənə bilməyən uşaq, tədii ki, onu sevmir. Sevgi olmayan yerdə isə heç bir mənəvi inkişafdan söhbət gedə bilməz. İstər valideyn, istərsə də tərbiyəçi-müəllim belə vəziyyətdə olan uşağa elmi bilikləri və həyati bacarıqları öyrətməkdə çətinliklərlə üzləşəcək. Buna görə də təlim-tərbiyə prosesinin uğurlu alınması üçün, uşağa mənəvi cəhətdən yaxın olmaq baxımından çevrəyə güvən hisslərinin aşılanması vacibdir.

## Nəticə / Conclusion

Beləliklə, müşahidələrə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, uşaqlara ailəyə inam və özünə güvən hisslərinin aşılanmasında ailə tərbiyəsinin rolu böyükdür. Məqalədə qeyd olunur ki, ailə "kiçik dövlət"dir, yəni ümumi mənafe, məqsədlərlə birləşən doğma insanlar qrupudur. Bu "kiçik dövlət"in dağılması ilə uşağın tərbiyə olunmasında problemlər meydana çıxır. Ailə üzvləri arasında ayrı-seçkiliyin, ədalətsizliyin olması da ailə münasibətlərinin pozulmasına, övladların ailəyə güvəninin azalmasına gətirib çıxarır.

Məqalədə qeyd olunur ki, uşaqlarda mövcud olan qabiliyyətlərin inkişafı müəyyən dərəcədə məşğələlərin necə təşkil olunmasından asılıdır. Müəllim də, valideyn də uşağın potensial qabiliyyətlərini araşdırmalı, onların diaqnostikasını aparmalı, uşağın bacarığı və maraqları istiqamətində inkişafetdirici məşğələlər təşkil etməlidirlər.

Gənc nəslin düzgün tərbiyə olunması ən mühüm vəzifələrdən biridir və bu vəzifəyə məsuliyyətlə yanaşmaq olduqca vacibdir. Bu məqsədlə, azərbaycanlı, türk və xarici tədqiqatçıların fikirlərinə istinad olunur. Həmçinin, uşaqlarda özünəgüvən, ailəyə, böyüklərə etibar, inam hisslərinin formalaşmasında valideynlərlə yanaşı, tərbiyəçi-müəllimlərin, təlim-tərbiyə müəssisələrinin də böyük rolu vardır.

Sonda bu qənaətə gəlirik ki, şəxsiyyətin formalaşmasında ailə ilə təlim-tərbiyə müəssisələrinin birgə fəaliyyəti həmişə əsas məsələ kimi diqqət mərkəzində olmalıdır.

**Problemin aktuallığı.** Müxtəlif tipli ailələrin övladlarında ailəyə və özünəgüvən hisslərinin fərqli təzahürü həmin ailələrin tərbiyə metodlarının fərqliliyi ilə izah olunur. Buna görə də həm məktəbəqədər müəssisələrdə, həm də məktəblərdə özünəgüvən, ailəyə, müəllimə güvən istiqamətində işə başlamazdan əvvəl müxtəlif ailələrdən gələn uşaqların diaqnostikası aparılır. Tərbiyəçilər və müəllimlər diaqnostik nəticələrə əsaslanmaqla, öz fəaliyyət planlarını bu istiqamətdə hazırlayırlar.

**Problemin elmi yeniliyi.** Valideynlərin təlim-tərbiyə prosesinə cəlb olunmaları məsələsi fəaliyyət planında əks olunur. Məşğələlərin məqsədyönlü aparılması və ailə ilə birgə iş prosesinin təşkili uşaqlarda özünəgüvən hisslərinin formalaşmasının, ailəyə güvən hisslərinin güclənməsinin təminatçısı olardı.

**Problemin praktik əhəmiyyəti.** Bütün bunlarla yanaşı, uşağı hər çevrəyə güvənməyə, hər kəsə inanmağa yönəltmək də doğru seçim deyil. Odur ki, bu məsələlər həm ailələrin, həm də tərbiyəçi-müəllimlərin önəm verməli olduqları problem kimi diqqət mərkəzində saxlanılmalıdır.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Bayramov Ə. S., Əlizadə Ə. Ə. (2009). Psixologiya. Bakı.
2. Əmrahlı L. Ş. (2006). Psixoloji xidmətin əsasları. I kitab. Bakı.
3. Əsədova İ. M. (2019). Məktəbəqədər müəssisələrin idarə olunmasında dəyərlər sistemi. AR Təhsil Nazirliyinin “Kurikulum” jurnalı, Bakı, № 2, s. 43–48.
4. İbrahimov A., Cəfərova Y.( 2000). Uşaqlarımızın istedadına diqqətli olaq. Bakı.
5. Qədirov Ə. (2008). Yaş psixologiyası. Bakı.
6. Qippenreyter Y. (2015). Uşaqla necə ünsiyyət saxlamalı. Bakı.
7. Seyidov S.İ., Həmzəyev M.Ə. (2007). Psixologiya. Bakı.
8. Kuçyunas R. (2010). Psixoloji məsləhətin əsasları. Bakı.
9. Şostrom E. (2012). Anti-Karneqi və insan-manipulyator. Tərc. M.Salur; red. R. Qaraca. Bakı.
10. Bircan Y. (2015). Duyğusal zeka. İstanbul.
11. Cüceloğlu D. (2016). İçimizdeki biz. İstanbul
12. Dökmen Ü. (2004). Küçük Şeyler. Ankara.
13. https://news.milli.az/society/218429.html